Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 07 (6149) 20 fevral 2026-cı il | Qiyməti 40 qəpik

## İlham Əliyev Vaşinqtonda səfərdədir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vaşinqtonda keçiriləcək Sülh Şurasının ilk iclasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın dəvəti ilə bu ölkədə işgüzar səfərdədir.**

## *Hikmət Hacıyev:* "Azərbaycan və Serbiya interregional əməkdaşlıqda mühüm rol oynayırlar"



**Azərbaycan Prezidentinin köməkçisi, Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycan və Serbiyanın interregional əməkdaşlığı ilə bağlı paylaşım edib.**

Adalet.az xəbər verir ki, diplomat bu barədə "X" sosial media hesabında yazıb.

"Azərbaycan və Serbiya strateji tərəfdaşlar və yüksələn orta güclər kimi interregional əməkdaşlıqda da mühüm rol oynayırlar - Azərbaycan Cənubi Qafqazda / daha geniş Xəzər hövzəsində, Serbiya isə Balkanlarda yerləşir.

Zəngəzur Dəhlizi / TRIPP təşəbbüsü Daha Geniş Xəzər / Mərkəzi Asiya ilə Balkan regionları arasında əlaqəliliyin gücləndirilməsi üçün əlverişli imkanlar yaradır", - o bildirib.

## Azərbaycanda 17 gün iş olmayacaq

**8 Mart - Beynəlxalq Qadınlar Günü ilə əlaqədar Azərbaycanda iş və istirahət günlərinin yeri dəyişdirilib.**

Adalet.az xəbər verir ki, həmin gün bu il bazar gününə təsadüf etdiyindən, Əmək Məcəlləsinə əsasən iş və istirahət günlərinin yeri dəyişdirilərək 9 mart da qeyri-iş günü elan edilib.

Beləliklə, şənbə, bazar və bayram günləri də daxil olmaqla, mart ayında ümumilikdə 17 gün qeyri-iş günü olacaq.

## Məhkəmə Əli Kərimli ilə bağlı qərar verdi



**AXCP sədri Əli Kərimlinin barəsində seçilmiş həbs qətimkan tədbirinin 4 ay uzadılmasına etiraz olaraq verilmiş apellyasiya şikayətinə baxılıb. Adalet.az xəbər verir ki, Bakı Apellyasiya Məhkəməsi şikayəti təmin etməyib.**

Xatırladaq ki, Əli Kərimli "Ramiz Mehdiyev işi" ilə əlaqədar saxlanılıb. Ona AR Cinayət Məcəlləsinin 278.1 (hakimiyyəti zorla ələ keçirməyə, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirməyə yönələn hərəkətlər) maddəsi ilə ittiham irəli sürülüb. /Unikal

## Vardanyana 20 il həbs cəzası verildi

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə açıq məhkəmə iclasında yekun məhkəmə qərarı (hökm) elan olunub.**

Adalet.az xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün dövlət hesabına vəkillə təmin olunub. İclasda təqsirləndirilən şəxs, onun müdafiəçisi, zərərçəkmiş şəxslərin və zərərçəkmişlərin hüquqi varislərinin bir qismi və onların nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar, həmçinin Azərbaycan dövləti adından zərərçəkmiş qismində Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov iştirak edib. Hökmə əsasən, R.Vardanyan qəti olaraq 20 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib.

Xatırladaq ki, məhkəmə iclasında dövlət ittihamını müdafiə edən prokuror təqsirləndirilən R.Vardanyanın ömürlük azadlıqdan məhrum olunmasını təklif etmişdi.

## Həcc ziyarətinə sənəd qəbulunun müddəti uzadıldı



**Həcc mövsümü üçün sənəd qəbulu QMİ tərəfindən martın 7-dək uzadılıb.**

Adalet.az xəbər verir ki, bu barədə açıqlamasında Qafqaz Müsəlmanları İdarəsinin Xarici Əlaqələr şöbəsinin müdiri, Həcc elektron sistem rəhbəri Vüsal Cahangiri məlumat verib.

"Səudiyyə Ərəbistanı Krallığının Həcc və Ümrə nazirliyindən gələn təlimatlara əsasən, habelə, xaricdə və bölgələrdə yaşayan vətəndaşlarımızın çoxsaylı müraciətlərini nəzərə alaraq bu ilki Həcc mövsümü üçün sənəd qəbulunun müddəti tərəfimizdən mart ayının 7-dək uzadılmışdır. Vətəndaşlarımızdan xahiş edirik ki, gec qalmasınlar, göstərilən tarixdən sonra bir daha müddət uzadılmayacaq", - o qeyd edib.

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## GÜLLƏLƏR ALTINDA GÖNDƏRİLƏN MESAJ



***Bu günlərdə "Dolu" filminin Komandiri, Azərbaycanın Xalq artisti Məmməd Səfa müəllim mənə qəribə bir video göndərdi. 44 günlük müharibənin şıdırığı vaxtında Hüseyn Mustafayev adlı bir döyüşçü güllələr altında həyəcanla Komandirə telefon açıb ona minnətdarlığını çatdırır.***

***Deyir:***

***- Komandir, döyüşdən əvvəl Dolu filmini izlədik. Kinodan çox təsirlənmişdim. Mən sizi bir dəfə avtobusda görmüşəm. Dolu filminə baxanda siz yadıma düşdünüz. Filmdən sarsıldım, biz gəncləri vətənpərvər ruhda siz yetişdirmisiniz... Komandir, salam. Bilmirəm məni tanıyacaqsınız, ya yox, bir dəfə avtobusda getmişdik, sizi görəndə gözüm dolmuşdu. Soruşdum ki, Dolunun ikinci hissəsini çəkəcəksiniz, dediniz ki, maliyyə problemi var. Filmin sonunda siz getdinz barrikadanı keçdiz ey, Drakonla Pələnglə, Komandir, biz bacardıq, ora biz qayıdacağıq. O filmin ikinci hissəsini orda çəkərik? Komandir, mən Pələngəm, Pələng olacam. Yeriniz görsənir, Komandir.***

**Bax:səh-2**

## GÜNÜN LƏTİFƏSİ

Bir gün Molla Nəsrəddin bir həkimin yanına gedib deyir:

**- Həkim, bir məni yoxla görüm dərdim nədirə**

Həkim Mollanın nəbzini yoxlayıb deyir:

**- Dərdiniz aclıqdır. əyləşin, bizimlə nahar eləyin, sovuşub gedər, qorxulu deyildir.**

Molla həkimin təklifini qəbul edərək oturub möhkəm yeyir, getmək istərkən həkimə deyir:

**- Həkimbaşı, bizim evdə bu xəstəliyə tutulmuş bir neçə adam vardır. İndi ki, siz belə tez mualicə edirsiniz, mən onları da sizin yanınıza göndərməyə məcburam.**

## Prezident İlham Əliyev Nəriman Həsənzadəni "Heydər Əliyev" ordeni ilə təltif edib



**Nəriman Həsənzadə "Heydər Əliyev" ordeni ilə təltif edilib.**

Bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Sərəncama əsasən, Azərbaycan mədəniyyətinin inkişafında müstəsna xidmətlərinə görə Nəriman Əlimәmməd oğlu Həsənzadə "Heydər Əliyev" ordeni ilə təltif edilib.

## Prezident İlham Əliyev Cared Kohen ilə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münxendə "The Goldman Sachs Group Inc." şirkətinin qlobal məsələlər üzrə prezidenti Cared Kohen ilə görüşüb.**

Görüşdə ölkəmizlə şirkət arasında 2010-cu ildən bəri həyata keçirilən uğurlu tərəfdaşlığa toxunuldu, əlaqələrin mövcud vəziyyəti müzakirə olundu.

Azərbaycan iqtisadiyyatının müxtəlif sahələri üzrə ölkəmizlə "The Goldman Sachs Group Inc." arasında əməkdaşlığın perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə "The Goldman Sachs Group Inc." şirkətinin uğurlu tərəfdaşlığının əhəmiyyəti vurğulandı.

Qeyd edək ki, mənzil-qərargahı ABŞ-nin Nyu-York şəhərində yerləşən "The Goldman Sachs Group Inc." 1869-cu ildə təsis edilib. Şirkət investisiya və istehlak bankçılığı, qiymətli kağızlar, aktivlərin idarə edilməsi sahələrində çalışan dünyanın aparıcı qlobal maliyyə institututlarından biridir və hazırda 40-dan çox ölkədə fəaliyyət göstərir. O, müxtəlif siniflər üzrə 2,8 trilyon ABŞ dolları dəyərində aktivləri idarə edir.

## "Azərbaycan Serbiyaya böyük həcmdə sərmayə qoymağa hazırdır

**Məhz aparılan islahatlar nəticəsində bir çox ölkələr, o cümlədən Azərbaycan Serbiyaya böyük həcmdə sərmayə qoymağa hazırdır.**

Bu sözləri Prezident İlham Əliyev Serbiya Prezidenti Aleksandar Vuçiçlə mətbuata bəyanatında deyib.

Dövlətimizin başçısı bildirib ki, elektrik stansiyalarının tikintisi və yenidən qurulması, onların reabilitasiyası hər bir ölkənin gələcək inkişafını təmin edir.

## "Serbiyaya təbii qazın ixracının həcmini artıracağıq"

**Energetika sahəsində bizim əlaqələrimiz indi çoxşaxəli formatda inkişaf edir. Bir müddət bundan əvvəl biz Serbiyaya təbii qazın ixracatına başlamışıq və bu gün qərara gəldik ki, ixracın həcmini artıracağıq.**

Bu sözləri Prezident İlham Əliyev Serbiya Prezidenti Aleksandar Vuçiçlə mətbuata bəyanatında deyib.

"İndi Serbiyaya ixrac ediləcək qazı da elektrik enerjisinə çevirərək artıq təmiz elektrikin əldə olunmasına da nail olacağıq. Bu, həm Serbiya bazarı üçün və gələcəkdə ixrac üçün də imkanlar yaradacaq", - deyə dövlətimizin başçısı vurğulayıb.

## Eldar Əzizov müşavirə keçirdi

**Bakı Şəhər İcra Hakimiyyətində paytaxtın rayon icra hakimiyyətlərinin başçıları və şəhər kommunal xidmətlərinin rəhbərlərinin iştirakı ilə növbəti müşavirə keçirilib.**

BŞİH-dən Adalet.az-a verilən məlumata görə, Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat Xidmətindən verilən məlumata görə, müşavirədə şəhərin sanitar təmizliyinin və onun yazyay mövsümünə hazırlığının vəziyyəti, əsaslı təmir, abadlıq və yaşıllaşdırma işləri və o cümlədən qanunsuz tikintilərlə bağlı məsələlər müzakirə olunub.

İclasda çıxış edən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bildirib ki, Prezident İlham Əliyevin düşünülmüş və uzaqgörən siyasəti sayəsində Azərbaycan özünün müasir tarixində çiçəklənmə və tərəqqinin yüksək zirvəsinə çatmışdır. Vurğulanıb ki, qazanılan uğurların əsasında məhz dövlət başçısının siyasi dahiliyi və onun xalqla möhkəm birliyi durur ki, bu da Azərbaycanın bu günkü və gələcək inkişafının təminatıdır.



Bakı Şəhər İcra Hakimiyyətinin başçısı qeyd edib ki, rayon icra hakimiyyəti başçıları rayonlarda olan nöqsanları operativ şəkildə aşkar edib aradan qaldırmalı, məsuliyyət və təşəbbüskarlığın bu gün zamanın tələbi olduğunu yadda saxlamalıdırlar.

Eldar Əzizov Suraxanı, Qaradağ və Xəzər rayonlarında sanitar təmizlik məsələlərinin vəziyyətini kəskin tənqid edərək, bu rayonların bəzi qəsəbələrinin ümumşəhər standartlarından geri qaldığını qeyd edib. Yol verilən nöqsanlara görə Suraxanı Rayon İcra Hakimiyyətinin başçısına töhmət, Xəzər Rayon İcra Hakimiyyətinin başçısına isə şifahi xəbərdarlıq elan edilib. Şəhər rəhbəri rayon başçılarından yerlərdə vəziyyəti yaxşılaşdırmaq üçün təcili tədbirlərin görülməsini tələb edib. Töhmət alan Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Adil Əliyev çıxış edərək bütün çatışmazlıqların bir ay ərzində aradan qaldırılacağına söz verib.

Toplantıda paytaxt rayonlarinda təmizlik, abadlıq və yaşıllaşdırma ilə bağlı məsələlər müzakirə olunub. Əldə edilən nəticələr qənaətbəxş hesab edilib, Novruz bayramına hazırlıq və işlərin daha da təkmilləşdirilməsi üçün tapşırıqlar verilib. Toplantıda rayonlarda qanunsuz tikintilərin monitorinqinin nəticələrinə dair görüntülər təqdim edilib. Bu mövzu ciddi müzakirə edilərək aşkar edilmiş qanun pozuntuları əyani surətdə nümayiş etdirilib. Qeyd edilib ki, bu kimi hallar əsasən paytaxtın Sabunçu, Qaradağ, Xəzər və digər rayonlarında aşkarlanıb. Bu kimi neqativ hallarla mübarizə aparmaq üçün müvafiq tapşırıqlar verilib.

Bildirilib ki, müşavirədə verilən tapşırıqların icrasına nəzarəti icra hakimiyyətinin monitorinq qrupu həyata keçirəcəkdir. Yaz-yay mövsümünə hazırlıq məqsədilə qərargahın yaradılması və nəticələrin iki ay ərzində əlavə müzakirəyə təqdim edilməsi qərara alınıb.

## *Qadın hərbçilərlə bağlı qanuna dəyişiklik ediləcək: 3 ildən 6 ayadək...*

**Müddətdən artıq həqiqi hərbi xidmətə qəbul edilәndə qadınlarla bağlanan ilkin bağlaşma müddətinin 3 ildən 6 ayadək azaldılacaq.**

Adalet.az xəbər verir ki, bu, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində müzakirəyə çıxarılan "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlara təklif edilən dəyişiklikdə əksini tapıb.

İlkin bağlaşma müddəti müddətli həqiqi hərbi xidmətdən, ehtiyatdan daxil olanlar və qadınlar üçün 3 il müəyyən edilmişdir. Həmin müddəa "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"nin 12-ci maddəsinin "b" bəndində də nəzərdə tutulub.

Praktikada kişi cinsli vətəndaşlar müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunmazdan əvvəl müddətli həqiqi hərbi xidmət keçdiklərinə görə hərbi xidmətə uyğunlaşma mərhələsini artıq başa vurmuş olurlar. Qadınlar isə müddətli həqiqi hərbi xidmət keçmədən birbaşa müddətdən artıq həqiqi hərbi xidmətə qəbul edildiklərinə görə ilkin mərhələdə hərbi xidmət şəraitinə uyğunlaşmada çətinliklərlə üzləşirlər. Qadınlarla dərhal 3 illik ilkin bağlaşmanın bağlanması onların uyğunlaşma dövrünü keçmədən uzunmüddətli öhdəlik götürməsinə səbəb olur ki, bu da sonradan əsasən ailə vəziyyəti və digər obyektiv səbəblərlə hərbi xidmətdən vaxtından əvvəl ehtiyata buraxılmaları ilə nəticələnir və kadr sabitliyinə mənfi təsir göstərir.

Qeyd olunanları nəzərə alaraq, qanun layihəsində qadınlarla bağlanan ilkin bağlaşma müddətinin 3 ildən 6 ayadək azaldılmasını nəzərdə tutan müddəanın əlavə edilməsi təklif olunur.

Bildirilib ki, bu dəyişiklik qadın hərbi qulluqçuların hərbi xidmətə uyğunlaşma imkanlarının artırılmasına, kadr axınının azaldılmasına və hərbi xidmətin təşkilinin səmərəliliyinin yüksəldilməsinə xidmət edəcək.

AQİL ABBAS

# GÜLLƏLƏR ALTINDA GÖNDƏRİLƏN MESAJ

***Bu günlərdə "Dolu" filminin Komandiri, Azərbaycanın Xalq artisti Məmməd Səfa müəllim mənə qəribə bir video göndərdi. 44 günlük müharibənin şıdırığı vaxtında Hüseyn Mustafayev adlı bir döyüşçü güllələr altında həyəcanla Komandirə telefon açıb ona minnətdarlığını çatdırır.***

***Deyir:***

***- Komandir, döyüşdən əvvəl Dolu filmini izlədik. Kinodan çox təsirlənmişdim. Mən sizi bir dəfə avtobusda görmüşəm. Dolu filminə baxanda siz yadıma düşdünüz. Filmdən sarsıldım, biz gəncləri vətənpərvər ruhda siz yetişdirmisiniz... Komandir, salam. Bilmirəm məni tanıyacaqsınız, ya yox, bir dəfə avtobusda getmişdik, sizi görəndə gözüm dolmuşdu. Soruşdum ki, Dolunun ikinci hissəsini çəkəcəksiniz, dediniz ki, maliyyə problemi var. Filmin sonunda siz getdinz barrikadanı keçdiz ey, Drakonla Pələnglə, Komandir, biz bacardıq, ora biz qayıdacağıq. O filmin ikinci hissəsini orda çəkərik? Komandir, mən Pələngəm, Pələng olacam. Yeriniz görsənir, Komandir.***





***Komandir də deyir:***

***- İnşallah, ikinci hissəni biz sizinlə bir yerdə çəkəcəyik.***

***Döyüşçü:***

***- Qarabağ Azərbaycandır!***

***Həmin videonu və həmin zəngi istəsəniz saytımızda izləyə bilərsiniz, çünki mən burda qısa yazmışam.***

***Bax: (https://adalet.az/az/writers/detail/gulleler-altinda-gonderilen-mesaj-aqil-abbas-yazir-1771407320).***

***Mən "Dolu" romanını 2008-ci ildə yazmışdım. 2012-ci ildə də film çəkilib. Mən qələbəmizə inanırdım və milləti də, gəncləri də Qarabağı azad edəcəyimizə inandırmağa çalışırdım. Və inandıra da bildim. Mən xoşbəxtəm ki, həm Şuşada bayrağımızın sancıldığını gördüm, Qarabağın azad olunmağını gördüm, həm də xoşbəxtəm ki, öz imkanım daxilində döyüşçülərə bu film vasitəsilə ruh vermişəm, qələbəyə inandırmışam.***

***"Dolu-2" filminin ssenarisi də yazılıb və Mədəniyyət Nazirliyinə təqdim olunub. Və inanıram ki, bu film əvvəlkindən də təsirli olacaq.***

***"Dolu" filmi çəkiləndən sonra mənə zəng edib dedilər ki, Vasif Talıbov səni Naxçıvana dəvət edir, filminlə birlikdə. Getdim.***

***Akademik İsa Həbibbəyli qarşıladı, onda Naxçıvan Universitetinin rektoru idi. Təxminən bir həftə Naxçıvandakı ali məktəblərdə, hərbi hissələrdə görüşüm oldu. Naxçıvanın Gənclik Mərkəzində filmlə bağlı çox geniş bir tədbir keçirildi. Burda da film göstərildi və müzakirə olundu.***

***Geri qayıtmaq istəyəndə dedilər ki, Vasif müəllim səni görmək istəyir. Kabinetində bir çay süfrəsi arxasında təxminən iki saat söhbətləşdik. Film çox xoşuna gəlmişdi, əsəri də oxumuşdu. Mənə dedi ki, bütün hərbi hissələrə və məktəblərə televiziya və aparatura bağışlamışam ki, tez-tez bu filmi izləsinlər və qələbəyə ruhlansınlar.***

***Bir də soruşdu ki, niyə tez gedirsən, hələ səninlə görüşmək istəyənlər çoxdur.***

***Dedim:***

***- Vasif müəllim, adamı iki cür qovurlar - bir üzünə baxmırlar çıxıb gedir, bir də üzünə yaxşı baxırlar, utandığından çıxıb gedir. İndi Naxçıvan camaatından o qədər mehribançılıq gördüm ki, bu mehribançılıqdan utanıb gedirəm.***

***İndi bu videoya baxanda gördüm ki, heç demə, döyüşdən əvvəl əsgərlərimizə ruh vermək üçün "Dolu" filmini göstərirmişlər.***

***Hüseyn Mustafayev hərbçidi. Şükürlər olsun ki, 44 günlük müharibədən də sağ-salamat qayıdıb. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qarşılarında baş əyirik, qazilərimizə də can sağlığı versin. Allah Müzəffər Ali Baş Komandanımız İlham Əliyevi qorusun! Onun sərkərdəliyi sayəsində 200 illik bir töhmətdən qurtulduq. İndi alnımız açıqdı, başımız da uca.***

***Və sonda. Hərbçi dostum Hüseyn Mustafayevi də redaksiyamızda görmək istərdim.***

# Zəngəzur dəhlizi Azərbaycana nə qədər gəlir gətirəcək?

**”Münxen Təhlükəsizlik Konfransı çərçivəsində təşkil edilən”Açıq dəhliz siyasəti: Trans-Xəzər əməkdaşlığının dərinləşdirilməsi” mövzusunda panel müzakirələrində və eləcə də Azərbaycan Prezidenti İlham Əliyevin ”France 24” telekanalına müsahibəsində Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun (TRIPP), o cümlədən Zəngəzur dəhlizinin əhəmiyyəti xüsusi vurğulanıb”.**

Adalet.az xəbər verir ki, bunu deputat Vüqar Bayramov deyib. O bildirib ki, Azərbaycan Prezidenti panel müzakirələrində çıxışı zamanı dəhlizin Qərb ilə Şərq ilə yanaşı, Cənubi Qafqazda yerləşən ölkələrə də fayda verəcəyini bildirib:



”Zəngəzur dəhlizinin istifadəyə verilməsi bütövlükdə region dövlətlərinin iqtisadi inkişafına dəstək olacaq. Bir tərəfdən güclənən Mərkəzi Asiya və iqtisadi artımlı Çin, digər tərəfdən isə istehlak mallarına tələbi artan Avropa dəhliz vasitəsi ilə yükdaşımaları həyata keçirə biləcəklər. İlkin qiymətləndirmələrə görə, Zəngəzur dəhlizinin istifadəsi Azərbaycanın qeyri-neft iqtisadiyyatının əlavə olaraq 2 faiz və qeyri-enerji ixracatının isə illik 700 milyon dollar artmasına səbəb ola bilər. Dünya Bankının hesablamalarına görə, orta dövrdə dəhliz 50 milyard dollarlıq ticarət dövriyyəsinə şərait yarada bilər. ”Bloomberg” agentliyi dəhlizdən istifadənin Avropa-Asiya marşurutu üzrə yüklərin daşınmasında 12-15 günə qənaət edilməsinə gətirib çıxaracağı qənaətindədir. Qitələr arasındakı ticarət dövriyyəsinin 200 milyard dollar artacağı gözlənilir. Yüklərin 10-15 faizinin Zəngəzur dəhlizi vasitəsilə daşınacağı təqdirdə Azərbaycan yaxın gələcəkdə ildə 3.0 milyard dollar tranzit gəliri əldə edəcək. Göründüyü kimi, Zəngəzur dəhlizinin istifadəyə verilməsi nəinki regionda, bütövlükdə qitədə yükdaşımalar xəritəsinin dəyişməsinə səbəb olacaq”.

**Sübhan**

**Rüstəm Hacıyev**



# Rusiya-Ukrayna danışıqları nəticəsiz qala bilər

**Ukrayna münaqişəsinin sülh yolu ilə bağlı Cenevrədə keçirilən üçtərəfli danışıülar prossesi yenə də nəticəsiz qala bilər. Bu barədə Axiosun müxbiri Barak Ravid özünün internet-porlalında məlumat verib.**

**Jurnalistin sözlərinə görə, Rusiya nümayəndə heyyətinin rəhbəri, RF-sı prezidentinin köməkçisi Vladimir Medinskinin irəli sürdüyü mövqeyi ilə bağlı, danışıqlar dalana dirənə bilər. Danışıqlar bağlı qapılar arxasında aparıldığı üçün, nə Medunskinin ortaya qoyduğu mövqeyi, nə də Ukrayna və ABŞ-ın bu mövqeyə münasibəti barədə məlumat əldə etmək mümkün olmayıb.**

**Bildirilir ki, Cenevrə danışıqları çox gərgin atmosferdə keçirilir. Bağlı qapılar arxasında keçirilən danışıqlar 6 saat davam edib. Tərəflər danışıqların bu gündə davam etdirilməsi ilə bağlı razllığa gəliblər.**

**Rusiya nümayındə heyyıtinin rəhbəri Vladimir Medinski müzakirələrlə bağlı şərh verməkdən imtina edib.**

**Ukrayna nümayındə heyyətinin üzvü, Milli təhlükəsizlik və müdafiə şurasının katibi Rüstəm Umerov isə, ölkəsinin təhlükəsizlik və humanitar sahəsinin danışlqşqların əsas müzakirə mövzusu olduğunu bildirib.**

# Politoloq: “Vardanyanı həbs etməsəydik, Paşinyanı devirmək üçün...”

**”Ermənistan parlamentinin sədri Alen Simonyan deyib ki, İrəvan Bakıda məhbus həyatı yaşayan sonuncu erməni evinə qayıdana qədər öz işini davam etdirəcək. Simonyan sadəcə bu açıqlama ilə erməni ictimaiyyətinə mesaj göndərir ki, Ermənistan hökuməti guya erməni məhbusların azad olunması işində dayanmadan çalışır. Halbuki, Ruben Vardanyan kimi caninin sərbəst buraxılması başda baş nazir Nikol**



**Paşinyan və elə Alen Simonyan olmaqla Ermənistan hakimiyyətinin problemlərini artırardı”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

O, bildirib ki, bir anlığa təsəvvür edək ki, Ruben Vardanyan hansısa yolla Qarabağdan Ermənistana qaçmağa müvəffəq olur:

”Bu halda İrəvanda peyda olan oliqarx erməni Rusiyanın da dəstəyi ilə Nikol Paşinyanın devrilməsi və Ermənistanda daxili gərginliyin artırılması üçün milyardlarını xərcləyəcəkdi. Yəni Vardanyanı biz həbs etməsəydik, onu bir müddət sonra İrəvanda Paşinyan həbs etmək məcburiyyətində qalacaqdı. Bu isə parlament seçkisi öncəsində həmin oliqarxın tərəfdarlarının Paşinyana təzyiqi ilə müşahidə olunacaqdı. Ona görə də Alen Simonyan açıqlamasında səmimi deyil. O və onun lideri Ruben Vardanyanın məhz Azərbaycanda məhbus həyatını davam etdirməsində maraqlıdır”.

**Vasif ƏLİHÜSEYN**

# "Əgər Pezeşkiyana səlahiyyətlər dövr edilərsə..."

**”İrana ABŞ və İsrail müdaxilə etməsə belə durum getdikcə ağırlaşacaq. İqtisadiyyat çökür. ABŞ-ın İranı demək olar ki, mühasirəyə alması nəticəsində müharibəyə hazır vəziyyətdə davam etməyə məcbur olan rejim bütün gəlirləri mümkün hücum və müdafiəyə yönəldib. Prezident Pezeşkiyan bəyan edib ki, onun aylıq maaşı 1000 dollara enib. Bu durum davam edərsə əhalinin sosial-iqtisadi vəziyyəti daha da ağırlaşaraq son həlledici ölüm-qalım üsyanına qalxmağa vadar edəcək. Mollalar ölkəni siyasət və ədalətlə deyil, kin-küdurət, nifrət, təkəbbür və qəzəblə idarə edirlər ki, bu da xalqın məhvinə gətirib çıxarır”.**

Adalet.az xəbər verir ki, bunu siyasi şərhçi Tural İrfan deyib. O, bildirib ki, Prezident Pezeşkiyanın çalışmaları, rejim başçılarına nəsihətləri hələ ki, fayda vermir:

”Əhalinin etirazlarında günahın hakimiyyətdə olmasını konkret bəyan edən prezidentə demək olar ki, hələ də normal səlahiyyət verilmir. Hətta ötən günlərdə dövlət televiziyası onun çıxışını yarımçıq kəsdi, jurnalistlər ona ”cənab prezident” yox, ”ağayı doktor” (cənab həkim) deyə müraciət etməyə başlayıblar. Prezident qonşu ölkələrə təşəkkür edərək onlara qarşı söyüş, təhqir, böhtan kampaniyası aparmamağa çağırsa da, mollalar tam əksinə, yenə də Azərbaycanı, Türkiyəni şərləməyə davam edirlər. Demək pərdə arxasından Şəms Lahicilər, Müctəhid Kərəkilər mollalara işarə verir ki, ona fikir verməyin, işinizdə olun. Şübhəsiz ki, prezidenti nüfuzdan salmağa yönəlik Sepah və radikal, mühafizəkar dairələr işlər görürlər. Yeganə yol, ali dini liderin səlahiyyətlərini prezidentə dövr edərək ölkənin bütün güc strukturlarını ona tabe etməsidir. Bu, bir neçə mərhələdə baş verə bilər. Qartımış molla rejimi artıq düşünmə qabiliyyətini də sanki itirib. Əgər özünü ələ ala bilsə, idarəetmə strukturlarında reform apararaq referendum da keçirilə bilər. Hazırki sistemin qalması yaxud getməsi xalq tərəfindən müəyyən olunar. Əgər prezident Pezeşkiyana səlahiyyətlər dövr edilərsə o İranı xilas edə bilər. Hakimiyyət hər hansı reformist addım atmasa iqtisadi vəziyyət yaxın zamanda dözülməz həddə çataraq yenidən xalqın ayaqlanmasını labüd edəcək. Bu dəfə də xalq qalxsa, fürsəti əldən verməyib ABŞ bir yandan, İsrail digər yandan müdaxilə edəcək ki, onda da ara qarışıb məssəb itəcək. Rejim də çökəcək, xalq da qırılacaq, Pezeşkiyanın aqibəti də Allah bilir, qalacaq yoxsa gedəcək...

Amma hazırki rejim elə bir xain rejimdir, son anda görsələr hakimiyyət Pezeşkiyana keçir, özləri çalışacaq ki, ona da qalmasın. Necə ki, Bəşşar Əsəd Moskvaya qaçarkən iki daşın arasında macal tapıb ölkədə strateji nöqtələrin koordinatlarını İsrailə ötürə bilmişdi ki, qarşılığında onun təyyarəsini vurmasınlar. Hazırki molla rejiminin batini dairələri də, şübhəsiz ki, islahatçı və türk əsilli olduğu üçün, xüsusən də Azərbaycan və Türkiyəyə rəğbət bəslədiyindən Pezeşkiyana nifrət bəsləyirlər. Prezident açıq - aşkar rejimin mahiyyətini dəyişməyə məcbur olduğunu ifadə edir. Mütləq reform, islahat, köklü dəyişikliklərin vacib olduğunu qeyd edir. Amma rejim isə bu barədə nəinki düşünür, əksinə xalqı və beynəlxaq aləmi bəzi manevrlərlə aldatmağa çalışır. Kənar müdaxilə olmasa belə ölkəni müharibə vəziyyətində saxlamaq çox davam edə bilməz. Siyasi gərginlik hakimiyyətin daxilində parçalanmaya gətirib çıxaracaq və xalq yenidən ayaqlanacaq”.

**Vasif ƏLİHÜSEYN**

## *“ABŞ və İran müharibəyə hazırlaşır”*



**”Cenevrədə keçiriləcək ABŞ-İran danışıqlarının müsbət nəticə verməsi gözlənilmir. İran prezidenti danışıqlarda və razılığın əldə edilməsində maraqlıdır. Amma, Ali dini rəhbər və SEPAH öz mövqeyindən geri çəkilmir”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib. O, bildirib ki, həm ABŞ, həm də, İran danışıqların nəticə verməyəcəyinin fərqindədir:

”Məhz buna görə ABŞ İran ətrafına uzun müddətli hərbi əməliyyatlar üçün qoşunlarını toplayır. İran isə vaxt qazanaraq Çindən havadan müdafiə sistemləri və müasir qırıcılar alır. Hər iki tərəf danışıqlar aparsa da, müharibəyə hazırlaşır. İranda siyasi sistemin dəyişməsi polimikatı. İran şahının oğlunun hakimiyyətə gəlməsi mümkün deyil. Sadəcə ABŞ və İsrail ondan İran rejiminə qarşı siyasi və psixoloji təzyiq kimi istifadə edir. İran hakimiyyəti də bilir ki, Rza Pəhləvini İran xalqı qəbul etməz. İran xalqı bir rejimdən qurtarıb, digər rejimə keçməz. Onu da qeyd edim ki, ABŞ İranla müəyyən şərtlərlə razılığa gedə bilər. Amma, İsrail faktoru Donald Trampı çətin vəziyyətə salır”.

**Sübhan**

# "Azərbaycanın süni intellekt sahəsində ABŞ və İsraillə imzaladığı müvafiq sazişlərin..."

**”İsrail istehsalı olan və Azərbaycanın İkinci Qarabağ müharibəsində geniş tətbiq etdiyi ”Harop” kamikadze dronunun analoqunun Ermənistana da ixrac edildiyi barədə məlumatlar yayılıb. Ermənistanın ”Davaro” şirkətiinin nümayiş etdirdiyi ”Dragonfly-3” pilotsuz aparatının ”Harop” dronlarına oxşarlığı vurğulanıb. Məsələ burasındadır ki, Hindistan Ermənistana müxtəlif növ hərbi texnika ixrac edir və bunların içərəsində İsrail texnologiyası ilə hazırlanan dronlar da ola bilər. Hindistanla İsrail arasında hərbi əməkdaşlıq üst səviyyədədir və bu sahədə ortaq layihələri mövcuddur”.**




Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib. O, bildirib ki, Azərbaycanla Hindistan İsraillə süni intellekt sahəsində də əməkdaşlığı genişləndirməyə çalışırlar: ”Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev fevralın 4-də İsrailə səfəri çərçivəsində süni intellekt sahəsində anlaşma memorandumu imzalayıb. İmzalanma mərasimində İsrailin baş naziri Benyamin Netanyahu da iştirak edib. Tədbirdə iki ölkə arasında hibertəhlükəsizlik, rəqəmsallaşma və kosmik sahədə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb. Bu arada, Yeni Dehlidə süni intellekt mövzusunda sammit öz işinə başlayıb. Müzakirələrdə İsraili müxtəlif şirkətlər təmsil edir. Hindistan bu sahədə İsraillə əməkdaşlığını gücləndirməyə üstünlük verir. İsraildə süni intellekt sahəsində çalışan 2300 şirkət mövcuddur. Bu şirkətlər gəlirlərini artırmaq üçün İsraillə tərəfaşlıq münasibətləri olan ölkələrlə ortaq layihələr həyata keçirirlər”. Politoloq bildirib ki, ”Google” şirkətinin Hindistana 15 milyard dollarlıq yatırımı İsrail şirkətlərini də bu bazara diqqətini artırıb:

”Hindistanın informasiya texnologiyaları sahəsində 6 milyon mütəxəssisi var və onlar 180 min startap layihəsi üzərində çalışırlar.

Hindistan hökuməti süni intellekt tədqiqatlarını, infrastrukturunu və sektorlar üzrə tətbiqini artırmaq üçün 1,25 milyard ABŞ dolları dəyərində beş illik plan qəbul edib. Eynilə, İsraildə də baş nazirin yanında xüsusi süni intellekt mərkəzi təsis edilib.

Beləliklə, hazırda dövlətlər arasında rəqabət iqtisadiyyat və ordularının gücləri ilə yanaşı süni intellekt sahəsində əldə etdikləri uğurlarla da ölçülür. Bu baxımdan Azərbaycanın süni intellekt sahəsində ABŞ və İsraillə imzaladığı müvafiq sazişlərin həyata keçirilməsinin əhəmiyyəti böyükdür”.

**Sübhan**



Səxavət Məmməd

# Hələ də müharibə riski var...

**Azərbaycanla Ermənistan arasındakı sülh gündəmi fonunda İrəvanın atdığı hərbi addımlar diqqət çəkir. Ermənistan tərəfi Hindistandan aldığı silahları, ABŞ-ın tədarük etdiyi kəşfiyyat dronlarını və yeni inşa olunmuş bunkerləri nümayiş etdirməklə müəyyən mesajlar verir.**

**Bu silahların və texniki vasitələrin xüsusiyyətləri barədə internet resurslarında kifayət qədər məlumat var. Ona görə də texniki detallara yox, məsələnin mahiyyətinə və Azərbaycandakı reaksiyalara toxunmaq istəyirəm.**

**44 günlük müharibədən artıq 5 il keçib. Bu müddət ərzində müasir müharibənin xüsusiyyətləri tamamilə dəyişib. Azərbaycanın 5 il əvvəl tətbiq etdiyi taktika və strategiyanı bu gün "son model" hesab etmək olmaz. Eyni zamanda, informasiya və psixoloji müharibə metodları da təkamül edib. Dəfələrlə qeyd etdiyim kimi, Azərbaycan həm döyüş meydanında, həm də informasiya cəbhəsində Rusiya-Ukrayna müharibəsini dərindən analiz etməli və nəticə çıxarmalıdır. Lakin görünən odur ki, bəziləri hələ də eyforiyadan ayılmayıb.**

**Məsələn, Ermənistanın Hindistandan aldığı silahlarla bağlı reaksiyalara baxdım - yanaşma primitiv səviyyədədir. Bəzi iddialara görə, Hindistan cəmi 2-3 ölkəyə silah satır. Reallıq isə tam fərqlidir: Hindistan 100-dən çox ölkəyə silah ixrac edir, hərbi sənayesi isə Rusiya, ABŞ və İsraillə sıx əməkdaşlıq içindədir. Ermənistana satılan, İsrailin "Harop"una bənzər kamikadze dronlar barədə "bunu Hindistan oğurlayıb" deməklə təsəlli tapanlar var. Halbuki bu, oğurluq deyil, rəsmi texnoloji əməkdaşlığın nəticəsidir; yəni kim pulunu ödəyirsə, silahı da o alır.**

**Düşmənin silahlarını aşağılamaqla, onların "yararsız" olduğunu deməklə iş bitmir. Bu, ekspertiza yox, kütləyə oynamaqdır. Belə hallarda ən effektiv cavab - qarşı tərəfin silahlarına qarşı bizim arsenalımızda olan analoqları və cavab imkanlarını nümayiş etdirməkdir. ABŞ dronları ilə bağlı yazılan "heç nəyə yaramır" tipli şərhlər də eyni dərəcədə qeyri-ciddidir.**

**Gələk bunkerlərə. Bu istehkamlar 44 günlük müharibədən sonra tikilməyə başlasa da, antiterror əməliyyatından sonra proses daha da sürətləndi. Bu barədə 2024-cü ildə yazmışam, TV-lərdə fikirlərimi bildirmişəm. Yəni, bunkerlər sürpriz deyil. Amma burada da yanaşma eynidir: "Müharibədə dağıtmışıq, yenə dağıdarıq". Hətta bir yazıda "Kəlbəcərdəki, Xocavəntdəki bunkerləri dağıtmışıq" ifadəsinə rast gəldim. 44 günlük müharibədə Kəlbəcərdə döyüş olmadığını, rayonun siyasi yolla qaytarıldığını unudanlara nə demək olar?**

**Ermənistan hakimiyyəti bu nümayişlərlə iki məqsəd güdür:**

**Daxili auditoriya: Xalqa ordunun bərpa olunduğu mesajı verilir. Paşinyanın ordu günü ilə bağlı müraciətində maaş və təminat məsələlərini qabartması da buna xidmət edir. Tarix göstərir ki, məğlub tərəflər revanş üçün daha sürətli inkişaf yolu seçir.**

**Azərbaycana mesaj: Bu bunkerlər məhz bizim istiqamətdə qurulur. Mesaj aydındır: "Bu gün sülh danışsaq da, sabah niyyətiniz dəyişsə, hazır olacağıq".**

**Azərbaycan tərəfi isə təkcə Ermənistanın aldığı silahların alternativlərini almaqla kifayətlənmir, həm də müdafiə qabiliyyətini daha geniş spektrdə artırır. Hesab edirəm ki, biz dron texnologiyasını təkcə havada deyil, quruda da inkişaf etdirməliyik. Bunkerlərin zərərsizləşdirilməsi üçün yerüstü dronlar (robot-texnika) gələcəyin əsas tələbidir.**

**Bəziləri bizim də bunkerləşməyə keçməyimizi təklif edir. Razı deyiləm. Bizim mövqelərimiz müdafiədən çox, hücum xarakterlidir. Bu 44 günlük müharibədən əvvəl də belə idi, indi də. Region hələ də müharibə riskindən sığortalanmayıb. Bu səbəbdən həm hərbi, həm də informasiya sahəsində ciddi islahatlar şərtdir. Təbliğatçılıq (propaqanda) real nəticə vermir. Proseslər onu göstərir ki, orduda da kadrlarla bağlı müəyyən islahatlar həyata keçiriləcək. Hətta İran ABŞ gərginliyi olmasaydı, bu islahatların həyata keçdiyini indiyənə qədər görmüşdük. Müasir müharibə müasir yanaşma və kadr potensialı tələb edir.**

**Ermənistan nə qədər silahlansa da, güc balansı hələ də dəyişməyib, Azərbaycanın xeyrinədir, ancaq bu, arxayınlıq yaratmamalıdır. Müharibədən sonra proqnoz edilirdi ki, Ermənistanın ən azı 2020-ci ilin 26 sentiyabr həddinə çatması üçün uzun illər və milyardlar lazım olacaq. Hazırkı proseslər onu göstərir ki, Ermənistan proqnozlaşdırılan illəri xeyli qabağa çəkə bilib. Yəni, dünənin igidi əsgər idisə, bu günün, sabahın "igidi" süni intellekt, "humanoid" olacaq. Düşünürəm ki, xüsusilə peşəkar kadrların qorunması və hərbi islahatların dərinləşməsi dövlətin prioritetinə çevrilməlidir.**

# ABŞ-Azərbaycan əməkdaşlığının yeni mərhələsi postmünaqişə dövründə etimadı artırır

**Azərbaycan-ABŞ münasibətlərində strateji tərəfdaşlıq mərhələsi açılıb. Bu yeni əməkdaşlıq mərhələsi ölkələr arasında siyasi dialoqla yanaşı, real layihələr və uzunmüddətli qarşılıqlı faydalı əməkdaşlıq mexanizmlərini əhatə edir. Energetika, təhlükəsizlik, texnologiya və regional inteqrasiya kimi sahələrdə əməkdaşlıq münasibətlərin daha da dərinləşməsinə zəmin yaradır.**

Bu sözləri mətbuata açıqlamasında Milli Məclisin deputatı Könül Nurullayeva deyib.

O bildirib ki, ABŞ-ın Vitse-prezidenti Cey. Di. Vensin ölkəmizə səfəri zamanı Prezident İlham Əliyevlə aparılan müzakirələr, imzalanan ABŞ-Azərbaycan Strateji Tərəfdaşlıq Xartiyası regional təhlükəsizlik və ikitərəfli əməkdaşlıq baxımından mühüm əhəmiyyət kəsb edir. Sənədin əsas üstünlüklərindən biri ərazi bütövlüyü və suverenliyə dəstəyin ifadə olunmasıdır. Bu o deməkdir ki, qarşılıqlı əməkdaşlıq zamanı heç bir halda bu məsələ müzakirə mövzusu ola bilməz.

Xartiya çərçivəsində təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığın genişlənməsi, müdafiə qabiliyyətinin gücləndirilməsinə, həmçinin sərhəd və enerji infrastrukturunun daha səmərəli qorunmasına da töhfə verəcək. Region enerji və nəqliyyat dəhlizləri baxımından qlobal əhəmiyyət daşıdığından, bu istiqamətdə əməkdaşlıq sabitliyə də töhfə verəcək.



Deputat qeyd edib ki, Xartiyanın mühüm aspektlərindən biri də sülhün təşviqidir. Məhz 2025-ci il avqustun 8-də Vaşinqtonda əldə edilmiş razılaşmadan sonra regionda yeni sülh dövrü başlayıb. ABŞ ilə əməkdaşlıq postmünaqişə dövründə etimadın artırılması, kommunikasiyaların açılması və iqtisadi inteqrasiyanın genişlənməsi baxımından da əhəmiyyətlidir. Ümumiyyətlə, güclü beynəlxalq tərəfdaşlıq Azərbaycanın mövqelərini möhkəmləndirərək, regionda uzunmüddətli sabitliyin formalaşmasına zəmanət verir. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin əsas və etibarlı təminatçısı olduğundan Birləşmiş Ştatlar da bu sahədə ölkəmizlə işbirliyinə önəm verir. Strateji tərəfdaşlıq enerji ixracı, yaşıl enerji layihələri və alternativ marşrutların inkişafı sahəsində də perspektivlidir. Bu isə yalnız iqtisadi deyil, həm də geosiyasi əhəmiyyət daşıyır. Mövcud geosiyasi reallıqlar fonunda ABŞ ilə yüksəksəviyyəli tərəfdaşlıq Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsinə xidmət edir.

# ***Politoloq:*** "Ruben Vardanyanın buna etiraz etməyə haqqı yoxdur"

**"Ruben Vardanyanın 20 il azadlıqdan məhrum edilməsi təbiidir. Bu məhkəmə prosesi tam şəffaf, açıq, ədalətli şəkildə keçirildi. Burda hər hansı bir formada ayrı-seçkilik, qeyri-qanuni heç bir hal baş verməyib. Açıq şəkildə məhkəmə prosesi həyata keçirilib".**

Bunu Adalet.az-a açıqlamasında politoloq Samir Hümbətov deyib.

O, bildirib ki, Ruben Vardanyanın öncə Rusiya vətəndaşı olması və sonra Azərbaycanın Qarabağ bölgəsinə gəlib məskunlaşması, silah-sursat alması və bu kimi terrorçuluğu dəstəkləyən addımlarının cavabı olmalı idi:



"İndi Ruben Vardanyanın həbsinin arxasında duran səbəblər hər kəs üçün bəllidir. Yəni konkret cinayətlər var, bu cinayətlərin cəzası var və Azərbaycan qanunvericiliyi ilə ölkəmizin ərazisində hər hansı bir qruplaşma yaratmaq, terror, mütəşəkkil cinayətkarlıq dəstəsi etmək konkret bir cinayət aktını həyata keçirir. Düşünürəm ki, bu cür vəziyyətlərdə əlbəttə, Azərbaycan dövləti tam qanuni bir addım posedurları həyata keçirir. Bu baxımdan düşünürəm ki, biz verilən bu cəza tam ədalətlidir. Azərbaycan dövləti tam şəffaf keçirdiyi məhkəmə prosesi ilə bu qənaətə gəlib.

S.Hümbətov deyib ki, düzdü, Ruben Vardanyanın çıxışlarında onun etirazları var, amma onun bu etirazları etməyə haqqı yoxdur:

"Çünki o başqa bir dövlətin ərazisinə girməklə, orda qanunsuz silahlı qruplaşmalar yaratmaqla cinayət törədirdi. Bunun da mütləqdir ki, bir cəzası var və Azərbaycan dövləti də bunu həyata keçirdi. O baxımdan düşünürəm ki, R.Vardanyana verilən cəza normaldır. Onun yaşı 65-dan aşağı olsaydı, ömürlük azadlıqdan məhrum edilərdi. Hesab edirəm ki, onun törətdiyi konkret cinayətdir və bunun da cəzası çəkilməlidir".

**Vasif ƏLİHÜSEYN**

# *"Tramp yenidən Zelenskini Rusiyaya güzəştə getməyə məcbur edir"*

**"ABŞ Prezidenti Donald Tramp Ukraynanın danışıqlar masasına oturmasına çağırıb. Nə qədər gec deyil, Ukrayna Rusiya ilə razılaşmalıdır. Belə başa düşülə bilər ki, Volodimir Zelenski danışıqlara getmir. Amma, bütün danışıqlara Ukrayna gedir".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

Onun sözlərinə görə, sadəcə Tramp bununla demək istəyir ki, Ukrayna Donbası tam Rusiyaya verib, onunla



razılaşıb kaputilyasiya aktına imza atmalıdır: "Bunun nəticəsində Tramp sülh adamı olur və Rusiyanın 12 trilyon dollarlıq birgə iqtisadi əməkdaşlıq təklifini qəbul edir. Hazırda ABŞ prezidenti yenidən Zelenskini Rusiyanın şərtlərinə razı salmaq üçün təzyiqlər edir. ABŞ ilə Ukrayna ilə bağlı razılaşan Rusiya Azərbaycana təzyiqlər etməyə çalışır. Fikir versək, Rusiya Ukrayna ilə bağlı mövqeyini gücləndirəndə qonşu ölkələrə qarşı təzyiqlər etməyə başlayır. Əgər, Ukraynada qalib olarsa, Rusiya Cənubi Qafqaz və Mərkəzi Asiyaya qarşı hərbi təzyiqlər edəcək.

Hazırda Trampın Ukrayna ilə bağlı siyasətinə Böyük Britaniya və Avropa İttifaqı ciddi mane olur. Nə qədər ki, Böyük Britaniya və Avropa İttifaqı danışıqlar prosesindən kənarda qalacaqsa, ABŞ və Rusiyanın Ukrayna ilə bağlı sövdələşməsi baş tutmayacaq".

**Sübhan**

# "Rza Pəhləvinin Münhen Təhlükəsizlik konfransına dəvət edilməsi..."

**"Münhen Təhlükəsizlik konfransına İran şahının oğlu Rza Pəhləvi də dəvət olunub. Belə bir idbar birini mühüm bir konfransa dəvət etmək, Qərbin İranda heç də normal bir sistem istəmədiyinin əyani sübutdur".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib. O, bildirib ki, R.Pəhləviyə qalarsa, indiki teokratik sistem daha da məqbul görünür: "Baxmayaraq ki, bir medalın iki üzüdür. R.Pəhləvi elan edib ki, Avropada İranla bağlı etusa aksiyalarında azərbaycanlıların və digər xalqların simvolları qaldırılmasın.Fars və şovinist ruhunda olan R.Pəhləvinin İranda hakimiyyətə gəlməsinə İran xalqı qəbul etməyəcək.

İranda yaşayan azərbaycanlılar R.Pəhləvini qəbul etmir.

R.Pəhləvini ortaya çıxarmaq İran rejiminə təzyiq aləti olması mümkündür. Bununla İran rejiminə şərtləri qəbul etdirilməsidir.

Münhen Təhlükəsizlik konfransına R.Pəhləvi İsrail tərəfindən gətirilməsi istisna deyil".

**Vasif**

## *“İran və Rusiyanın Azərbaycanın səfirliyinə etdiyi hücum terror aktıdır...”*



**”Prezident İlham Əliyev Kiyevdə səfirliyimizə qarşı Rusiyanın bilərəkdən hücum etdiyini qeyd etdi. Azərbaycanın səfirliyinə iki ölkə silahla hücum edib. İran və Rusiya. İran Azərbaycanın ikinci Qarabağ müharibəsindən sonra regionda yaratdığı siyasi nizamı qəbul etməyərək müxtəlif üsullarla Azərbaycana təzyiq etməyə başladı. Heç bir təzyiq nəticə verməyərək, Tehranda Azərbaycan səfirliyinə qarşı silahlı terror həyata keçirdi”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

O, bildirib ki, məhz Rusiya da Azərbaycanın Cənubi Qafqazda müstəqil siyasəti və yeni siyasi reallıqları narahatlıqla izləyir:

”Azərbaycana təzyiq etmək üçün Ukraynada Azərbaycan səfirliyini iki dəfə raket atəşinə tutdu. İran və Rusiyanın Azərbaycanın səfirliyinə etdiyi hücum terror aktıdır. Azərbaycan prezidenti İlham Əliyev Kiyevdə Azərbaycan səfirliyinə qarşı hücumu bilərəkdən həyata keçirdiyini qeyd etdi. Bu, Rusiyaya açıq mesaj idi. Prezidentin Kiyevdə səfirliyimizə qarşı açıq şəkildə bilərəkdən Rusiyanın hücum etməsini vurğulaması Moskvanın siyasi böhranı davam etdirdiyini göstərir. ABŞ vitse-prezidenti D.Vensin Azərbaycana səfəri və imzalanan strateji Xartiyanı Kreml həzm edə bilmir”.

**Vasif ƏLİHÜSEYN**

## *Müharibə başlasa...*



**Rheinmetall konsernin top meneceri Şena Britsen bəyan edub ki, Dünya müharibəsi başlasa, Avripa ölkələrinin yanacağı üç aya tükənər.**

Menecerin fikirincə, hərbi texnikaları hidrogenlə işləməyə hazırlamaq lazımdır. Bunun üçün hava və günəç enerjisi ilə çalışan elektrolizatorlardan istifadə etmək lazımdır. ”Lakin bununda öz çətunlikləri var. Məsələn, dizel mühərriki ilə işləyən Leopard2 tankının çəkisi 70 tondur. Ona hidrogen qurğusu qoşularsa tankın çəkisi 105 tona qədər artar.

”Heç nə yabacaqslz işləmir. Müharubə vaxtı həebi texnika, həebi avtomobillər, hətta xəstəxanalar bir neçə həftə sonra yanacaq qıtlığından əziyyət çəkəcəklər.

Xatırladlrlq ki, Macarıstanın baç naziri Viktor Orban daha əvvəl bıyan etmişdi ki, ”Avropanın bir çox dövlətləri 2030- cu ilədək Rusiya ilə mügaribəyə başlayacaq”.

## *“Polşa nüvə silahına sahib olmalıdır”*



**Polsa News telekanakına müsahibə verən Polşa prezidenti Karol Navrotski bəya edib ki, Polşa özünün nüvə silahı əldə etməsi istiqamətində çalışmalıdır.**

Polşa prezidenti qeyd edib ki, ölkəsinin suverenliyinin möhkəmləndirilməsi üçün hər addımı atmağa hazırdır.

”Mən Pilşanın nüvə layihəsini qoşulmasının qəti tərəfdarıyam... Bu bizim beynəkxalq normalara riayət etməyimizin yeganə yiludur”- deyə Novorotski bildirib.

Rusiyanın Brüsseldəki səfiri Denis Qonçar, Polşanln nüvə potensialına can atmasını, dünyanın təhlükəli həddə yaxınlaşması təhlükəsi kimi qiymıtləndirib.

**Rüstəm HACIYEV**

# Evinin sənədi olmayanların nəzərinə: 15 günə çıxarış alacaqsınız

**”Nazirlər Kabineti ”Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydalarını” təsdiq edib”.**



Adalet.az xəbər verir ki, bunu deputat Vüqar Bayramov deyib.

O bildirib ki, yeni qaydalara əsasən, hüquqların dövlət qeydiyyatına alınması üçün təqdim edilən sənədlərlə torpağın kateqoriyası dövlət torpaq kadastrında saxlanılan məlumatlara uyğun gəlmədikdə qeydiyyat orqanının vəzifəli şəxsləri tərəfindən 15 iş günü müddətində yerquruluşu sənədlərinin təhlili yolu ilə araşdırma aparılır. ”Araşdırmanın nəticəsinə əsasən təqdim edilən sənədlərdə göstərilən məlumatların doğruluğu təsdiq edildikdə, əmlak üzərində hüquqlar dövlət qeydiyyatına alınır və dövlət torpaq kadastrında müvafiq düzəlişlər edilir.

Yəni, əgər vətəndaş daşınmaz əmlakının qeydiyyata alınması ilə bağlı müraciət edən zaman qeydiyyata məsul olan dövlət qurumunda məlumat fərqli olarsa o zaman 15 iş günü ərzində dəqiqləşdirmə aparılır.

Məsələn, vətəndaşın sənədində torpağın təyinatı tikintiyə icazəyə imkan verirsə, amma dövlət qurumunda olan məlumat bazasında o ərazi kənd təsərrüfatı üçün yararlı torpaq kimi görsənirsə o zaman məlumatı dəqiqləşdirmək üçün digər profil qurumlara sorğu göndəriləcək. Sorğu zamanı vətəndaşın sənədinin doğruluğu təsdiq olunarsa həmin daşınmaz əmlak qeydiyyata alınacaq.

Bütövlükdə, yeni dəyişikliklər qeydiyyatsız evlərin sənədləşməsi prosesində məlumatların dəqiqləşdirilməsinə xidmət edəcək. Bu həmçinin, mülkiyyət hüquqların tanınması və qorunması baxımdan da vacibdir”.

**Sübhan**

# "WhatsApp" yazışmalarının izlənilməsi qadağandır

**Şəxsin ”WhatsApp” yazışmalarının onun xəbəri olmadan müxtəlif vasitələrdən istifadə edilməklə izlənilməsi qadağandır.**

Adalet.az-ın məlumatına görə, bu barədə Ali Məhkəmənin ”Şəxsiyyət hüquqlarının müdafiəsi haqqında” Plenum qərarında şəxsi yazışmaların toxunulmazlığı ilə bağlı məsələlərə dair yeni xüsusi mövqeyində bildirilib.

Plenum qərarında qeyd edilib ki, şəxsi yazışmaların toxunulmazlığı hüququ hər kəsin yazışma, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatların sirrini qorumağa təminat verir.



”Şəxsin razılığı olmadan onun şəxsi yazışmalarının qanunazidd əldə olunması, istifadəsi və ya yayılması şəxsi toxunulmazlıq hüququnun pozuntusu hesab olunur”. Bununla belə qərarda vurğulanıb ki, bu hüquq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü məhdudlaşdırıla bilər.

Qərarda qeyd olunub ki, hüquqi mübahisələrin həlli ilə bağlı həmin mübahisənin tərəfləri yalnız öz aralarında olan yazışmaları məhkəməyə və ya mübahisəni həll edən digər səlahiyyətli quruma (mediasiya, arbitraj və s.) sübut qismində təqdim edə bilərlər:

”Həmin tərəflər digər şəxslərlə olan yazışmaları öz hüquqi mübahisələrinin həllində sübut kimi təqdim edə bilməzlər”.

Ali Məhkəmənin Plenumunda bildirilib ki, istənilən yazışmanın media və ya internet şəbəkələrində qarşı tərəfin razılığı olmadan paylaşılması və ya hər hansı digər formada yayılması qadağandır.

# "Ermənistanda dini rəhbərliyə normal adam gətirilməlidir ki..."

**”İndiki Ermənistan ərazisində tarixi araşdırmalara görə 500-ə yaxın məscid olmuşdur. Bu məscidlər böyük cümə məscidləri və kiçik məhəllə məscidlərindən ibarət idi. Demək olar ki, hamısı dağıdılsa da arxeoloji qazıntılar aparılarsa məscidlərin əksəriyyətinin qalıqlarını tapmaq, yerini müəyyən etmək olar”.**

Adalet.az xəbər verir ki, bunu ilahiyyatçı Tural İrfan deyib.

O, bildirib ki, ilk növbədə İrəvanda mövcud olmuş böyük məscidlərin təcili bərpa olunmasına, fəaliyyətdə olanların da Azərbaycanın müvafiq dini idarəsinin idarətməsinə verilməsinə nail olmaq lazımdır:



”İran rejimi indiyədək İrəvandakı Göy məscidi öz adına çıxıb, hətta məscidin restovrasiyasına xələl gətirilib. Ermənilər torpağı işğal edərkən farslar da məscidləri zəbt etməyə çalışıb. Sülh prosesinin tərkib hissəsi olaraq baş din xadimlərinin münasibətləri, qarşılıqlı təmasları olmalıdır.

Amma hazırda Ermənistanda dövlət - din münasibətləri səhman deyil. Qareginin həbs olunmaq ehtimalı var. Ona cinayət işi açıblar.

Yayılan məlumatlara görə bir çox keşiş mütəmadi olaraq Rusiya da daxil olmaqla xarici xüsusi xidmət orqanlarına xidmət edib. Hər bir halda Ermənistanda dini rəhbərliyə normal adam gətirilməlidir ki, sülhün tələblərinə uyğun, tolerant şəraitdə din məsələləri də həllini tapsın.

Qafqaz Müsəlmanları İdarəsinin İrəvan qazılığı bərpa olunub, fəaliyyət göstərir. Ermənistanda dövlət - din məsələsi nizama salındıqdan sonra ali din xadimlərimizin İrəvana səfərini, Göy məscidi ziyarətini təmin etmək üçün təşəbbüs olmalıdır. Bu mərhələdə Qərbi Azərbaycandakı bütün ibadət yerləri, məscid və ziyarətgahların idarəsi İrəvan qazılığına verilməlidir”.

**Vasif ƏLİHÜSEYN**

# *Rusiyalı səfir Kanadanı aşağıladı*

**Kanadanın, biznes sahələrinə Rusiya ilə hər hansı bir formada əlaqələrin qurulmasına qadağa qoyduqdan sonra,**

Rusiyanın Ottavadakı səfiri Oleq Stepanov bəyan edib ki, Kanada Rusiyaya nə Arktikada, nə də ümumiyyətlə dünyada hər hansı bir təhlükə yarada bilməz. ”Ayrıca götürülmüş ağcaqayın yarpağı - kağızdan düzəlmə ağ ayıya oxşayan bir ölkə, həmişə ABŞ-ın hərbi mexanizminin bir parçası olub və həmişə də belə olacaq. Güc baxımından özünün heç bir potensialı yoxdur”- deyə səfir bildirib.

Bundan başqa ”özündənrazı” səfir qeyd edib ki, Kanadanın ümumiyyətlə nə insani, nə də texniki infrastrukturları yetəri qədər deyil.

Rusiyalı diplomat daha sonra, Kanadanı hədələməkdən də çəkinməyərək bildirib ki, Kanada buna görə həm praktiki, həm də siyasi cavabını alacaqdır. ”Bunun üçün Rusiyanın həm Ottavaya, həm də onun tərəfdaşlarına təsir etmək imkanları çox genişdir”. Səfir əlavə edib ki, Rusiyanın verdiyi cavablar Kanada üçün ”sürpriz” olacaq.

**Rüstəm HACIYEV**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Müəllim də bir mələkdir...

.... Allahın çoxlu mələkləri var. Və o mələklər həmişə insanların içində, qəlbində nə olur hamısını bilir. Sadəcə biz insanlar bunu hiss eləmirik və hiss eləsəydik əyri, qaranlıq yolla getməzdik! Allah həm də Yer üzünə mələk sifətli insanlar göndərib. Ki, onları görəndə Allahı yaddan çıxarmayaq, onu unutmayaq! Bax, həmin mələk sifətli insanlardan biri də şagirdin qəlbini ələ alan, ona elm, savad, sevgi, işıq verən müəllimlərdir...

O müəllimlər ki, ömründən, günündən, ürəyinin işığından öz şagirdinə, öz tələbəsinə pay verir. Və belə müəllimlər də həm şagirdləri, həm də insanlar tərəfindən həmişə sevilir. Bizim də təhsil aldığımız Füzuli rayonunun Böyük Bəhmənli kənd orta məktəbində mələk sifətli müəllimlər olub. Onların çoxu Allahın dərgahına qovuşub və bizim ürəyimizə köçüb

Yerləri Cənnət olsun! Dünyasın dəyişmiş mələk sifətli müəllimlərimizi yada salaq: Cəlal müəllim, Əvəz müəllim, Balaca müəllim, Nuğay müəllim, Rza müəllim, İsa müəllim, Cəmil müəllim, Həşim müəllim, Cavanşir müəllim, Həkimxan müəllim, Məhəmmədəli müəllim, Əkbər müəllim, Qəzənfər müəllim, Mətləb müəllim, Ənvər müəllim, Məcnun müəllim, Əliş müəllim, Məcid müəllim, Yüsür müəllim... Kimsə yaddan çıxıbsa, onların ruhu bizi bağışlasın! Sağ olan müəllimlərimiz də var. Ən çox mənim əziyyətimizi çəkən və məni "kəşf" edən ibtidai sinif müəlliməmiz Həqiqət xanım Rzayeva! Fizika müəllimimiz Nurəddin Abbasov və tarix müəllimimiz Məhər müəllim!

Hər müəllimimizin öz dəst-xətti var idi. Biri bizi qorxudurdu... Biri atamızla hədələyirdi... Biri bizi nar ağacı ilə döyürdü... Bir də sevgisini verirdi... Bax , o sevgisini verən mələk sifətli, Azərbaycan dili və ədəbiyyatdan dərs deyən Cəlal müəllim idi. Amma bizə Azərbaycan dili və ədəbiyyatdan dərs deyən Ənvər Muradov idi. Əslinə qalanda Cəlal Səfərov bizə dərs demirdi. Ənvər müəllim o vaxtlar Azərbaycan Dövlət Pedaqoji İnstitutunda qiyabi təhsil alırdı. O, imtan sessiyasına getmişdi və Cəlal müəllim də bir aylıq onu əvəz edirdi. Eşitmişdik ki, Cəlal müəllim çox gözəl dərs deyir, amma görməmişdik. Elə ilk dərsdən bizim sinifdə hamının ürəyini fəth elədi, eləcə də mənim.

Sanki dərs demirdi, şirin bir dünyanın içinə aparmışdı bizi. Və hələ biz danışığından bal daman belə müəllim görməmişdik. Təkcə gözəl danışmırdı, bizi balası, nəvəsi, əzizi kimi sevə-sevə öyrədirdi. Aşıq Ələsgəri, onun yaradıcılığını, dodaqdəyməzi, dildönməzi, qoşmanı, təcnisi o bizə sevdirdi. Dərsi elə gözəl izah elədi ki, tay gedib evdə oxumağa ehtiyac qalmadı. Çünki Cəlal müəllim dərs deyəndə ürəyinin işığını, nurunu bizə verdi. Və işıq kimi, nur kimi də ürəyimizə köçdü... Hələ də onun səsi, çöhrəsindəki nur, səmimiyyəti və sadəliyi yaddaşımızdadır.

O, bizə bir ay müddətində Mirzə Ələkbər Sabiri, Seyid Əzim Şirvanini, Qasım bəy Zakiri... sevdirdi... Azərbaycan dilinin şirinliyini, min rəngini, gözəlliyini bizə aşıladı... Və nəhayət bizim yaddaşımızda ədalətli, işıqlı səmimi bir ziyalı kimi qaldı. Yəni Cəlal Səfərov müəllimlər müəllimi idi. Onun çox gözəl ziyalı övladları olub; Adil, Qənimət, Söhbət, Cabir, Sabir... Söhbət Səfərli ilə orta məktəbi eyni ildə bitirmişik.

Çox istedadlı yazıçı-jurnalist idi. Heyif ki, dünyasını tez dəyişdi... Və bu gün Azərbaycan jurnalistikasında Söhbət Səfərlinin yeri görünür... Cəlal müəllim həm də dünyanın ən təmiz, pak adamı idi. Və evinə heç vaxt haram tikə aparmamışdı . Balalarını da halal, alın tərilə qazandığı çörəklə böyütmüşdü... Onun Bəhmənlidə dərs dediyi minlərlə şagirdi var. Onlar hamısı Cəlal müəllimi yaşadır...

Onun yüksək mövqe tutmuş yetirmələri olub: Süleyman İsmayılov, İsmayıl İsmayılov, Süleyman Babaşov, Şirxan Adıgözəlov, Vaqif Bəhmənli, Zülfüqar Əliyev, Əhliman Əliyev! Bax , Cəlal müəllim belə bir ziyalı, belə bir kişi olub. Bəhmənlinin mələk sifətli müəllimi bu gün də gözəl əməllərinə, şərəfli və ləyaqətli ömür yoluna görə həyat, insanlıq simvoludur...

## İsrail İranla müharibəyə hazırlaşır?



İsrail ordusu son günlərdə İranla mümkün müharibənin yeni mərhələsinə hazırlıq çərçivəsində Livanda "Hizbullah" terror təşkilatının hədəflərinə hücumlarını artırıb.

Adalet.az "Kanal 12"yə istinadən xəbər verir ki, "Hizbullah"ın canlı qüvvə, raket sistemləri və silah anbarlarına hücumların artması potensial müharibə vəziyyətində təşkilatın İrana yardım qabiliyyətini zəiflətmək məqsədi daşıyır. "Maariv" qəzeti də fevralın əvvəlindən bəri İsrail ordusunun Livanda "Hizbullah" və "İslami-Cihad"ın 12 üzvünü məhv etdiyini yazıb.

## Allaha şərik qoşmayın!



**Hər bir insan öncə Allaha inanmalı və ondan kömək istəməlidir. "Quranı - Kərim" də buyurulur ki, Allaha şərik qoşmaq böyük günahlardandır.Müqəddəs kitabın "Fatihə" surəsinin beşinci ayəsində buyurulur;" Yalnız mənə ibadət edin və yalnız məndən kömək istəyin".**

Amma çoxumuz Allahdan yox, peyğəmbərdən, imamdan, seyiddən və başqa insanlardan kömək istəyirik. Ziyarətgahlara gedib, oranı ağlaya-ağlaya ziyarət edir, sonra da ordan kömək diləyirik. Hələ üstəlik, nəzir - niyaz aparır, qurbanlıq kəsir və özümüzə, əzizlərimizə şəfa istəyirik.

Biz həmişə insanların inancına hörmətlə yanaşmışıq , bu gün də hörmətlə yanaşırıq. Və biz də o ocaqlara gedib ziyarət eləmişik, ancaq ordan kömək ummamışıq. Elə o ocaqda Allahdan kömək istəmişik və qurban olduğum Yaradan da bizi heç vaxt darda qoymayıb, çətin vəziyyətdən çıxarıb! Çünki Allahdan başqa insana heç kəs kömək edə bilməz! Biz tərəfdə insanlar yola çıxanda, səfərə gedəndə deyirlər:" Allah, Məhəmməd, ya Əli". Artıq bu Allaha şərik qoşmaqdı.

Yenə bir çoxları yalvarır:" Ya Həzrəti Abbas mənə kömək ol!" Bax ,belə olanda yenə Allaha şərik qoşuruq! Və bizim- insanların bir kömək yerə var:Allah! Qoy Ulu Tanrı xalqımıza və bizə həmişə kömək olsun!!!

## Sayğaclarda göstəricilər şişirdilir?



**Bir gün ölkəmizdə bir çox abonentlər işıq, qaz , su sayğaclarında istifadə olunan enerjilərin şişirdiyliyini bildirirlər.Yəni sayğaclardakı əsas rəqəm əvəzinə, xidmət sahəsinin əməkdaşları artıq rəqəm yazırlar.**

Bununla da abonentlər aldadılır və onlardan artıq pul alınır. Bu isə birmənalı olaraq qanun pozuntusu, ədalətsizlik deməkdir. Abonent Arif Əliyev deyir ki, bizim mənzildə qaz sayğacı " smart- kart" dı.Bir neçə gün sayğaca 20 manat pul yükləmişəm, bax elə həmin an 5 manat silinib.

Eyni zamanda mexaniki sayğacdan istifadə edənlər də problemlə üzləşirlər. Abonent Akif Həsənov deyir ki, əvvəllər mənzilimdə " smat- kart" sayğacı vardı və ayda 5 manat sayğaca yükləyirdim heç bir problem yaşamırdım. Amma " Azəriqaz" ın əməkdaşları onu mexaniki sayğacla əvəzləyəndən sonra hər ay 14 manat,14 manat 50 qəpik pul ödəyirlər.

Bax , bundan baş açmaq olmur! Bizim mənzildə də su sayğacı dəyişdirilib, onda qış günündə hər ay 31 manat ödəyirik. Biz dəfələrlə bu qanunsuz hərəkətlərlə bağlı həmin xidmət sahələrinin əməkdaşlarına öz iradlarımızı bildirmişik.

Amma onlar problemi həll etmək üçün bundan boyun qaçırib, öz nahaqq işlərinə haqq qazandırmaq üçün yüz bəhanə gətiriblər! Görünən odur ki, ya sayğaclar düzgün işləmir, ya da nəzarətçilər özləri əlavə pul yazılar. Hər halda, aidiyyəti qurumlar bu məsələləri həll etməli, abonentlərin haqlı narazılığını həll etməlidir. Abonentin cibinə girmək isə birmənalı olaraq qunun pozuntusudur və əməllərdə cinayət tərkibi var!!!

## Hər addımda cərimə...



**Bu gün Bakıda əksər sürücülər, o cümlədən taksi xidməti ilə məşğul olanlar Yerüstü Nəqliyyat Agentliyinin fəaliyyətindən narazıdırlar.**

Ona görə narazıdırlar ki, hər addımda avtomobil saxlayarkən problem yaşayır, cərimə olunur. Onlar deyirlər ki, biz tay AYN- nın əlindən maşın sürmək istəmirik.Bir sərnişini ya götürmək, ya düşürmək istəyəndə cərimə edilirik! Elə yer var ki, orda bir dəqiqə belə dayanmışıq, amma bir neçə saniyənin içində sərnişini düşürərkən yenə cərimələnirik.

Elə qazandığımızı cərimələrə veririk! Bunun bir adı var: ədalətsizlik! Ən qəribəsi odur ki, kimlərsə , dövlətlə bizim aramızda narazılıq yaratmaq istəyir. Amma burada dövlətin heç bir günahı yoxdu.

Günah Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindədir. Yəni onlar bu problemləri həll etməlidir ki, biz həmin çətinliklərlə üzləşməyək.Bakının elə küçə və prospektləri var ki, həmin yerlərdə avtomobilləri saxlamaq və sənişinləri mindirib düşürmək olar. Göründüyü kimi Yerüstü Nəqliyyat Agentliyi göstərilən problemlərin həll yolunu tapmalıdır ki, sürücülər həmin çətinliklərlə üzləşməsin!!!

## Marketlərin qiymət "oyunu"...



**Bu gün bir çox məşhur marketlərdə hər addımbaşı alıcıları aldadırlar. Bu, faktlar bir marketdə deyil, əksər ticarət mərkəzlərində baş verir. İstər" Bravo", istər" Araz" , istərsə də " Rahat " marketlərdə belə hadisələrlə tez- tez üzləşmək olar.**

Onlar bir qayda olaraq vitrində məhsulu bir qiymətə qoyur, kassaya gəlib pul ödəyəndə başqa qiymət görürsən. Endirim adı ilə satılan məhsuları qiyməti də istehlakçıları aldadır.Əvvəl elə bilirsən ki, doğrudan da, qiymətdə endirim var.Bir- iki qəpik endirim etdikləri məhsullalrın ya vaxtı keçib, ya da keyfiyyətin itirib.

Bax , bütün bunlar alıcıların haqlı narazılığına gətirib çıxarır. Bizim qonşuluqda bir market var- " Ballı" . Burda hər gün alıcı əlindən tərpənmək olmur. Ət satışında bir hərc-mərclik mövcuddur. Bir də görürsən ki, qapqara əti vitrinə qoyub satırlar. Camaat da ağına- bozuna baxmadan ucuz olduğuna görə bu əti alır.

Başqa bir fakt: Sumqayıt Çörək Zavodunun istehsal etdiyi qara " Kombə" çörəyi 1 manat, 10 qəpiyə satılsa da , istehsal prosesində bəzən bu çörəyin tərkibinə köhnə çörək də qatılır. Bu barədə marketin nəzarətçisinə dəfələrlə fikirlərimizi, iradlarımızı bildirmişik.Amma bunun da bir nəticəsi olmayıb. Hər halda, marketlər satdıqları ərzaq və qida məhsulları üçün məsuliyyət daşıyır. Onu görə də onlar satıqları məhsulların keyfiyyətinə diqqət yetirməlidir!!!

## Nazirdən, komitə sədrindən akademik olar?



**Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvlərinin siyahısına baxırıq və heyrətlənirik. Heyrətlənitik ki, tanınmış və məşhur akademiklərlə yanaşı, elə də elm sahəsində xidməti olmayan keçmiş nazirlər və komitə sədrləri də var.**

Özü də onlar bu yüksək adı vəzifədə olanda alıblar. Məgər , yüksək vəzifədə işləyəndə onların vaxtı olur ki, elmi işlə məşğul olsun. Çoxları da yaxşı bilir ki, onlar elmi işlərini özləri yazmayıblar , başqalarına yazdırıblar və layiqli alimlərin haqqna girib, yerlərin tutublar.

Prezident administrasiyasının Sabiq rəhbəri Ramiz Mehdiyev neçə akademik olubsa, onlar da o cür akademik olublar. Heç nazirdən, komitə sədrindən də akademik olarmı??? Olanda da bax bizimkilər kimi olur. Amma dünyaşöhrətli alim Rafiq Əliyev akademik deyil.Onun yerini həmin vəzifəli şəxslər tutub. Ona görə də , elmimiz və Elmlər Akademiyamız bu gündədir!!!

## Beş min manatdan çox pensiya alanların...



**Pensiyalar artdı, çox gözəl. Amma bu artım heç də əksər pensiyaçıları qane etməyib. Çünki 350- 365 arasında olan pensiyalarda 30 manat artım olub.**

Bu da indiki bahalıq şəraitində əksər pensiyaçıların güzəranının yaxşılaşmasına bir o qədər də kömək eləmir.Məsələn, beş min manatla, on min manat arasında pensiya alanların artımı yüksək olduğu halda , aşağı pensiya alanların artımı 30 manat civarındadır. Məgər bu, sosial ədalətsizlik deyilmi?Onsuz da 5 min manatdan yuxarı pensiya alanların imkanları böyükdür.Onların biznes sahələri də mövcuddur.Belə olduğu məqamda bu qəbildən olan insanların pensiyaların artırılması vacib deyil.Vacib odur ki, 350-400 manat arasında olan böyük bir kütlənin pensiyası artırılsın və heç olmasa, bu məbləğ 500 manat olsun! Bax , bu, onda daha ədalətli olar!!!

**Emil FAİQOĞLU**



# İlahiyyatçı: “Fitrə zəkatı Ramazan ayının sonunda müəyyən olunur”

**”Fitrə zəkatının məbləğini konkret pul və rəqəmlə, xüsusən də hələ Ramazan ayı başlamamış elan etmək tamamilə savadsızlıq və İslam hüququna ziddir. Fitrəni 10-15 manat şəklində elan etmək dinə dindar baxışı yox, tacir baxışdır. Rəssam gördüklərinə rəsm gözü ilə, mühəndis həndəsə gözü ilə, həkim tibb gözü ilə baxırsa tacir də gördüyünü o saat beynində pula çevirir, pul gözüylə baxır”.**



Adalet.az xəbər verir ki, bunu ilahiyyatçı Tural İrfan deyib.

Onun sözlərinə görə, dini hökmlərə də tacir gözü ilə yox, Quran gözü və məntiqi ilə baxmaq lazımdır:

”Bəlkə 10 gündən sonra elə bir bahalıq olacaq ki, çörəyin kiloqramı 10 manata satılacaq. Yaxud Ramazanın ortasında elə bir ucuzluq ola bilər ki, çörək 5 qəpik olar. Hə onda nə edəcəklər? Fətvadan udul edib (üsuli fiqhdə müctəhidin fətvasını dəyişməsi) geri oxuyacaqlar? Bahalıq olsa fitrə zəkatını 30-40 manatla, ucuzluq olsa 3-5 manatla əvəz edəcəklər? Dini belə təhrif etmək olmaz. Fitrə zəkatı Ramazan ayının sonunda müəyyən olunur. Həmçinin konkret rəqəm, pul məbləği qeyd etmək olmaz. Hamının durumu standart deyil. Biri günə 100 min qazanır, digəri 5 manatı güclə tapır. Necə bunların hər ikisinə də eyni rəqəmdə fitrə zəkatı elan edirsiniz? Bu alver deyil. Bu Həcc səfərinin qiyməti deyil ki, hamı üçün standart 10 min manat olsun. Fitrə zəkatı hər kəsin öz yediyinin dəyərində olmalıdır. Qara kürü yeyən, yüksək imkana sahib olanlar kasıba aparıb arpa və ya buğda yaxud onun məbləğini verməlidir? Xeyr. Təbii ki, o daha yüksək miqdar və məbləğdə fitrə verməlidir. Bəşəri məntiqlə bəlkə bunu izah edə bilərlər. Amma dini hökmlər bəşəri deyil, ilahi meyar və məntiqə əsaslanır. Bəşəri məntiqlə olsaydı, daha Quran niyə nazil olurdu? Elə Peyğəmbər özü də savadlı adam idi, öz məntiqi ilə qayda - qanun yaradardı. Demək bəşər məntiqi ilə ilahi məntiq eyni deyil. Əgər eyni olsaydı Həzrət Əli dediyi kimi, dəstəmaz alanda məsh ayağın üstünə deyil, altına çəkilərdi, çünki ayağın altı üstünə nisbətən daha çirkli olur...Hər şeyə konkret qiymət qoymaq, məbləğ müəyyən etmək, pul, ticarət dili ilə danışmaq dinə xas deyil. Din sənət, peşə, alver, ticarət vasitəsi deyil. Rəqəm konkretlik təyin edir. Fitrə zəkatı isə sosial duruma, zaman və məkana, hər kəsin vəziyyətinə görə dəyişə bilir. İbadəti, mənəvi dəyəri rəqəmlə, alver qaydaları ilə tənzimləmək nə Qurana, nə də İslam hüququna uyğundur”.

**Vasif ƏLİHÜSEYN**

# Ultra yüksək tutumlu şəbəkələrlə bağlı qanun layihəsi hazırlandı

**Azərbaycanda ultra yüksək tutumlu şəbəkələrin yaradılmasının və genişləndirilməsinin asanlaşdırılması və təşviq edilməsi üzrə qanun lahiyəsi hazırlanıb.**

Bu barədə Adalet.az-a İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyindən (İKTA) bildirilib.

Belə ki, ”Dünya Bankı Qrupunun ”Business Ready” hesabatının ”Kommunal xidmətlər (internet)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşdirmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2025-ci il üzrə Yol Xəritəsi”nin 1.1.3-cü yarımbəndinə əsasən, fiziki infrastruktura malik telekommunikasiya, kommunal və digər xidmət operatorlarının fiziki infrastrukturlarından birgə istifadənin tənzimlənməsi, habelə dövlət mülkiyyətində olan infrastruktur obyektlərinə bərabər girişin təmin edilməsi ilə bağlı hüquqi çərçivənin formalaşdırılması və normativ hüquqi akt layihələrinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi, ”kommunal xidmətlərə qoşulma üzrə normativ hüquqi baza” alt komponenti üzrə görüləcək tədbir kimi müəyyən olunub. Bu istiqamətdə Agentlik tərəfindən Qanun layihəsi hazırlanıb və aidiyyəti üzrə təqdim edilib.



Layihənin əsas məqsədi, mövcud fiziki infrastrukturdan birgə istifadəni təşviq etməklə və yeni fiziki infrastrukturun daha səmərəli şəkildə yaradılmasına şərait yaratmaqla ultra yüksək tutumlu şəbəkələrin yaradılmasının və genişləndirilməsinin asanlaşdırılması və təşviq edilməsini, inzibati proseslərin sadələşdirilməsi və bu proseslərin rəqəmsallaşdırılmasından ibarətdir. Bu çərçivə, rəqəmsal texnologiyaların tətbiqi imkanlarının genişləndirilməsi üçün normativ hüquqi bazanın inkişaf etdirilməsi, rəqabətədavamlı və inklüziv rəqəmsal iqtisadiyyatın təşviq edilməsi, həmçinin, 5G texnologiyası da daxil olmaqla yüksəksürətli mobil internet xidmətlərinin əhatəsini artırmaqla hər regionda yüksək keyfiyyətli rəqəmsallaşmağa nail olmaq məqsədini daşıyır.

# Azərbaycanla BƏƏ arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq genişlənir

**Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) sədri Qoşqar Təhməzli ilə Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) İqlim Dəyişikliyi və Ətraf Mühit naziri Dr. Əmna bint Abdullah əl Dahak əl Şamsi arasında görüş keçirilib.**

Adalet.az xəbər verir ki, görüşdə Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında tarixi mərhələyə daxil olan dostluq və strateji tərəfdaşlıq münasibətlərinin inkişafından məmnunluq ifadə olunub. Qoşqar Təhməzli BƏƏ-nin qlobal iqlim və ətraf mühit təşəbbüslərində, xüsusilə qida təhlükəsizliyinin gücləndirilməsi istiqamətində fəal iştirakını yüksək qiymətləndirib. Bildirilib ki, son illərdə iki ölkə arasında xüsusilə idxal-ixrac sahəsində səmərəli əməkdaşlıq dinamik şəkildə genişlənir.

Xanım əl Şamsi öz növbəsində Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin İqlim Dəyişikliyi və Ətraf Mühit Nazirliyi arasında heyvan sağlamlığı və qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu layihəsinin əhəmiyyətini vurğulayıb.

Daha sonra tərəflər arasında Anlaşma Memorandumu imzalanıb. Qeyd olunub ki, sənəd yoluxucu heyvan xəstəliklərinin yayılmasının qarşısının alınması və məhdudlaşdırılması üzrə səylərin dəstəklənməsini, heyvan sağlamlığı və ictimai sağlamlığın qorunması, sağlamlıq və baytarlıq sertifikatlarının nümunələrinin mübadiləsi daxil olmaqla, qida təhlükəsizliyi və heyvan sağlamlığı sahəsində qarşılıqlı maraq doğuran istiqamətlər üzrə əməkdaşlığın gücləndirilməsini hədəfləyir.

Görüş zamanı qida təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarəti altında olan ixracyönümlü məhsulların BƏƏ bazarına çıxışının genişləndirilməsi, həmçinin diri heyvanların ixracı üçün baytarlıq sertifikatlarının razılaşdırılması məsələləri ətraflı müzakirə edilib. Eyni zamanda bitki və heyvan sağlamlığı sahəsində təcrübə mübadiləsinin həyata keçirilməsi və laboratoriya sahəsində əməkdaşlığın dərinləşdirilməsi ətrafında fikir mübadiləsi aparılıb.

Yekunda tərəflər görüşün aqrar və qida təhlükəsizliyi istiqamətində əməkdaşlığın yeni mərhələyə keçidinə töhfə verəcəyini bildiriblər.

## *“Bu həll qətiyyən mola rejiminin maraqlarına uyğun olmayacaq...”*



**”ABŞ İran ətrafında mövcud olan ”Avraam Linkoln” aviadaşıyıcı zərbə qruplaşmasına ”Cerard Ford” qruplaşmasını da əlavə edib. Bu kifayət qədər ciddi konsentrasiya hesab olunur”.**

Adalet.az xəbər verir ki, bunu hərbi ekspert Ədalət Verdiyev deyib.

O, bildirib ki, belə bir qruplaşmanın yaradılması İran ilə danışıqların ABŞ və İsraili qane etmədiyini, hərbi müdaxilə variantının gündəmdə olduğunu göstərir:

”Amma bu danışıqların İran planlarına uyğun olaraq uzun müddət davam edəcəyi real görünmür. Proses istənilən ssenari ilə mart ayının sonuna qədər, bəlkə Novruz bayramı ərəfəsində həllini tapacaq. Bu həll qətiyyən mola rejiminin maraqlarına uyğun olmayacaq. Azərbaycan və Türkiyə müharibə olmasını istəmir, amma regionun baş ağrısına səbəb olan və daim İslam dünyasına problemlər yaradan molla rejiminin dəyişməsi qaçılmazdır”.

## *“İnsan olmadan dindar, mömin olmaq mümkün deyil...”*



**”Dinin, ibadətin mahiyyəti, hədəfi adamı insan etməkdir. Əgər adam bu vasitələrlə insan ola bilməyibsə demək ya səmimi deyil, dini maddi mənafe üçün istifadə edir ya da düzgün qavramayıb”.**

Adalet.az xəbər verir ki, bunu ilahiyyatçı Tural İrfan deyib.

”İnsan olmadan dindar, mömin olmaq mümkün deyil. İnsanlığı olmayan ”dindarlar” köksüz ağac kimidir. Tezliklə yıxılır, hətta yanlarındakı ağaclara, insanlara da ziyan vururlar. İnsan olmadan dindar olduğunu iddia etmək sürücülüyü bacarmadan avtomobil idarə etməyə çalışmaq kimidir. Aşırıb özünü də maşındakıları da mütləq bir qıracaq”, - deyə o, bildirib.

**Vasif ƏLİHÜSEYN**

## *Azərbaycanda vergi ödəyicilərinin sayı açıqlandı*

**1 fevral 2026-cı ilə olan vəziyyətə görə Azərbaycanda 1 682 907 vergi ödəyicisi olub, onlardan 86,8 faizini fiziki şəxslər, 13,2 faizini isə hüquqi şəxslər və digər təşkilatlar təşkil edir.**

Adalet.az xəbər verir ki, bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti məlumat yayıb.

Cari ilin əvvəli ilə müqayisədə vergi ödəyicilərinin sayı 4,9 faiz, o cümlədən fiziki şəxslərin sayı 4,6 faiz, hüquqi şəxslərin sayı isə 6,4 faiz artıb.

2026-cı il 1 fevral tarixinə qeydiyyatdan keçmiş kommersiya təşkilatlarının sayı 205 104 təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 7% çoxdur.

2026-cı ilin yanvar ayında 1 050 kommersiya təşkilatı dövlət qeydiyyatından keçib. Onların 89,6%-i yerli investisiyalarla, 10,4%-i isə xarici investisiyalarla yaradılıb. Kommersiya təşkilatlarının 87%-i elektron qaydada qeydiyyatdan keçib. 2026-cı ilin yanvar ayında yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin elektron qeydiyyatının payı 97,6% olub. 2026-cı il 1 fevral tarixinə qeydiyyatdan keçmiş kommersiya hüquqi şəxslərin 92,1%-i məhdud məsuliyyətli cəmiyyət, 1,1%-i səhmdar cəmiyyəti, 1,1%-i kooperativ və digər təşkilati-hüquqi formalar üzrə yaradılıb.

1 fevral tarixinə 136 808 kommersiya təşkilatı aktiv statusa malik olub. 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə aktiv kommersiya təşkilatlarının sayı 7,7% artıb.

## *Azərbaycanda İİV-ə yoluxma sayı azalıb*

**2026-cı ilin yanvar ayının sonuna kimi aşkarlanmış İİV-ə yoluxmuş Azərbaycan vətəndaşları arasında 1(0,01%) nəfəri inyekson narkotik istifadəçisi olub.**

Adalet.az xəbər verir ki, bu barədə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun bu ilin yanvar ayı üzrə hesabatında qeyd olunub.

Qeyd edilib ki, Respublika QİÇS-lə Mübarizə Mərkəzinin verdiyi məlumata əsasən ölkədə narkomanların İnsanın İmmunçatışmazlığı Virusuna yeni yoluxma hadisələrinin sayında azalma müşahidə olunur.

Bildirilib ki, hazırda metadonla əvəzedici müalicə proqramı üzrə 3 məntəqədə (Respublika Narkoloji Mərkəzində 283, QİÇS-lə Mübarizə Mərkəzində 299, Sumqayıt Narkoloji Mərkəzində 122 nəfər) 704 xəstə müalicə alır.



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# SÜKUTUN PIÇILTISI

## Tanrıdan gizlədilməsi mümkün olmayan səs

**Sükut həyatımın mənasına, ifadəsinə çevrilib. Yəni hamıdan uzağa çəkilmək, dörd divar arasında oturmaq və yalnız xəyallarla, şəkillərlə baş-başa qalmaq məni özünə o qədər çəkib ki, ətrafımda baş verənlər, necə deyərlər, heç halıma da təsir etmir. Bu, laqeydlik deyil, bu, karlıq, korluq deyil. Sadəcə olaraq mənə hakim olan güc, istək, sevgi məni elə bil ki, tilsimləyib, gipnoz edib və mən də könüllü şəkildə təslim olduğum tilsimin içərisində özümü daha rahat hiss edirəm. Çünki o mühitə, o dünyaya bir nəfərin daxil olmaq, baş çəkmək şansı var. Bir az da fikrimi sadələşdirsəm, mənim dünyama yalnız bir nəfərlik buraxılış vəsiqəsi yazılıb. O da sənə aiddi. Sən isə...**

Bəli, mən öz sığındığım məkanda, öz komamda, öz köşəmdə bir sükutun diktəsini o qədər rahatlıqla dinləyirəm ki, onu Allahdan başqa heç kim eşitmir. Əslində dinlədiyim səs sənə aiddi. Mən bu illər ərzində yaddaşıma sənin səsini yazmışam və sənin səsin mənim üçün sükutun özünü də ayağa qaldırır. Onu da dillәndirir. Və belə olan halda hardasa bir az bədii formada ifadə eləsəm, sükutun səsinin dinləyicisinə çevrilirəm...

Hə, dinlədiyim sükutun səsi o qədər aydındır ki, eşitməmək, dərk etməmək mümkün deyil. Hətta hansısa bir sözə, vurğuya görə sorğu etmək, sual vermək də mənasızdı. Ona görə ki, dediyim səs, dinlədiyim nitq göz yaşından da durudu. O dupduru səsi sükut içərisində dinlədikcə ruhum da təzələnir, yaddaşım da təzələnir, xatirələrim də təzələnir. Olmuşlar və olacaqlar da gözümün önündən gəlib keçir. Bax, beləcə sükutun səs amirliyi hakim olur mənə...

*Bir sükutun içində*
*Bir tənhalıq yas tutub...*
*Sıxılıbdı dişim də -*
*Dilim - .sanki, pas tutub!..*

*Öz səsimin özümə*
*Yetişmək hissi sönüb...*
*Dəymir bu gün gözümə -*
*Ürəyim daşa dönüb...*

*Keyimiş barmaqlarım*
*Göynəyir ovulmaqdan...*
*Ümidin yarpaqların -*
*Gün ütüb - qovrulmaqdan!*

*Bir sükutun ahı da*
*Üzü qibləyə donub...*
*Sükutun günahı da -*
*Səni sevməyim olub!..*

Bu məqamda kimsə kənardan baxa bilər, görə bilər və mən onun gözünə dəli kimi, natamam adam kimi görünə bilərəm. Olsun, bu məni heç narahat etmir. Ona görə ki, mənim görüntüm Allahdan başqa hər kimdə nə yaradır-yaratsın, nə əks-səda doğurur-doğursun, son nəticə səninlə birlikdə olmağımdı. Sənin səsinin kölgəsində, dizinin dibində oturmağımdı!..

Bax, elə bu təsvir etdiyim reallığın pərdə arxasında o səs sığal görür, ülfət hiss edir, özünü doğma yerdə, doğma məkanda, doğma varlığın içində görür. Bu da ruhumu silkələyir, ayağa qaldırır. Bax, ayaqlanmış, ayaqda durmuş səsin mənə görünən üzündə yazı var. Pıçıltılardan qaynaqlanan yazı. O mənim indi hamıya demək istədiklərimin ixtisar olunmuş və yazılı variantıdı. Yəqin ki, oxumusan və bilirsən ki:

*Yastığını qucaqlama gecələr*
*Qoy qolların yol gözləsin, mən gəlim.*
*Deyirsən ki, işıq düşər, görərlər -*
*Yaxşı, onda dönüb olum çən, gəlim!*

*Səhər mehi, çəmən şehi, quş səsi*
*Qoy sındırsın ürək sıxan qəfəsi.*
*Qatmaq üçün nəfəsinə nəfəsi -*
*Sünbül kimi vağanayıb, dən gəlim!*

*Xoş qismətdi anlamaq da, anmaq da,*
*Sonuncuyam sevdiyimi danmaqda.*
*Sənin üçün dirigözlü yanmaqda -*
*Çətin ki, mən Əbülfətə tən gəlim!*

Hərdən mənə elə gəlir ki, hərəkət etmək gücünü itirirəm. Çünki əlim, ayağım sözümə baxmır və hərdən də elə bilirəm ki, kimsə çiyinlərimdən üzü aşağı basır - torpağa tərəf!..

Özü də elə böyük güclə, təzyiqlə bunu edir ki, mən heç tərpənə də bilmirəm. Həmin anda yadıma böyüklərimin, indi haqq dünyasında olan doğmalarımın dediyi sözlər, fikirlər düşür. Rəhmətliklər deyirdi ki, belə olanda adamın üstündən saat ötür. Mən də gülürdüm. Dərk edə bilmirdim ki, saat adamın üstündən necə ötə bilər. Amma zaman göstərdi, həyat təsdiq etdi ki, həqiqətən elə məqamlar olur ki, bir an və yaxud iki an sən özündə olmursan. Elə bil ki, cismin burda oturur, için, ürəyin, ruhun, nəfəsin harasa çıxıb gedir. Özü də elə bir sürətlə gedir ki, onu tutmaq, dayandırmaq mümkün olmur. Az qala bu an zəlzələni xatırladır, silkələnmə baş verir, ruh bədəndən ayrılır və ... və qayıdır yerinə. Bax, onda anlayırsan, dərk edirsən baş verənləri. Və bir də xatırlayırsan böyüklərin dediyini. Yadına düşür ki, üstündən saat keçib. Gör nə vaxtdır öz içimdə təkliyin, sükutun iradəsini yerinə yetirirəm və düşüncəm də, ağlım da, hətta hərəkətlərim də yalnız mənə hakim olan gücə tabedi - o, Sevgi adlanan gücün iradəsini yerinə yetirir.

Mən də könüllü şəkildə, özü də köhnə kişilər demiş, heç nəyi və heç kimi yaxın qoymadan həmin yaşantının, həmin həyata bağlılığın qırılmaz tellərini qorumağa cəhd göstərirəm. Elə bilirəm ki, üstümdən təkcə saat yox, hətta bütün zaman gəlib keçsə belə həmin sevgi yaşadacaq, sənə qovuşmaq, sənin yanında olmaq üçün güc verəcək, yardımçı olacaq.

Mən bu cür düşüncənin hakimliyini qəbul etmişəm və bunu da təzələmək, dəyişmək fikrim, niyyətim yoxdur. Xüsusilə ona görə ki, dediyim o ilahi güc, yəni o sevgi elə Allahın özündən gəlir. Üstümdən saat keçsə də yanımdan heç vaxt sənin sevgin ötüb gedə bilməz. O mənə hopmuş, mənim havama, suyuma, ruhuma, qanıma çevrilmiş Allah payıdı, Tanrı hədiyyəsidi. Ona görə də:

*Allah, mənim üstümdən*
*Deyəsən saat keçib...*
*Hardasa ləngimişəm -*
*Gün ötüb, saat keçib...*

*Dedin sel ol! - axdım da*
*Nə var mənim baxdımda?*
*"Xəbərlər"in vaxtında -*
*Gün bitib, saat keçib!..*

*Dəyirmanla dən yarı,*
*Səni sevdim, sən yarı!!!*
*Bu vaxtacan tən yarı -*
*Gün itib, saat keçib...*

Bu şeirdə mən bir az hisslərə qapılaraq, iynə ucu boyda etiraf da etmişəm. Sənə xatırlatmaq istəmişəm ki, üstümdən keçən saat itirdiyim günlərin göz dağıdı. Mənə başa salır ki, ömür keçir, gün keçir, itirmə, geri qaytara bilməyəcəksən keçən günləri, illəri. Bax, mən də dolayısı ilə bunu sənə də deyirəm, sənə də ünvanlayıram.

Gözlərinin dərinliyindəki kədəri, kirpiklərinin ucundakı nəmi özümə köçürtmək, nəfəsimlə durultmaq istəyimi gizlətmirəm. Amma neynəyim ki, bu təkcə mənim varlığımın diləyidi, istəyidi. Bunun üçün mən sənə pərvanə oluram, amma... Amma sən bir az qürurlu, bir az soyuqqanlı, bir az da tərəddüdlü davranırsan. Mən də bu davranışın qurbanlığı olmağı qəbul edə-edə bir şeyi də fikirləşirəm.

Düşündüyüm, fikirləşdiyim budur ki, doğrudanmı, sənin üçün sevgi yoxdu, mövcud deyil və yaxud sevmək çətindi, yaxud sevgi təhlükəlidi.

Deyəsən birnəfəsə dediyim suallar elə mənim özümün özümə ittihamım kimi səsləndi. Amma sən heç reaksiya vermədin. Elə bil ki, bütün baş verənlər o qədər adi və gərəksizdir ki, ona vaxt ayırmağı özün üçün qəbahət hesab edirsən. Əsl həqiqətdə isə mən səni o qədər dəqiq görür, oxuyur və davranışlarını izləyib birmənalı olaraq müəyyən etmişəm ki, sənin iç dünyan ən pak, ən dürüst, ən gerçək sevginin ünvanıdı. Sən o sevgi ilə nəfəs alırsan.

Lakin onu o qədər pünhan, onu o qədər gizli saxlayırsan ki, səni görənlər düşünürlər ki, son dərəcə laqeyd və soyuqqanlısan. Təbii ki, bu sənin üçün nə qəbahətdi, nə də günah. Çünki sənin daxilin sənə aiddi. Ancaq onu da bilmək lazımdı ki, bütün sevgilər gün işığıdı. Nə qədər gizləsən də mütləq və mütləq üzə çıxacaq və çıxır da. Mən buna Allaha inandığım kimi inanıram. Deməli, gizlətdiyin sevgi mənim sükutumun səsi, mənim tənhalığımın özü və həyatımın gerçək mənasıdı. Sən gizlətsən də Allah onu məndən gizlətmir və mən də bütün çətinliklərə, bütün ağrı-acılara, bütün tərki-dünyalığa baxmayaraq yanındayam. O sevgi ilə birlikdə:

*Nə çətin oldu sevmək*
*Məni bu yaşda, gülüm!*
*Düşmür bizə sevinmək*
*Məni bağışla, gülüm!*

*Çiçək qönçəsində şeh*
*Didədə yaş kimidir.*
*Mənə yük olan ürək*
*Üzüksüz qaş kimidir.*

*Dağa qalxan dumantək*
*Sevinc ötür üstümdən...*
*Daşa dönüb bu ürək*
*Gəlib götür üstümdən.*

*Qoyma qalsın ortada*
*Gözü yaşlı bir bəndə!*
*İlahi eşq dünyada -*
*Bir səndədi, bir məndə!*

Hə, elə bilmə ki, biz ayrı-ayrı dünyalarıq. Elə düşünmə ki, biz bir-birinə əks olan qütblərik. Elə düşünmə ki, biz paralel yol gedirik. Xeyr, biz bir-birimizin içindəyik, bir-birimizin dünyasındayıq. Biz əslində bir-birimizə baxa-baxa, birbirimizi düşünə-düşünə bir sevgini yaşadırıq! - əbədi bir sevgini.

## Millət vəkili Xalq şairini təbrik etdi



**Nəriman Həsənzadə - Azərbaycanımızın görkəmli oğlu, sevimli şairimizdir.**

**Nəriman Həsənzadə - ailəmizdə ədəbiyyatla yanaşı, insanlıqla, dostluqla, sədaqətlə çəkilən addır.**

**Nəriman Həsənzadə - Atamın və Babalarımın dostu, hər zaman hörmətlə andığımız bir insandır.**

**Nəriman Həsənzadə - həm yaradıcılığı, həm səmimiyyəti ilə sevilən ziyalıdır.**

**Daha 100 illiyə nə qalıb?**

**Nəriman müəllimə möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları arzu edirəm.**

**Xeyir-duası ilə, varlığı ilə başımızın üstündən əskik olmasın!**

## Ramazan ayında düzgün qidalanma



**Müsəlman aləmində müqəddəs ay hesab olunan Ramazan ayı oruc ibadəti ilə müşayiət olunur.**

Adalet.az diqqətə çatdırır ki, bu müddətdə gün doğandan gün batana qədər qida və sudan uzaq qalmaq orqanizmə müəyyən təsir göstərir. Mütəxəssislər bildirirlər ki, iftar və imsakda düzgün qidalanma həm sağlamlığı qorumaq, həm də gün ərzində halsızlığın qarşısını almaq baxımından mühüm əhəmiyyət daşıyır.

**1. Xurma və su**

İftarı xurma ilə açmaq həm ənənəvi, həm də sağlam seçimdir. Xurma qısa zamanda enerji verir, qan şəkərini balanslaşdırır. Su isə gün ərzində itirilən mayeni bərpa edir.

**2. Şorba və yüngül yeməklər**

Mərci, tərəvəz və ya toyuq şorbası mədəni yormadan həzm sistemini aktivləşdirir.

**3. Zülallı qidalar**

Yumurta, toyuq, balıq, qatıq uzun müddət toxluq hissi yaradır və əzələ itkisini önləyir.

**4. Kompleks karbohidratlar**

Kəpəkli çörək, yulaf, bulqur kimi qidalar enerjini tədricən verdiyi üçün gün ərzində aclıq hissini azaldır.

**5. Meyvə və tərəvəzlər**

Vitamin və mineral baxımından zəngindir, həm də qəbizliyin qarşısını alır.

Lakin bəzi qidalar vardır ki, onları qəbul etmək həzm sistemini poza və aclıq hissi yarada bilər:

**1. Həddindən artıq yağlı və qızardılmış yeməklər - Mədə yanması, köp və həzmsizlik yarada bilər.**

**2. Şirniyyat və qazlı içkilər - Qan şəkərini sürətlə qaldırıb endirdiyi üçün halsızlıq və tez aclıq hissi yaradır.**

**3. Çox duzlu qidalar - İmsakda qəbul edildikdə gün ərzində susuzluğu artırır.**

**4. Həddindən artıq çay və qəhvə - Bədəni susuzlaşdıra bilər.**

**İmsak üçün tövsiyə**

Sahurda mütləq zülal, lif və kompleks karbohidrat balansı olmalıdır. Məsələn: yumurta, az duzlu pendir, tam taxıllı çörək, tərəvəz və bol su.

**İftar üçün tövsiyə**

Orucu su və xurma ilə açdıqdan sonra 10-15 dəqiqə fasilə verib yüngül yeməklə davam etmək daha sağlamdır. Birdən-birə həddindən artıq yemək mədə problemlərinə səbəb ola bilər.

Mütəxəssislər bildirirlər ki, xroniki xəstəliyi olan şəxslər oruc tutmazdan əvvəl mütləq həkimlə məsləhətləşməlidirlər. Ramazan ayı həm ruhun, həm də bədənin təmizlənməsi dövrü kimi dəyərləndirilir. Düzgün qidalanma isə bu müqəddəs ayı daha sağlam və rahat keçirməyə kömək edir.

## Vatikanda QMİ-nin nümayəndəliyi yaradılacaq

**Vatikanda Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəliyi yaradılacaq.**

Adalet.az xəbər verir ki, bu barədə Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə məlumat verib.

A.Paşazadə xatırladıb ki, hazırda QMİ-nin İstanbulda, Tiflisdə, Batumidə, Dərbənddə nümayəndəlikləri və qazılıqları fəaliyyət göstərir:

”Əhatə coğrafiyamızı genişləndirmək istiqamətində işlər davam edir. Hazırda Vatikanda nümayəndəliyimizin yaradılması istiqamətində danışıqlar aparırıq”.

## Xəstəxanalarda hava nə üçün yoxlanılır?



**”Tibb müəssisələrində havanın bakterioloji müayinəsi xəstəxana daxili infeksiyaların qarşısını almaq, dezinfeksiya tədbirlərinin və havalamdırma sistemlərinin effektiv olduğunu, sanitariya-gigiyenik vəziyyəti qiymətləndirmək məqsədilə həyata keçirilir”.**

Adalet.az xəbər verir ki, bu barədə ”Sağlam radio” nun (93 FM) ”Sağlam səhər” efirində Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin mikrobioloqu Qumru Qaibova deyib.

Onun sözlərinə görə, hazırda Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin bakterioloji laboratoriyasında müayinələr aspirasiya üsulu ilə aparılır:

”Müayinə üsulunun üstünlüyü dəqiqliyinin yüksək olmasıdır. Tibb müəssisələrindən hava nümunəsini Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin bakterioloji laboratoriyasının tibb personalı havasoran cihaz (Aspirator) vasitəsilə götürür. İçərisində mühit olan petri kasası hava cihazın daxilinə yerləşdirilir və müəyyən həcmdə hava (100-500 l) qida mühitindən keçirilir. Havada olan mikroorqanizmlər qida mühitinin üzərinə hopur. Götürülmüş hava nümunəsi Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin bakterioloji laboratoriyasına gətirilərək, termostatda inkubasiya olunur. Əmələ gələn koloniyalar sayılır və 1 kub metr havaya görə hesablanır. Alınan nəticə sanitariya normalara uyğun olmalıdır”. Dediyinə görə, Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin tabeliyində olan ərazi Respublika Gigiyena və Epidemiologiya Mərkəzləri tərəfindən plan üzrə tibb müəssisələrdən götürülmüş hava nümunələrinin bakterioloji müayinəsi zamanı çirklənmə aşkar edilərsə, müəssisə rəhbərinə xəbərdarlıq edilir: ”Nöqsanların aradan qaldırılması üçün təkliflər verilir. Bu təkliflərin icrasına nəzarət məqsədilə təkrar laborator müayinələr aparılır”.

**Xuraman Hüseyn**



# Müharibədən ədəbiyyata

**İnsan yarandığı gündən davalar, müharibələr olub. İbtidai icma quruluşundan başlanan iş, əmək üstündə davalar zaman keçdikcə böyüyüb, təşəkkül tapıb və böyük müharibələrə çevrilib. Traybalizm yavaş-yavaş təkmilləşərək torpaq üstündə gedən müharibələrə dönüb. Vətən anlayışını da elə müharibələr yaratmayıbmı? ”Torpaq, əgər uğrunda ölən varsa, vətəndir” misrası vətənin nə demək olduğunu ehtiva etmirmi?**

Həyatımızın ayrılmaz parçası olan ədəbiyyat müharibəni, onun yazılmış və yazılmamış qanunlarını bəşəriyyətə olduğu kimi və daha dolğun çatdırıb və əbədi olaraq da çatdıracaq. Ədəbiyyat bəşəri duyğuları, insanın başına gələnləri, onun yaşadıqlarını əks etdirən və əks etdirməyə qadir bir vasitəsir-yazılı mətndir... Yazıya isə pozu yoxdur. Həyatımızın əbədi əks olunduğu ədəbiyyata pozu olmadığı kimi. Yaradanın alnımıza yazdıqlarını bir də ədəbiyyatdan oxuyuruq.

Müharibələr haqda əsrlərdir saysız-hesabsız nəzm və nəsr əsərləri yazılır. Bu, təbiidir, əlbəttə. Ədəbiyyatın işi bu, deyilmi? Ədəbiyyatda əks olunanlar insanlara snobizmin nə olduğunu aşılayır, onların bu yazılanlardan nəticə çıxarmasını istəyir. Zaman-zaman bu, öz bəhrəsini verir də. Hamı yaxşıya bənzəmək, pisdən nəticə çıxarmaq və onu təkrarlamamaq istəyir.

## Əbədi həyat-ədəbiyyat

Onu tək bu xüsusiyyətlərinə görə yox, bir çox xüsusiyyətlərinə görə əbədi həyat adlandıra bilərik. Dünya xali olandan insan həyatının, baş verən müharibələrin əks olunduğu ədəbiyyat dərin entuziazmla yazılıb, oxucuların diqqətinə çatdırılıb. Oxuduğumuz kitablardakı, baxdığımız filmlərdəki müharibə həyatı, səhnələri təhtəlşüurumuzda, psixologiyamızda dərin izlər buraxıb, bizə həyatın necə olduğunu, əslində necə ola biləcəyini anladıb. Hansının yaxşı, hansının pis olacağını özümüz üçün müəyyənləşdirmişik, nəticələr çıxarmışıq, bəzən də baş verənlərlə öz taleyimiz kimi barışıb seyrçi mövqeyi tutmuşuq. Ədəbiyyatın qüdrəti tək bununla bitirmi?

Tarixən hər yeni müharibə ədəbi hadisələrə çevrilib. Onlarda oxucunun gördüyü, eşitdiyi və təxəyyül məhsulu olan görmək və eşitmək istədiyi hadisələr yer alıb.

Müharibə haqqında yazılan əsərlərdən danışarkən ilk yada düşənlərdən biri Lev Tolstoyun ”Hərb və sülh” romanı olur. Dünya ədəbiyyatının ən maraqlı əsərlərindən biri hesab olunan ”Hərb və Sülh” Tolstoyun digər əsəri ”Anna Karenina” ilə birgə onun yaradıcılığının ən gözəl nümunələri hesab olunur. Rusiyanın Fransa tərəfindən istilası dövründə baş verən hadisələri və Napoleon erasının Rusiyada Çar cəmiyyətinə təsiri nəticəsində beş zadəgan ailəsinin nümunəsində təsvir olunan ”Hərb və sülh” haqqında Tolstoy demişdi ki, bu əsər bir qədər poema, daha çox isə tarixi xronikadır. Fəlsəfi diskussiya xarakteri daşıyan ”Hərb və sülh” ən yaxşı Rusiya ədəbiyyatı nümunələrinin standart normalardan kənara çıxdığını göstərir.

Mixail Şoloxovun ”İnsanın taleyi” hekayəsi realist üslubda yazılıb. Bir döyüşçü yazıçıya öz həyat hekayətini danışır. ”Sakit Don” kimi romanın müəllifi olan Şoloxov həmin insanın taleyi haqda da yazmalı olur.

”Əsl insan haqqında povest” Böyük Vətən müharibəsinin ilk günlərindən son günlərinəcən ”Pravda” qəzetinin hərbi müxbiri olan, cəbhədə partizanlıq edən, Stalinqrad və Kursk döyüşlərində vuruşan Boris Polevoyun döyüş zamanı təyyarəsi vurularkən hər iki ayağını itirmiş, amma özündə güc taparaq yenidən cəbhəyə qayıtmış təyyarəçi Aleksey Meresyevin həyatı haqdadır.

Boris Vasilyevin ”Adı siyahıda yoxdur” povestinin qəhrəmanı qəhrəmancasına döyüşərək həlak olmuş bütün naməlum əsgərlərin rəmzi hesab olunur. Yuri Bondarevin ”Qara qar” romanı real həyatda baş verən hadisələri əks etdirir. Leytenant Drozdovskinin həyatının bir gününün təsvir olunduğu əsərdə Stalinqrad döyüşü ətraflı təsvir olunub.

Cəbhəyə könüllü olaraq gedən Viktor Astavyev ”Lənətlənmiş və öldürülmüş” romanda müharibənin törətdiyi dəhşətləri ətraflı təsvir edir. O, müharibəni insanlığa qarşı törədilmiş cinayət kimi qiymətləndirir.

”Üfüqlər burada sakitdi...” romanındakı hadisələr real tarixi faktları əhatə edir. Böyük Vətən Müharibəsi zamanı rezonans yaradan yeddi cəsur döyüşçünün Murmanska silah-sursat daşıyan qatarı partlatmağa cəhd göstərən alman diversiya qrupunu məhv etməsini qələmə alarkən müəllif real kişi qəhrəmanları qadın qəhrəmanlarla əvəz edib. Əsər haqqında 1972-ci ildə film də çəkilib.

Vətənimizin, xalqımızın ən böyük bəlası olan Qarabağ müharibəsi haqında çoxsaylı bədii əsərlər də yazılıb və yazılmaqdadır. Qarabağ haqda maraqlı əsərlər yazan müasir yazıçılardan Şərif Ağayarın da adını çəkə bilırik. Qarabağın havası, suyu ilə böyüyən, vətən dərdi, yurd həsrəti çəkən Şərif Ağayarın yazdığı hekayələrdə, romanlarda onun vətənpərvərlik duyğuları daha çox hiss olunur. Təbii, yurdu erməni işğalında olan yazıçının qəhrəmanlarının başlarına gələnlər də mühairəbənin yaşatdığı ağrı-acıları ehtiva edir.

## Müharibə misralarda

Müharibənin ağır sınaqlarından çıxan ölkələrin ədəbi, bədii nümumələrində də həmişə ondan bəhs olunur. Qanlı, qadalı müharibələr haqqında bizim də şairlər, yazıçılar düşündüklərini, bəzən gördüklərini qələmə alır, yaşananları əks etdirən poetik, prozaik nümunələr yazırlar. Yaşadığımız ağrı-acıların bədii estetik dəyəri o şeirlərdə öz əksini tapır. Səməd Vurğunun poetikasında da buna rast gəlirik. S. Vurğun ”Ananın öyüdü” şeirində deyir:

*Geyib əsgər paltarını, silahlandı qəhrəman,*
*Onun polad sinəsinə sığışmadı ürəyi.*
*Dayan! - deyib, yaxın gəldi, öpdü onun alnından*
*Yay gününün xoş səhəri, bir də dağlar küləyi.*
*- Ana! Getdim salamat qal! - deyib öpdü qarını,*
*Ana igid balasına açdı öz qollarını...”*

Əhməd Cəmil ”Can nənə bir nağıl de” şeirində nənə öz nəvəsinə atasının əsgərlikdən gələcəyindən danışır:

*...Sağlıq olsun, ağ toğlunu atan üçün kəsərik.*
*Mən eyvana xalı sallam, anan evi bəzəyər,*
*El qaydası süfrə açar, qohum-qonşumuz gələr.*
*Sən atanı qucaqlayar, üz-gözündən öpərsən,*
*Qoca baban saz kökləyib, nağıl deyər sübhəcən...*
*Körpə güldü... həsrət qonan gözlərindən uçdü qəm,*
*Öpdü onun xəyalını indi özgə bir aləm;*
*Qaranquşlar uçub gəldi, açdı çiçək, güldü yaz...*
*Qucaqladı atasını, sonra kimsə çaldı saz...*
*Körpə özü hiss etmədən, onu yuxu apardı,*
*Çöldə isə bütün gecə külək tufan qopardı...*

Süleyman Rüstəmin ”Ana və poçtalyon” şeiri də müharibə haqdadır:

*Dörd ay vardı, ananın gözləri yol çəkirdi,*
*Başqa bir dərdi yoxdu, oğul dərdiydi dərdi.*
*Sorurdu: - ”Balam hanı?” -*
*Hər cəbhədən gələndən*
*Ondan xəbər gəlməyir, xəbər gəlir öləndən.*
*Yerəmi batdı oğlum, göyəmi çıxdı oğlum?*
*Bəlkə mən yanılmışam, əzəldən yoxdu oğlum?!*

Məmməd Arazın ”Müharibə olmasa” şeirində də müharibədən söhbət açılır:

***Əridib silahları***
***Biz marten sobasında,***
***Körpü yarada billik***
***Yerlə Mars arasında, -***
***Müharibə olmasa!***

Müharibələrin, açılacaq atəşlərin, yağacaq odun, alovun əvəzinə sülh göyərçinləri göylərdə qanad açsa dünya daha gözəl olmazmı? Məmməd Araz da müharibənin olmayacağı təqdirdə nələrin yaşana, görünə biləcəyini poetik ovqatla ifadə edir.

İsa İsmayılzadənin ”Güllələr demədi” şeirində uşaqları müharibədən, döyüşdən uzaq tutmaqdan bəhs olunur:

*...Bir gün xəbər gəldi: dava başlanıb,*
*Onlar əsgərliyə çağırıldılar.*
*Nə tütək çaldılar, nə fit çaldılar,*
*fikirli oldular, ağır oldular...*

Böyük Vətən müharibəsinə həsr olunmuş belə şeirlərimizdən çox danışa bilərik. Otuz ildir davam edən Qarabağ müharibəsi haqda da poeziyamız susmayıb. Qarabağ müharibəsinə həsr olunan kifayət qədər əhatəli, maraqlı, baş verən faciələrimizi, müharibənin acı nəticələrini əks etdirən poetik nümunələr yazılıb və yazılmaqdadır. Azərbaycan şairləri illərlə gözlədikləri qələbə istəyini, arzusunu poeziya vasitəsilə bildirirlər.

Aleksandr Tvardovskinin ”Vasili Tyorkin” poeması vətənini ürəkdən sevən gənc Tyorkinin simasında səngər yoldaşını, köhnə dostunu və özünü görənlər vardı. Qeyd edək ki, ”Vasili Tyorkin” poemasına xeyli nəzirələr yazılıb.

Qarabağ müharibəsi, onun doğurduğu itkilər, gətirdiyi sosial və mənəvi bəlalar, ağrılar, yurd-yuvalarından didərgin düşmüş, şəhid olmuş həmvətənlərimiz haqda saysız-hesabsız şeir yazılıb və dediyimiz kimi, yazılmaqdadır. Bu şeirlər şairlərimizin vətənpərvərlik duyğusundan yaranır. Yurd itkisi ilə barışmayan çoxları Qarabağ haqda şeirlər yazsa da onların hamısını poetik nümunə kimi qəbul etmək olmaz. Əlbəttə, aralarında kifayət qədər müharibənin amansız qanunlarını, faciələrimizi əsl poetik nümunə kimi ifadə edən şeirlər var.

Qarabağın həsrəti, yurd itkisi ilə yaşayan şairlərimiz çoxdur. Onların yazdığı şeirlərin hər biri bu həsrəti əks etdirir. Qarabağ mövzusu poeziyamızda geniş yer tutur...

## Müharibə filmlərdə

Müharibə haqqında çox filmlər çəkilib. Bu filmlər arasında Azərbaycanda çəkilən filmlər də maraqlıdır. Onlarda da müharibənin amansız qanunları, yaşanan çətinliklər, baş verən faciələr əks olunur.

”Uzaq sahillərdə” filmi İkinci dünya müharibəsi illərində Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin İtaliya və Yuqoslaviyada faşist işğalçılarına qarşı apardığı mübarizəyə həsr edilib.

Aktyor Nodar Şaşıqoğlunun və aktyor Hacımurad Yagizarovun kinoda ilk işi olan film İmran Qasımov və Həsən Seyidbəylinin eyniadlı povesti əsasında ekranlaşdırılıb.

Mehdi Hüseynzadə ilə eyni partizan dəstəsində vuruşan Cavad Həkimli də bu filmdə çəkilib. ”Uzaq sahillərdə” Sovet İttifaqında kəşfiyyatçı haqqında çəkilən ikinci filmdir.

General Həzi Aslanov haqda üç film ərsəyə gətirilib. Filmin biri 1945-ci ildə, digəri 1970-ci ildə, o biri isə 1985-ci ildə lentə alınıb. 1945-ci ildə çəkilən və Həzi Aslanovun qəhrəmanlığından bəhs edən ”General Həzi Aslanov” filmində Azərbaycan xalqının qəhrəman oğlu Həzi Aslanovun dəfn mərasimi, xalqımızın öz igid sərkərdəsinə olan sevgisi və ehtiramı əks olunub. Filmdə onun cənazəsinin təyyarə limanına gətirilməsi, Bakı Zabitlər Evində şəhər ictimaiyyətinin generalla son dəfə vidalaşması, dağüstü parkdakı dəfn mərasimi, izdihamlı mitinq əks olunub. Filmdə Həzi Aslanovun cəbhədə vuruşması anlarını canlandıran xronikadan da istifadə edilib. 1970-ci ildə çəkilən filmdə də onun qəhrəmanlığı, göstərdiyi sücaətlər əks olunub.

”Sizi dünyalar qədər sevirəm” filmi rejissor Rasim İsmayılov tərəfindən ekranlaşdırılıb. Filmin çəkilişlərində Belarus və Zaqafqaziya hərbi dairələrinin qoşunları iştirak ediblər. Film Azərbaycan xalqının qəhrəman oğlu, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun həyat və döyüş yolundan bəhs edir. Müharibədən bəhs edən film həm də tarixi, döyüş, bioqrafik janrdadır. Filmdə əsas rolları Ramiz Novruzov, Viktor Tarasov, Aleksandr Denisov, Şahmar Ələkbərov ifa edirlər.

”Mən ki gözəl deyildim” də müharibə haqda çəkilən Azərbaycan kinolarındandır. Yazıçı Bayram Bayramovun eyniadlı povesti əsasında ekranlaşdırılan filmdə Səidə adlı (Xuraman Qasımova) gənc qızın taleyindən bəhs olunur. II Dünya Müharibəsi illərində kənddə adamlarını birbirinə bağlayan dostluq telləri, doğmaları, əzizləri cəbhədə həlak olan ailələrin dərdinə şərik olmaq kimi humanist addımlar, onların ümumi işin xeyrinə gecə-gündüz işləməyə hazır olmaları əks olunub.

Ssenarist Alla Axundovanın və aktyor Fərhad İsrafilovun kinoda ilk işi olan ”Şərikli çörək” filmi də Böyük Vətən Müharibəsinə həsr olunub. Filmin çox hissəsi İçərişəhərdə, Böyük qala küçəsində çəkilib. Kinostudiyanın pavilyonlarında, Kubinkada, Nalçikdə də lentə alınan ”Şərikli çörək” 1969-cu ildə lentə alınıb. ”Şərikli çörək” daha çox Böyük Vətən müharibəsi zamanı insanların yaşadığı çətinliklərə, maddi ehtiyaca həsr olunub.

”Bizim Cəbiş müəllim” filmində də müharibənin insan həyatına vurduğu zərbələr öz əksini tapır. Böyük Vətən Müharibəsinin maddi, mənəvi çətinliklərini əxz etdirən bu film 1969-cu ildə rejissor Həsən Seyidbəyli tərəfindən ekranlaşdırılıb. ”Azərbaycanfilm” kinostudiyasında istehsal edilən ”Bizim Cəbiş müəllim”də baş verənlər müharibə dövründə Bakıda cərəyan edir. Filmdə əsas rolları Süleyman Ələsgərov, Şəfiqə Məmmədova, Muxtar Maniyev, Səfurə İbrahimova, Ziya Seyidbəyli, Nəsibə Zeynalova, Əliağa Ağayev, Aqil Ağacanov ifa edirlər. 1970-ci ildə Minskdə IV Ümumittifaq kinofestivalında aktyor Süleyman Ələsgərova yüksək aktyor sənətkarlığına və parlaq realist obraz yaradılmasına görə SSRİ Nazirlər Soveti yanında Kinematoqrafiya Komitəsinin və SSRİ Kinematoqrafçılar İttifaqının diplomu verilib.

## Qarabağın “Fəryad”ı

Qarabağ müharibəsi haqqında çəkilən filmlərdən danışarkən ilk yada düşən ”Fəryad” olur. ”Fəryad” filminin qəhrəmanı ”Ögey ana” filminin baş qəhrəmanı balaca İsmayıl (Ceyhun Mirzəyev) böyüyüb, ailə-uşaq sahibi olur. ”Fəryad” filmində İsmayıl Hüseynov artıq batalyon komandiridir. O, vətən torpaqlarının erməni işğalçılarından azad olunması üçün mərdliklə vuruşur, əsir düşür.

Qarabağ müharibəsinə həsr olunan filmin baş qəhrəmanının prototipi var və film real həyatda baş verən hadisələri əks etdirir. ”Fəryad” filminin ssenari müəllifi Vaqif Mustafayevdir. Filmdə əsas rollarda Ceyhun Mirzəyev, Məlik Dadaşov, Hacı İsmayılov, Liana Quadze, Fikrət Məmmədov və başqaları çəkilmişlər. Film 1993-cü ildə lentə alınıb.

## Qarabağda “Dolu”

Rejissor Elxan Cəfərov tərəfindən 2012-ci ildə ekranlaşdırılan tammetrajlı bədii döyüş filmi ”Dolu” Ermənistan-Azərbaycan münaqişəsi zamanı baş vermiş gerçək hadisələrdən bəhs edir. Aqil Abbasın eyni adlı romanı əsasında çəkilən filmdə əsas rolları Məmməd Səfa, Rza Rzayev, Elvin Əhmədov, Fuad Poladov, Gülzar Qurbanova, Şamil Süleymanlı və başqaları ifa edirlər. Aktyor Mayak Kərimovun kinoda son işi olan filmdə coğrafi məkan kimi Şəmkir, Ağdam, İsmayıllı, Ağcabədi, Sumqayıt, Sumağallı, Bakı və Xızı seçilib...

**Qonşu bildiyimiz xainlərin törətdiyi qanlı, qadalı Qarabağ müharibəsinə həsr olunmuş filmlər yəqin ki, yenə olacaq. Müharibə bitsə də onun ağrı, acıları yaddaşlardan silinməyəcək.**

# Səməd Vurğunun musiqi dünyası



*Ramiz Göyüş,*
*yazıçı-publisist*

**Xalq şairi Səməd Vurğunun həyat və yaradıcılığı, dramaturgiyası, poeziyası, ayrı -ayrı dram əsərləri, poeziyasının xüsusiyyətləri barədə onlarca disertasiya və monoqrafiyalar, yüzlərcə məqalə, minlərcə xatirə və oçerklər yazılıb və əminəm ki, indən sonra da yazılacaqdır. Bu yazıda böyük şairin yaradıcılığının və şəxsiyyətinin formalaşmasında mühüm rol oynamış və əhəmiyyət kəsb edən musiqi dünyasından söhbət açmaqdır.**

Səməd Vurğunun musiqiyə vurğunluğunu, onun musiqi istedadını ilk dəfə atası Yusif ağa hiss etmişdi. Şairin qardaşı, görkəmli pedaqoq və ictima-siyasi xadim Mehdixan Vəkilov Səməd Vurğunun həyat və yaradıcılığına həsr etdiyi, xatirələrdən ibarət "Ömür dedikləri bir karvan yolu" kitabında yazırdı: "Atanamız həssas qəlbli, mərhəmətli, təmiz və saf duyğulu, şair xəyallı, son dərəcə xəyalpərəst adamlar idilər. Hər ikisi məlahətli səsə malik, sinələri sözsöhbətlə dolu nəğməkar idilər. Səməd Vurğun ömrünün axırına qədər atasının "cürə" sazının sınıq qəlbə od səpələyən füsunkar səsini və anasının ecazkar laylasını xatırlardı:

***Dağlarda çiçək a səm-səmi***
***Hamıdan göyçək a səm-səmi!"***

O, lap kiçik vaxtlarından musiqini, nəğməni, tez mənimsəyir və gözəl rəqs edirdi. Atası "Ruhani" havasını çalar, balaca, sısqa və baldırları açıq Səməd isə oynayardı. Ondakı bütün bu incəlikləri və bədii zövqün ruşeyimini görən atası böyük iftixar hissi ilə təkrar edərdi: "Oğul bundan olacaq!".

Atası Yusif ağanın "cürə" sazından eşitdiyi qəlb kövrəldən aşıq havaları, qəmli-yanıqlı nəqmələri, həyatdan çox erkən getmiş anası Məhbub xanımın laylaları, dua edib, quran oxuyarkan eşitdiyi şirin avazı və gözəl səsi, Kürün uğultusu, durnaların qaqqıldaşması, Qarayazı meçəsində gecələr bir-birini çağıran iki qardaşın timsalı olan İsa-Musa quşlarının həzin "qu-qu" nəğməs balaca Səmədin qəlbinə hakim kəsilmiş ilk eşitdiyi nəğmələr idi.

Seminariyada oxuduğu 1918-1924-cü illər onu həyatında xüsusi bir mərhələ təşkil edir. Səməd Firudin bəyin təşəbbüsü ilə Seminariyada təşkil edilən xor, dram, musiqi dərnəklərində fəal iştirak edirmiş.

Sininfdən-sinfə keçdikcə, Səməd bütün sahələrdə xüsusu istedadı ilə özünü daha qabarıq şəkildə biruzə verir, onun istər seminaristlər, istərsə də seminariyada dərs deyən, sonrakı illərdə Azərbaycan təhsilinin inkişafında mühüm xidmətlər göstərmiş Əhmədağa Mustafayev, Əli Hüseynov, Yusif Qasımov, Alay Şıxlinski, İbrahim Əfəndi Qayıbov, Mirzə Vəlizadə, Yusif Əfəndiyev, Süleymanağa Qayıbov kimi görkəmli pedaqoqlar Səmədi xüsusi bir məhəbbətlə sevir, onun inkişafına daim diqqət yetirirmişlər. Əvvəllər riyaziyyat fənninə xüsusilə daha böyük həvəsi olan Səməd, sonradan ədəbiyyata və musiqiyə daha çox meyl göstərməyə başlayır. "Zaman keçdikcə ədəbiyyata və musiqiyə olan daxili hərarət və gizli lira simləri güclü surətdə hərəkətə gəlməyə, səslənməyə başladı. Onun gözəl şeirlər oxuması, monoloqlar deməsi, səhnədə Məcnun rolunda "Məcnun kimi" oynaması, məlahətli səsi, skripkanı incə hisslə və ehtirasla çalması, xəyalpərvərliyi, üsyankar təbiəti müəllimlərin diqqətini cəlb etmişdi. Ədəbiyyat müəllii Yusif Qasımov bir dəfə"Bu Səməd fitneyi- dövran olacaqdır"-demişdi."(Mehdixan Vəkilov)

1918-1924-cü illərdə Səməd Vurğunla Seminariyada birlikdə təhsil almış, məşhur nasir, publisist, tərcüməçi, 1936-1938-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının sədri olmuş Seyfulla Şamilov şairin gənclik illərinin, onun musiqi dünyasının ən yaxın şahidlərindən biri idi: "...Qoridən gələn yuxarı sinif tələbələri içərisində skripkanı çox yaxşı çalanlar var idi. Lakin heç kəsin çaldığı skripka Səmədin skripkası kimi inləmirdi, çalarkən heç kəsin gözlərində Səmədin gözlərində olduğu kimi ehtiras alovu parlamırdı. Cümə günlərində seminariyada dərs olmayanda biz öz sinifimizdə Səmədin başına yığışıb ondan bir hava çalmasını xahiş edirdik. O, bəzən bizim xahişimizə əməl edər, bəzən də yalnız istədiyini çalırdı."

Səməd Vurğun hələ şair olmamışdan əvvəl atasından oxumağı və saz çalmağı öyrənmişdi. Saz onun ən sadiq həmdəmi idi. Hələ şair kimi məşhurlaşmamışdam əvvəl o, mahalı el-el , obaoba gəzəndə sazı da onunla bir yerdə gəzirdi. 1928-ci ildə Gəncəyə köçərək burada orta məktəblərdə və partiya məktəbində müəllim işləməklə bərabər Gəncədə ədəbi mühitin inkişafında fəal mövqe tutan Səməd Vurğun bir növ Gəncə şəhərinin həyatında hadisəyə çevrilmişdi. Həyatının mənasını poeziya və musiqidə görən gənc Səməd həm də çoxsaylı musiqiçilərlə ünsiyyət, dostluq əlaqələri qururdu. "Körpəlikdən Səmədin köksündə üç şey kök atmışdı, rişələri ürəyinə, beynine işləmişdi. Varlığı bu üç şeydən yoğrulmuşdu: şeir, musiqi, bir də məhəbbət." (Mehdixan Vəkilovun xatirələrindən)

Yazının bu məqamında oxucunun diqqətini Şairin ustad sənətkar, xalq mahnılrımızın və muğamlarımızın təkrarsız və mahir ifaçısı Xan Şuşinski ilə münasibətlərinə diqqəti yönəltmək istərdim. "...Səməd Vurğun Xan Şuşinskinin səsini ilk dəfə ötən əsrin iyirminci illərində Gəncədə eşitmişdi. O vaxtdan da xanəndənin sənəti, ecazkar səsi onu məftun eləmişdi. Çox çəkmədən hər iki sənətkar şəxsən tanış olmuş və bu tanışlıq sonralar möhkəm və səmimi bir dostluğa çevrilmişdi. Şairin elə bir məclisi olmazdı ki, Xan orda iştirak etməsin. Xanəndənin səsinin "dəlisi" olan Səməd Vurğun özünün məşhur "Azərbaycan" şeirində onu xüsusi bir məhəbbətlə tərənnüm edir

Bu hadisədən sonra şairlə xanəndə rastlaşırlar. Səməd Vurğun xüsusi bir şövqlə Xan Şuşinskiyə - " Xan səni də saldım tarixə"- deyərək Azərbaycan şeirindən bu bəndi söyləyir:

***Könlüm keçir Qarabağdan,***
***Gah o dağdan, gah bu dağdan,***
***Axşamüstü qoy uzaqdan***
***Havalansın Xanın səsi,***
***Qarabağın şikəstəsi.***

Xan Şuşinski Böyük şairin bu şirin atmacasından məmnun olaraq eyni əhvalla cavab verir: "Səməd vallah mən tarixdəydim, mən öləcəm amma Qarabağ şikəstəsi qalacaq, hər dəfə bu ifamı eşidəndə, səsim gələndə, sən də xatırlanacaqsan..." (Tədqiqatçı-jurnalist Vasif Quliyev).

Şairlə xanəndənin növbəti görüşlərindən biri, həm də son görüşü 1955-ci ilin yayında məşhur İsa bulağında baş tutur. Vasif Quliyev yazır: " İsa bulağında bu iki dost elə səmimi, elə mehriban qucaqlaşdılar ki, uzun illər bir-birlərinin həsrətində olan doğma qardaşlar kimi görüşdülər.

...Məclisin axırında Xan Səməddən xahiş etdi ki, bir-iki ağız desin...Şair tarzənə dedi:

- Aya, Allahyar, o tarı "Yetim segah" üstündə köklə, bəri ver!

Səməd tarı döşünə basıb, sarı simdə gəzişdi. Bir qədər keçməmiş meşəni yanıqlı və həzin bir səs bürüdü.

... Hamı heyrətlə Səməd Vurğunu dinləyirdi. O, son dərəcə aydın diksiya ilə Aşıq Ələsgərdən oxuyurdu.

... O gün Səməd Vurğunun İsa bulağında qurduğu məclis gecədən keçənədək davam etdi. Artıq dan yeri sökülürdü..."

Səməd Vurğunun musiqiyə vurğunluğu təkcə musiqiçilərlə dostluqla, musiqi məclislərində iştirak etməklə, sazlı-söhbətli məclislərdə, dost məclislərində musiqi alətlərində ifa etməklə bitmirdi. O, həm də yaradıcılığında musiqini özündə ehtiva edən poeziya inciləri yaradırdı. Həmin incilərdən birini- hələ də xanəndələrin repertuarını bəzəyən məşhur qəzəlini misal gətirmək istədim:

*Hər bağın, hər baxçanın öz bülbülü şeydası var.*
*Hər duyan qəlbin, əzizim, gizli bir sevdası var.*
*Ruhu oxşar, qəlbi oxşar incə bir canan səsi,*
*Gah gülər, gah ağlayar, hər dəmdə bir mənası var.*
*Can alan hər nəğmənin mənası yalnız eşqidir.*
*Göz görüb, əl çatmayan yıldızlı bir dünyası var...*

Şairin hikmətinə diqqət yetirin, "can alan hər nəğmənin mənası yalnız eşqidir. Səməd Vurğun da musiqinin, nəğmənin mənasını yalnız "eşq"də görür. Eşqisiz həyat yoxdur, eşqsiz heç nə yarana bilməz.

Dəyərli oxuculara bildirmək istəyirəm ki, Üzeyir bəylə Səməd Vurğun arasında hamıya örnək olan dostluqlarına ayrıca məqalə həsr etmişəm. Həmin səbəbdən bu iki dahi şəxsiyyət arasında dostluğun və yaradıcılıq əlaqələrinin səviyyəsini Səməd Vurğunun Üzeyir bəyə yazdığı bir məktubu nümunə gətirməklə kifayətlənməyi lazım bildim.



Həmin məktubda Böyük şair yazırdı: "Əzizim Üzeyir bəy! Siz məndən ordumuzun 25-ci ildönümü münasibətilə şeir istəmişdiniz. Mən də "Göz aydınlığı" adlı bir şeir yazıb sizə göndərirəm. İndi söz sizindir! Sizin böyük sənətiniz hər zaman mənim şeirlərimə qanad verdiyi kimi, bu şerimə də qanad verəcək. Əllərinizi bərk-bərk sıxıram, hər vaxt qulluğunuzda hazıram.

**Sizin S. Vurğun**
**9.11.43. Bakı ."**

Səməd Vurğun Azərbaycanın görkəmli musiqiçiləri, xanəndələri, bəstəkarları, müğənniləri ilə yaxın dostluq edir, onlarla birgə yaradıcılıq əlqələri qururdular. Bu baxımdan şairin məşhur bəstəkarımız, SSRİ xalq artisti Fikrət Əmirovla bir görüşü son dərəcə heyrətamiz və maraqlıdır. Firət Əmirov xatirələrində yazır: " Sənətimizin parlaq məşəllərini yandırmış üç müdrik sima həmişə gözlərim önündə durur: Üzeyir Hacıbəyov, Bülbül, Vurğun... Sənətkar olmaq üçün sənətin aşiqi olmaq gərəkdir. Səməd Vurğun yaradıcılara nümunə olan əsl sənət vurğunu idi...1954-cü ilin yazı idi. Dram Teatrında tamaşalardan birinə ictimai baxış keçirilirdi. Səmd Vurğun yazıçı Mehdi Hüseynlə foyedə gəzişirdi. Məni görüb ayaq saxladı, yanına çağırdı, özünəməxsus səmimiyyətlə dedi: - Ayə, dünən sənin simfonik suitanı radioda eşitdim, lap Kəpəzin başına çıxmışdın...O vaxt utandım, ürəyimdə olan bir sözü şairə deyə bilmədim. Deyə bilmədim ki, bu suitanı Sizə həsr etmişəm, Onu Sizin " Azərbaycan" şeirinin təsiri ilə yazmışam...".

Görkəmli bəstəkar Fikrət Əmirov xatirələrini davam etdirərək yazırdı: "Səməd Vurğun yeni yaranan əsərlərə maraq göstərirdi. "Kürd ovşrı" və "Şur" simfonik muğamlarını Bülbülün evində mən pianoda çalarkən bu muğamların ilk dinləyiciləri ev sahibi, Səməd Vurğun və Mirzə İbrahimov olmuşlar."

Opera sənətimizin korifeyi və xalq mahnılarımızın mahir ifaçısı, SSRİ xalq artisti Bülbülün Səməd Vurğun haqqında fikirləri də şox maraqlıdır: "Otuz illik çoşqun bədii yaradıcılıq yolunda - şeirdə, musiqidə, teatr sahəsində biz, incəsənət işçiləri həmişə Səmədlə əl-lə verib birgə addımlamışıq. O, həmişə bədii yaradıcılığın ön sıralarında getmişdir. Səməd Vurğun çox yazıb, yaratmış, özündən sonra böyük bir irs qoyub getmişdir... Xalqımız əsrlərlə onu oxuyacaq, xatirəsini də əbədiləşdirəcəklər... Onun musiqiyə dair dediyi bu tutarlı misralar heç vaxt xatirimdən çıxmır:

***Hər incə pərdənin öz aləmi var,***
***Bəzən nəşəsi var, bəzən qəmi var.***
***O gözəl nəğməni dinlədikcə biz,***
***Həsrətlə çırpınır ürəklərimiz."***

Səməd Vurğun həssas musiqi duyumuna, musiqini kamil eşitmə qabiliyyətinə, mükəmməl musiq savadına malik olduğu onunla təmasda olan musiqiçilə-ri hamısına məlum idi. Şairlə dostluq və yaradıcılıq münasibətində olan görkəmli bəstəkar Əfrasiyab Bədəlbəylinin xatirələrindən: " Bəstəkarlarımız çox vaxt ona (Səməd Vurğuna R.G.) öz aralarında Azərbaycan Sovet şeirinin Üzeyiri deyirdilər...Səməd Vurğun saz çalmaqda xalq aşıqlarının bir çoxundan geri qalmaz, kefi gələndə hərdən tarını sinəsi üstə alıb, sarı simi narın mizrab ilə səsləder, gah da pəsdən zümzümə edər. O Azərbaycan muğamlarını professional musiqiçi qədər mükəmməl bilir. ...1939-cu ildə, "Xanlar"pyesini ilk dəfə tamaşaya hazırlandığı zaman sınamışam. Bu pyes üçün yazdığım musiqidən yeni bir parça məşq edildiyi zaman notların bəzi cüzi səhvlərlə köçürülməsi üzündən opkestrin saxta səslərlə çaldığını o saatca duyub bildirən Səməd Vurğun, drijor və musiqiçiləri heyran etdi. Yazdığım mahnılardan birinin doğurdan da nəinki səhnədə göstərilən hadisə xarakterinə uyğun olmadığını, hətta ümumiyyətlə zəif olduğunu mənə asanlıqla sübut etdi.

- Məncə bunu "şur" kökündə yox," segah" kökündə bəstələmiş olsa idin, daha artıq müvəffəq olardın- dedi. O, tamamailə haqlı idi.""

Səməd Vurğunun həyat və yaradıcılığı haqqında bir qədər məlumatı olan hər kəs bilir ki, Azərbaycanın görkəmli ədibi, yazıçı, şair, publisist, pedaqoq Abdulla Şaiqlə Səməd Vurğun bacanaq idi. Bu iki ailə arasında çox isti münasibət var idi. Hər iki ailənin üzvləri müxtəlif ailə və dost tədbirlərində tez -tez görüşür birgə məclislər təşkil edirdilər. Təbii ki, bu tədbirlərdə Abdulla Şaiqin oğlu, görkəmli ədəbiyyatşünas alim, Kamal Talıbzadə də iştirak edirdi və bu mənada Səməd Vurğunu yaxından tanıyan, onunla yaxın qohum və dost olan professor Kamal Talıbzadənin xatirələri çox maraqlıdır: "Səməd Vurğun professional, peşəkar musiqiçilər qədər klassik musiqini, xalq musiqisini bilirdi...musiqi alətlərinin çoxunda çalırdı. Saz, tar, skripka, kamança, qarmon, piano, tütək. Səmədin musiqi alətlərindəki ifalarının oyatdığı mənəvi zövqü, ləzzəti təsəvvür etmək üçün ancaq şairin özünü dinləmək lazımdır. Dəfələrlə onun sazı sinəsinə sıxıb aşıqsayağı aşıq mahnılarını çalıb oxumasını, pianonun arxasına keçib asta-asta məlahətlə muğam çalmasını eşitmişəm... tarı xüsusi məharətlə çalırdı. Onun sədəfə bürünmüş, gur aydın səsi olan tarı vardı."

**Bu yazıda qeyd olunduğu kimi hələ lap uşaqlıqdan Səməd Vurğunun məlahətli səsi, gözəl saz və skripkada ifa etməyi var idi. Lakin bir gerçəkliklə barışmaq lazımdır ki, hər tərəfli istedad sahibi olan bu insanda poeziya, şairlik musiqiyə üstün gəldi. Bununla belə O, övladlarını musiqi ilə böyütmək istəyirdi və elə bu səbədən də onların hər üçünə musiqi təhsili vermişdi. Yusif də, Aybəniz xanım da, Vaqif də Bülbül adına orta ixtisas musiqi məktəbini bitirmişdilər. Vaqif Səmədoğlu isə sonradan həm də Konservatoriyanı bitirmişdi və Konservatoriyanın professoru idi. Lakin ataları kimi Yusifin də, Vaqifin də sonralar bədii yaradıcılığı musiqi yaradıcılıqlarına üstün gəldi. Bununla belə həyat həm də qeyri-adiliklərlə zəngindir. Görünür böyük şairin böyük musiqiçi olmaq arzusunu gerçəkləşdirmək üçün zaman lazım imiş. Və nə yaxşı ki, həmin zaman yetişdi. Bir vaxtlar Səməd Vəkilov adlı Səməd Vurğun öz misilsiz poeziyası ilə Avropanı fəth edirdisə, bu gün onun nəticəsi , ev muzeyinə rəhbərlik edən və həm də şairin ad və soyadını daşıyan gənc pianoçu Vurğun Vəkilov Avropanı öz virtioz ifası ilə fəth edir.**

## *Şahbulaq qalası 3,5 milyon manata bərpa ediləcək*

**Ağdamın Şahbulaq kəndində yerləşən Şahbulaq qalasının bərpası üçün 3,5 milyon manat vəsait ayrılıb.**

Adalet.az xəbər verir ki, bu barədə Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzi "M-TND" MMC ilə bir mənbədən müqavilə imzalayıb.

Qalanın bərpası və qala ətrafında turizm infrastrukturunun yaradılması üçün şirkətə 3 milyon 530 min 196,47 manat ödəniş edilib. İşlərin dekabrda yekunlaşması nəzərdə tutulur.

Qeyd edək ki, "M-TND" MMC 2010-cu ildə dövlət qeydiyyatına alınıb. Nizamnamə kapitalı 100 manat olan şirkətin qanuni təmsilçisi Nazim Kəlbiyevdir.

## *Şeyx Əbdül: "Baba Vəziroğluyla heç bir problemim yoxdur"*

**Xəbər verdiyimiz kimi, bir müddətdir ki, səhhətindəki problemlərdən əziyyət çəkən Xalq artisti Şeyx Əbdül Mahmudbəyov bu gün yenidən müalicə aldığı xəstəxanaya qayıdıb.**

Bu haqda Adalet.az-a Şeyx Əbdül özü məlumat verib. O, səhhətinin getdikcə ağırlaşdığını bildirib:

"Səhhətim düzəlmir, bu gün xəstəxanaya qayıdıram. Getdikcə ağırlaşıram".

Şeyx Əbdül şair Baba Vəziroğlunun onunla bağlı mətbuata verdiyi açıqlamasına da münasibət bildirib:

"Nə olubsa onların tərəfindən olub. Mənim dostlarımla problemim yoxdur. Sadəcə olaraq kino haqqında fikirləşmişəm. İstəmişəm ki, kino cameəsi bir araya gəlsin və birləşsin. Bunlar buna niyə qısqanc yanaşdılar, onu bilmirəm. Mənim Baba Vəziroğluyla heç bir problemim yoxdur, qırx ilin dostuyuq, ailəvi, can-ciyər olmuşuq. O, mənə dəyməyə əvvəl bir dost, sonra isə ittifaqın katibi kimi gəlməli idi. O, ittifaqın bünövrəsini mən qoymuşam. Həmişə şəxsi ədavət üçün yox, kino cameəsinin birləşməsi üçün çalışmışam".

Şeyx Əbdül Xalq artisti Şəfiqə Məmmədova ilə bağlı isə bunları deyib:

"Mənə qəribə gələn Şəfiqə xanımla olan məsələdir. Əvvəla Şəfiqə xanımla biz tələbə yoldaşı olmuşuq. İttifaqda ona hücum olunan zaman onu məndən başqa heç kim müdafiə etməyib. O, gün isə Şəfiqə xanıma jurnalistlər deyirlər ki, Şeyx Əbdül xəstəxanadadır. O, da cavabında deyir ki, mən xəstəxanada olanda Şeyx Əbdül mənə dəyməyə gəlməyib. Bunlar hər şeyi şəxsi müstəvidə fikirləşirlər. Şəfiqə xanımın ittifaqın ikinci katibi kimi vəzifə borcu idi ki, məni axtarsın, xəstəxanada baş çəksin. Buna görə ondan incimirəm, Allah işin avand eləsin, xəstələnməsin. Xəstələnsə, ona dəyməyə gələcəm".

**Qeyd edək ki, şair Baba Vəziroğlu mətbuata açıqlamasında illər əvvəl Şeyx Əbdülün onun ünvanına səsləndirdiyi ittihamlara baxmayaraq ona baş çəkəcəyini bildirib.**

**Vasif ƏLİHÜSEYN**



# Şah İsmayıl Xətai – Turan şahıdır

## Möhtəşəm 44 gün Azərbaycanın Şah İsmayıl Səfəvinin ruhuna ən böyük hədiyyəsidir

***Rafiq ƏLƏKBƏR***
***Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının fəxri doktoru***

**Son zamanlar sosial şəbəkələrdə və "Youtube" kanalında məni bir məsələ bərk narahat edir. Belə ki, Azərbaycanın ən böyük tarixi şəxsiyyətlərindən biri olan Şah İsmayıl Xətai barədə hədyan fikirlər səsləndirilir və maraqlıdır ki, belə sərsəm fikirlərə önəm verənlərin sayı getgedə çoxalır. Onların arasında özlərini tarixçi alim adlandıranlar (onların alim olmasına şübhə ilə yanaşmaq üçün əsaslar olur), özlərini dırnaqarası din xadimi adlandıranlar (buna da şübhə edirsən, çünki din xadiminin üzündə az da olsa nur olmalıdır) daha çoxdur. Lakin bir şeyə şübhə etmirsən, onları kimlərsə danışdırır...**

Kiçik bir ölkədə axı nə qədər kənar qüvvə olar?

Xətaiyə daş atanlar Azərbaycanın tarixinə xəncər vuranlardır. Onların Şah Xətaiyə atdıqları qarayaxmalar əsasən bunlardır: Xətai onu öldürüb, bunu öldürüb, sünniləri zorla şiələşdirib, Sultan Səlimlə əsassız müharibəyə gedib və uduzub. Bu səslənənlər bəsit təfəkkürlərin məhsulu deyilmi?

Mən bu cür əsassız danışanlara, xaos və qarşıdurma yaradanlara üzümü tutub deyirəm: Orta əsrlərdə mövcud olan hansı dövlət müharibə etməyib? Yaxud ona etiraz edən bölgələri öz hakimiyyətinə tabe etməyib, üsyanlar yatırmayıb, işğal etdikləri ərazilərdə qənimət toplamayıb, başlar kəsməyib və s.? Bunlar o dövrün müharibə qanunları və yaşam qanunlarının əsasları olub. Şahlar taxt-tac uğrunda iddialı olan qohum-əqrəbasını öldürür, oğulların gözünü çıxarır, bir qardaş o biri qardaşla taxt-tac uğrunda müharibə aparır, qətliamlar törədir. Bu göstərilənlər orta əsrlərdə bütün şahlara aid olan feodal üsuli-idarəsinə xas olan xüsusiyyətlər olub. Xətaiyə gələndə isə məzəmmət edirsiniz ki, Şirvan və Bakını işğal etdikdə orada qətliamlar törətmişdir. Hər bir halda Xətai o dövrdə nə sosial-demokrat, nə də kommunizm ideyalarının daşıyıcısı olan dövlətin başçısı deyildi, kommunizm dövləti yaratmağı da qarşısına məqsəd qoymamışdı. Amma nəzərə alın ki, kommunizm nəzəriyyəsinin banisi Karl Marks yalnız Şah İsmayıl Xətainin böyük fatehliyi haqqında müsbət fikirlər yazmış, demişdir: "Əgər Yaradan dünyaya bir general göndəribsə, heç şübhəsiz ki, bu, Şah İsmayıldır! Nə Napoleon, nə Sezar, nə Atilla, nə Çingiz, nə də digərləri onun kimi hərbçi, savaşçı deyildi. Çünki bu qızılbaş şahı 14 ildə 14 ölkəni, 357 şəhəri fəth etdi və ordunun önündə savaşaraq cahanda iz buraxdı!"

Qaragüruh qüvvələrin rəğbət bəslədiyi Lenin-Stalin cütlüyünün yaratdığı kommunist dövləti terror, qətliamlar və digər səbəblərdən 60 milyon insanın ölümünə səbəb oldular. Hələ mən başqa faciələri demirəm. İyirminci əsrdə onların törətdikləri qətliamlar on beşinci əsrdə mövcud olan qətliamlardan öz rəzilliyi, qəddarlığı və alçaqlığı ilə qat-qat dəhşətli olmuşdur.

500 ildən çoxdur ki, Türkiyədə, İranda, bizim Azərbaycanda müəyyən qüvvələr (əslində sifarişlə) Xətaiyə daş atır, onu aşağılamağa çalışırlar. Ancaq nə qədər daş atsalar da, o daşlar qayıdıb onların öz başlarına dəyir. Çünki Xətaini Allah özü seçmişdi və kimsə onu alçalda bilməz...

Türkiyədəki anti-Xətai qüvvələrin uydurmaları ondan ibarətdir - Xətai İslam xilafətinə sahib olmaq üçün Sultan Səlimi müharibəyə sövq etmişdir. Özünü tarixçi adlandıranlara üzümü tutub deyirəm: Nəyə görə Sultan Səlimlə Şah İsmayılın Çaldıran döyüşündən əvvəl yazışmalarını xalqa açıb göstərmirsiniz? Əslində, o yazışmalar Xətaiyə atılan çamurların ifşası üçün bəs edərdi...

Həmin yazışmalarda Sultan Səlim israrla Xətaini müharibəyə cəlb etmək üçün hər cür təhqirlərə əl atır. Xətai nə qədər çalışsa da qardaş qırğınına yol verməmək üçün Sultan Səlimi başa sala bilmir. O, yaxşı bilirdi ki, Sultan Səlimi bu müharibəyə Avropa dövlətləri və Vatikan sövq edir. Hətta o ölkələr Sultan Səlimin ordusunu kifayət qədər silahla təchiz etmişdilər. Sultan Səlim Xətaini qorxaq adlandırandan və digər həqarətli ifadələr işlətdikdən sonra o, Sultan Səlimə qarşı müharibəyə getmişdir. Əks halda həmin dövrdə dünyanın ən şərəfli hökmdarı titulunu itirə bilərdi. Əslində bu müharibə Sultan Səlimin, Avropa dövlətlərinin və Vatikanın Xətainin Turan imperiyasına qarşı Səlib yürüşü idi. Xətai bu yürüşün qarşısını mərdliklə aldı. Xətai o dövrün müharibə qanunlarını pozsaydı, həmişə olduğu kimi, özünü şərəfli aparmasaydı, Sultan Səlim ordusunu asanlıqla məğlub edə bilərdi. Lakin böyük Xətainin böyük şərəfi buna yol verə bilməzdi. Sultan Səlimin ordusunun sərkərdələrinin iki dəfə çox olmasını, orduda odlu silahların olmasını səbəb göstərib Xətaiyə Sultan Səlim ordusuna qəfildən hücum etməyi tövsiyə edirdilər. Lakin Xətai buna razı olmadı və razı ola bilməzdi. Çünki o, böyük türk oğlu, əsl Azərbaycanlı idi.

Hələ onu demirəm ki, Sultan Səlim o dövrün bütün əxlaqi dəyərlərini pozaraq Şah İsmayılın hətta elçilərini belə edam etdirdiyi halda, böyük türk-azərbaycanlı Şah İsmayıl Xətai belə ucuzluğa heç vaxt getmədi və getməzdi də. Sultan Səlimin hakimiyyətə gəlməsi də qanunsuz olmuşdur. O, hakimiyyətə qətliamlarla gəlmişdir. O, sultan olmaq üçün taxtda oturan atasına qarşı silahlı üsyanlar qaldırmış və ya müharibələr aparmış, bu üsyanlarda yaxın qohum-əqrəbalarına belə rəhm etməmişdir. Son nəticədə o, qardaşlarını da öldürərək sultanlıq kürsüsünə oturmuşdur. Atası II Bəyazid bunun əleyhinə olsa da xilafətin xilası naminə razılaşmağa məcbur olmuş, lakin Sultan Səlim onun mövqeyini bağışlamayaraq həyatdan yox edilməsinə rəvac vermişdir.

Bəzi tarixçilər Çaldıran döyüşünü tarixdə ən böyük qardaş qırğını adlandırırlar. Buna mən də razıyam. Lakin bu qardaş qırğınını kim törətmişdir. Qardaşlarına qarşı qətliamlar və ya qırğınlar törədərək hakimiyyətə gələn Sultan Səlim, yoxsa Xətai?

Deməli, qardaş qırğınları Sultan Səlim üçün adi hal idi, Çaldıran müharibəsi bu qardaş qırğınının daha geniş bir fazada ifadə olunmasını təsdiqləyirdi. Xətainin hər addımını pafosla tədqiqat predmetinə çevirənlər niyə bunlara qarşı bəsirət gözlərini yumurlar? Əgər o gözlər onlarda varsa

Hesab edək ki, Sultan Səlim Xətainin Anadoluda şiəliyi yaymasından qorxub onu müharibəyə cəlb etdi, bəs onda sünni Nadir şahı niyə aradan götürdülər? Hansı ki, ortaq bir təriqət məzhəbini də xilafət sultanlarına o təklif etmişdi.

İranda isə Xətaini ona görə sevmirlər ki, o, mifik Turan şahı Əfrasiyabdan min il sonra İran adlanan coğrafiyada hakimiyyəti farslardan türklərin əlinə keçirdi və real Turan şahı oldu, 400 ildən çox bu hakimiyyət türklərin əlində qaldı. Fars şovinizmi heç vaxt bunu həzm etməyib və etməyəcək. Ona görə İranda Xətainin adının əbədiləşdirilməsi üçün dövlət heç zaman təşəbbüs göstərməmişdir. Lakin fars hökmdarlarının xatirəsinin əbədiləşdirilməsinə İran şovinizmi külli miqdarda vəsait ayırır. Bu gün İranda nəyə görə türklərə qarşı mənəvi soyqırım həyat keçirilir? Səbəb isə sadədir, türklərin onları min illər idarə etməsi fars şovinizmində bir natamamlıq kompleksi yaratmışdır.

Azərbaycanda Xətai əleyhinə olan qüvvələr bir neçə qismə bölünürlər. Bir qisim o təfəkkürdən çıxış edirlər ki, guya Xətai Azərbaycanda zorla şiələşmə kampaniyası aparmışdır. Olduqca bəsit yanaşmadır. Əvvəla, Xətaidən əvvəl də Azərbaycanın bir sıra bölgələrində şiə təriqətinə mənsub olan şəxslər say çoxluğu ilə kompakt şəklində yaşamışlar. Əgər belədirsə, onda Xətai niyə Azərbaycanın şimal-şərq və şimal-qərb bölgələrini şiələşdirmədi? Bu fakt onlara ən tutarlı cavab deyilmi?

Xətai az qüvvə ilə Şirvan və Bakıya yürüş edərək, bu əraziləri öz hakimiyyətinə tabe edib bu bölgələrdə hökmdarlıq edən ərəbləri və farsları məhv etdikdən və babalarına qarşı



edilmiş vəhşiliyin qisasını aldıqdan sonra tərəfdarları ilə 6 aya qədər Qəbələ və İsmayıllı bölgəsində düşərgə salmışdır. Qəbələnin Həzrə kəndində Xətainin müridlərinin qəbirləri var. Bundan başqa, Xətai özünü şah elan etdikdən sonra hər il Azərbaycanın şimal rayonlarına ova gəlmiş, günlərlə burada ov etmişdir. Yenə sual olunur: Bu anlarda Azərbaycanın şimal rayonları niyə şiələşmədi? Deməli, Xətainin guya hər yerdə əhalini zorla şiələşdirməsi barədə söylənilənlər cəfəngiyyatdan başqa bir şey deyil.

Şah İsmayıl Xətainin dini ideologiyası İslam sivilizasiyasının ali dəyərlərini özündə ehtiva edirdi. Hansı ki, bunun əsasında İslam dininin yaradıcısı olan Peyğəmbərə və Əhli-beytə yüksək ehtiram dayanırdı. Həmişə Azərbaycanda hakim olmuş və dünyaya yayılmış hürufilik və sufizm dünyagörüşünün dini mahiyyəti Turan imperiyalarının qurulması uğrunda mübarizələrdə ideologiyanın üst qatı kimi çıxış edirdi. Tanrını dərk etməkdə bu müdrik inanc təvəkkülləri kütlələrin dini inanclarını daha da şövqləndirirdi, eyni zamanda bu inanclar əski türk inanclarını, o cümlədən Tək Tanrıya, Göy Tanrıya inamın da izlərini özündə əks etdirirdi.

Turançılıq Tanrıçılıqdır, Xətainin dini dünyagörüşünün üst qatında məhz bu dayanırdı. Bəlkə buna görədir ki, Səfəvilər dövlətinin bir sıra dövlət atributları, geyimləri əski türk ideologiyalarının və türk dövlətlərinin atributları və geyimləri ilə oxşarlıq təşkil edir. Burada bir amili nəzərə almaq lazımdır; Xətaiyə və onun yaratdığı Səfəvi dövlətinə qiymət verərkən dini dünyagörüşü yox, Turançılığı ön plana çıxarmaq lazımdır. Bu zaman şüurlarda paslanmış qərəzli yanaşmalara son qoyula bilər.

Bir qisim qüvvələrin Xətaiyə qarşı qarayaxmalarının əsasını guya bu təşkil edir ki, Şah İsmayıl Xətainin şiə ideologiyası bu gün İranda hakimiyyətdə olan teokratik rejimin və fars şovinizminin siyasi alətinə çevrilmişdir. Bu gün İranın din və İslam pərdəsi altında etdiklərinin Xətaiyə heç bir dəxli yoxdur. Xətainin dini ideologiyası, yuxarıda dediyim kimi, İslam sivilizasiyasının bir hissəsi idi.

Şah İsmayıl Səfəvi barədə sosial şəbəkələrdə, xüsusilə, Türkiyə seqmentlərində belə bir qarayaxma kampaniyası aparılır ki, guya Şah İsmayılın ulu əcdadlarından hansısa biri kürd olmuşdur. Bu, tamamilə cəfəng bir fərziyyədir. Şah İsmayılın boya-başa çatdığı Ərdəbil mahalında heç vaxt kürdlər yaşamayıb, bu mahalda həmişə etnik cəhətdən ancaq türklər yaşamışlar.

Digər tərəfdən, hər bir dövrdə hökmdarların həyatı qarışıq nikahlarla zəngin olmuşdur. Bu amil də dövlətlərin təhlükəsizliyi məsələsində mühüm rol oynamışdır.

Tutalım ki, Şah İsmayılın hansısa əcdadının kürdlərlə qan qohumluğu olub, bunun Xətainin yaratdığı Böyük Turan İmperiyasına nə dəxli var?

Belə hallara qalanda rus imperiyalarının başında tatar və alman mənşəli şəxslər olmuşlar. Heç kəs onları nə tatar, nə də alman adlandırmır. Hamı onlara rus deyir, imperiyanı da rus imperiyası adlandırır. Bu qaragüruh qüvvələr Xətaini niyə bu qədər qaralayırlar?

Bunun bir səbəbi var: Şah İsmayıl orta əsrlərdə Azərbaycan türklərinin ən böyük imperiyasını - Səfəvi-Turan imperiyasını yaratmışdır. Bu imperiyada Azərbaycan ənənələri mütləq hakim idi, ictimai həyatı azərbaycanlılar müəyyən edirdi. İmperiyanın ərazisi iki milyon kvadrat kilometrdən çox olmuşdur. İmperialist dünyası və Azərbaycana əks olan qüvvələr bu dövlətin belə bir qüdrətli və öz dövrünün ən ədalətli imperiyası olmasını həzm edə bilmirlər. Həm də ondan narahatdırlar ki, günlərin bir günü Azərbaycan öz tarixi ənənələrindən çıxış edib bu ərazilərdə Azərbaycan dövlətçiliyinin bərpası üçün haqlı iddiasını ortaya qoya bilər.

Mən bir məqama da toxunmaq istəyirəm; milli və mənəvi dəyərlərə, tarixi şəxsiyyətlərə hörmət, onları həmişə ucada saxlamaq milli şüurun, milli təəssübkeşliyin tərkib hissəsidir.

Qonşu ölkələr bu sahədə bizdən çox qabaqdadır. Onlar öz tayqulağını da, nasistini də, generalını da, marşalını da hansı düşərgələrdə olmasından asılı olmayaraq, millət üçün etdiklərini göz önünə gətirib, həmişə yüksəkdə saxlayırlar, xatirələrinin əziz tutulmasında yekdillik nümayiş etdirirlər. Bizim isə ali dəyərlərimiz olan böyük tarixi şəxsiyyətlərimizə qarşı nəinki xaricdən, hətta daxildən kənar qüvvələr olduqca idbar şəkildə və həyasızcasına, hansısa şəxsi maraqlar və ya kimlərinsə sifarişi ilə iftiralar, hədyanlar söyləyir, özü də bunu çox rahatlıqla edirlər... Təəssüf doğurur ki, onlara qarşı ciddi bir ictimai mövqe sərgilənmir, sanki boş qalmış meydanda onlar asanlıqla top qovurlar. Bundan başqa, hüquqi cəhətdən onlara qarşı mübarizə aparmaq üçün qanunvericilikdə müvafiq hüquqi normaların azlığı və ya ümumiyyətlə olmaması məsələnin başqa tərəfi kimi də aktuallığını saxlayır. Hətta qonşu Rusiya bu sahədə bizdən öndədir.

Rusiyanın və digər qonşularımızın cinayət qanunvericiliyində milli dəyərlərə və millətin tarixi şəxsiyyətlərinə qarşı təhqiredici ifadələr işlədənlərə qarşı müvafiq normalar mövcuddur. Belə faktlardan biri kimi azərbaycanlı jurnalistin guya Jukovu təhqir etməsinə görə cinayət məsuliyyətinə cəlb edilməsini göstərmək olar.

İrkutskda azərbaycanlı deputatın vaxtilə bu bölgələrdə özbəklərin də yaşaması barədə bir tarixi fərziyyəni dilinə gətirməsindən sonra ona qarşı yönələn hücumların bu yaxınlarda şahidi olmadıqmı?

Azərbaycanda isə informasiya azadlığından istifadə edərək, bu torpağın çörəyini yeyənlər bizim tarixi şəxsiyyətlərimizi həqarət və təhqir edirlər. Lakin onlara qarşı hər hansı bir cəza mexanizmi və ya yekdil ictimai qınaq işə düşmür. Məsələn, özünü din xadimi adlandıran birinə kim o cəsarəti verib ki, Şah İsmayıl haqqında həqarətli sözlər işlədir və o, hətta cəzasızlıq mühitindən bolluca yararlanır, bu isə digər qaragüruh qüvvələrə imkan verir ki, eyni yolu yenidən təkrar etsinlər, çünki bilirlər ki, cəzalanmayacaqlar.

Hesab edirəm ki, bu cür əməllərə qarşı hüquqi cəhətdən mübarizə aparmaq üçün Cinayət Məcəlləsində müvafiq normalara ehtiyac var.

Şah İsmayıl Səfəvi barəsində həqarətə görə Cinayət Məcəlləsində, hesab edirəm ki, hətta xüsusi norma zəruridir. Çünki Xətai Azərbaycan dövləti deməkdir. Dövlətimiz bu böyük oğlunun xatirəsini həmişə əziz tutmuşdur. Azərbaycanın hər guşəsində bu böyük şəxsiyyətin adına küçələr, prospektlər, parklar var. Bakının ən böyük rayonlarından biri bu ulu şəxsiyyətin adını daşıyır. Xətaiyə qarşı çıxanlar dövlətə və dövlət siyasətinə qarşı çıxanlardır, belə hallarda onlar qanun qarşısında cavab verməlidirlər, necə ki, Türkiyədə Mustafa Kamal Atatürkü təhqir edənlərə qarşı xüsusi norma əsasında ciddi bir cəza mexanizmi işə salınır. Bununla bağlı onu vurğulamaq istəyirəm ki, qonşularımız hətta onlara aid olmayan şəxsiyyətləri öz adlarına çıxmaq üçün gecə-gündüz təbliğat aparırlar. Artıq erməni seqmentləri Stalinin də erməni olması barədə yalanlar uydururlar. Biz isə halal canlı tarixi şəxsiyyətlərimizi digər millətlərin ayağına yazırıq.

İran prezidenti bəyanat verir ki, mənim atam da, anam da türk, azərbaycanlıdır, lakin istər bizdə, istərsə də xaricdə, ən çox Ermənistanda haray-həşir qopardırlar ki, Pezeşkian özü haqqında düz demir, o, kürddür, erməni seqmentləri daha irəli gedərək qışqırdılar ki, əgər Pezeşkian türkdürsə, niyə onun soyadının sonluğu "yan" ilə qurtarır, "yan"dırsa, deməli ermənidir, ya da ermənilərdən dönmüş iranlı atrobatdır. Bizim içimizdəki qaragüruh qüvvələr də ermənilərin dəyirmanına necə də yaxşı su tökməyi bacarırlar...

Onsuz da ermənilər bizdən çox şey oğurlamışlar, musiqimizi, adətlərimizi, mətbəximizi, tarixi abidələrimizi, - bu sıralamanı daha da artırmaq olar. Ermənilər Qafqaza köçürüldüyü tarixdən belə etmişlər, həmişə də belə olacaq, çünki bu, onların xislətindən və özlərinin heç nəyinin olmamasından irəli gəlir. Hələ müharibə illərində bir erməni dığası Üzeyir Hacıbəyovun dahiyanə əsəri olan "Arşın mal alan"ı oğurlamışdı. Lakin Üzeyir Hacıbəyov yenidən "Arşın mal alan"ı Azərbaycana qaytarmağı bacardı. "Qarabağ" futbol klubu Avropada uğurlar qazananda seqmentlərdə ermənilər onun Ermənistan komandası olması kimi feyk xəbərlər yayırdılar. Belə getsə, ermənilər tarixi şəxsiyyətlərimizi, qəhrəmanlarımızı öz adlarına çıxacaqlar. Çünki buna öz biganəliyimiz, laqeydliyimiz rəvac verir.

**Bununla belə, bu yazımı bədbin tonlarla bitirmək istəməzdim. Bu gün biz Xətainin arzularının çin olduğu bir dövrdə yaşayırıq. Xətainin bizə vəsiyyət etdiyi torpaqlarımız bərpa edilir. Möhtəşəm 44 gün Azərbaycan Dövlətinin, Azərbaycan Prezidentinin və Xalqının ulu sərkərdəmiz Şah İsmayıl Səfəvinin ruhuna ən böyük hədiyyəsidir.**

# MƏNİM TANIDIĞIM QOCA XALİD



Qəşəm İsabəyli

**Dünən 21.41-də Vatsapıma Şəkili şair dostum Elbrus Mikayıldan xəbər gəldi: "Salam, axşamınız xeyir, mən də indicə eşitdim,böyük bir bədbəxtlik üz verdi - QOCA XALİD RƏHMƏTƏ GETDİ."**

**Ağır xəstə və ümidsiz halda olduğunu bilsəm də bu acı xəbər mənə pis təsir elədi. Hətta bu səhər yuxudan ayılanda bu xəbər gözümün qabağına gəldi... elə bildim yanlış məlumatdı. Azca huşum özümə qayıdanda dedim, kaş yalan olaydı. Amma yalan deyilmiş...**

**Yadımdadı, bir neçə həftə Fb-də şəklini görəndə, dostlarının ona şəfa dilədiyini oxuyub, götürüb zəng elədim Qocaya. Telefonu bağlıydı. Bir-iki saatdan sonra bir də zəng eləyəndə zəif, quyunun dibindən gəlirmiş kimi batıq səsini eşitdim: Salam, Qəşəm İsabəyli. Danışdıq... Amma doyumluq danışa bilmədik.**

**Artıq Qoca Xalid də oldu min ilin ölüsü! Ruhu şad olsun! Təbii ki, şeirləri və tərcümələri, inanıram ki, dilimizin ömrü qədər yaşadacaq onu! Vaxtilə Qoca haqqında yazdığım kiçik memuarı sizə təqdim edirəm. Bu yazıyla onu azca da olsa tanıyacaqsınız! Doğmalarına səbr arzlayır, başsağlığı verirəm!**

***

Haqdı "Qoca Xalid" deyirəm, dilim ki, "Namizəd Xalidoğlu"ya öyrəşib deyə, heç ləzzət eləmir mənə. Məndən olsaydı, şairin, yazıçının, istənilən qələm adamının hansı imzayla gəlibsə ədəbiyyata, elə o imzayla da qalması üçün, Milli Məclisdə də olmasa, lap elə Yazıçılar Birliyində qadağa qoyardım. Ad, imza qız deyil ki, gündə birini bəyənəsən. Elə mənim özümün də bir yığın imzam olub - "Qəşəm Mayıl", "Qəşəm İsazadə", indi də "Qəşəm İsabəyli"... Deyəsən, bu, daimidir. Necə deyərlər, keçmiş ola.

Əslində ad-soyad dəbi yaradıcılıqdan irəli gələn qəfil "qürrə"dən başqa bir şey deyil. Biriki şeirini ki, tərifləyirlər, çaşırsan - "Himalay dağlarını fəth eləyən bəlkə mənəm, xəbərim yoxdu?!".

Neyləyəsən?! Təzə tərifə gərək təzə ad götürəsən ki, köhnə, zəif şeirlərin ( guyya - Q.İ ) it-bata düşsün. Xalq da elə bilsin, sən əlinə qələm alandan elə yaxşı yaza-yaza gəlirsən...

Qeybətçil adamların sözü olmasın, "Qoca Xalid" deyirdim axı.

Hər dəfə ki, "Qoca" xəyalıma gəlir, yazlı, yaylı, payızlı, qışlı - dörd fəsilli bütöv bir il durur gözlərimin qabağında. Hətta hər fəsilin cızığından bir fəsil də kənara çıxan görürəm Qocanı. Bu, varlığı anlarla, dəqiqələrlə hesablanıb, şəxsən hesablaşmadığımız yaradıcılıq fəslidi. Bəlkə bunlardan bir qədər də uzağa gedir qələm dostumuz, day ondan xəbərim yoxdu.

Bəs nədir Qoca Xalidin...

Hər yaz Şəki Dəhnəsində başını belin sapı bərabəri əyib, yer belləyən, əkin əkən, su sulayan, alaq eləyən görərsən Qoca Xalidi.

Sonra da dəsmalını çıxarıb boyun-boğazının tərini silər, qabağında çay, kürəyi stolun söykənəcəyində, xəyalı uzaqlarda, gözü əkin-dirrikdə. Bəlkə də əkdiklərinin hesabını aparır. Şəkili olasan, torpağa elə-belə dən atasan... əstəqfürulla. Atdısa, dəməli bəhrəsini görəcək, inşallah! İnanıram ki, Qoca da yaz ağzı həyətə əkdiyi dirriyi, çölə səpdiyi



diriliyi - arpa-buğdanı vaxtından xeyli irəli biçib, yığıb, anbara da vurur.

Şairin yaz qayğılarının dalıyca yayı gəlir, payızı gəlir, qışı da üstəlik. Hər fəslin da bara-bəhərə çevirə bilmədiyi bir yığın günləri ni Qoca başlı-başına da buraxmır - söz eləyir, şeir eləyir, hansısa rusun dilini açır Azərbaycan türkcəsinə.

Günlərlə, həftələrlə, bəzən aylarla gözünə dəymirsə, deməli, Qocanın başı qarışıqdı - Dəhnədə qarışqa tədarükü görür.

Heç gözləmədiyin halda bir də baxırsan Bakıda boy göstərib. Çox keçmir qəzetlərə, jurnallara düşür. O an xəyalıma gəlir ki, qardaşımın səpdikləri bitib. Yoxsa bu arxayınlıqla "şəhərli" olmağa səbri çatmazdı.

Beləcə dəhnəli şairin paytaxt macəraları davam eləyir. Bir gün də, gözləmədiyimz halda növbəti "yoxluğ"u başlayır.

Qocayla baş-başa verdiyim günlər az olmayıb. Görkəmli şairimiz Fikrət Sadığın sözüylə demiş olsam "Əvvəli "Şir", axırı "Şir" "Şirvannəşr"də original şeirlərini, rus poeziyasından tərcümələrini nəşr etmişik. Arzularına, xəyallarına məhrəm olmuşam. İnandığım da olub. Elə inanmadığım, amma göz açıb gördüyüm "moskva"lı günlərini də görmüşəm.

Çoxdanın söhbətidir, Qoca Xalid Moskvada təhsil aldı, sabiq paytaxtımızda rusca kitabı işıq üzü gördü, arxası-dayağı, gücü olmayan - Allahın rəhmətinə qovuşan rus şairlərini Azərbaycan türkcəsində dindirməyə başladı.

Bir kənd adamının səmimi söhbətlərini gətirdi şeirimizə.Dostluq, yoldaşlıq, naşir-şair münasibətlərimizdə daha yaxından tanıyb-sevdim onu. Çoxlarına nəsib olmayan alicənablığını gördüm.

Mərhum tərcüməçi-naşir Adıgözəl Qəmbərov, deyərdi, bir dostumuzla restorana gedəndə, hesab kəsmək növbəsi ona ki, çatırdı, xörəkpaylayanla bir tatar cəncəli çıxarırdı... yəni, pulu az versin. Rəhmətliyin sözü olmasın, uzun naşirliyin dövründə, bəlaləri az düşməyib qismətimə.

Bir dostumun hər təzə kitabını nəşr eləyəndə iki dəfə pərt eləyərdi məni. Kitabının nübar nüsxəsini əlimə alan kimi, sevinclə zəng çalardım:-Təbrik edirəm, qardaş!

Bilə-bilə nəyi deyirəm, qəsdən özünü qoyardı bilməzliyə:- Nəyi?!

O dəqiqə köpüm yatırdı - həvəsdən düşürdüm:-Kitabını nəşr elədik!

Ha diqqətimi cəlb eləsəm də mənasını tuta bilmədiyim mızıltısını eşidərdim.

-Deyəsən, sevinmədin?! - Soruşardım.

Yenidən eyni ruhda dönərdi dili:

**-Həəə... - Bilməzdim bu, təsdiqdi, ya vərdiş elədiyimiz sözə başlanğıc... -Gəlib baxacam!**

Sonra da gələr, kitabı həvəssiz əlinə alar, o üzünə baxar, bu üzünə gözünü zilləyər, öyürərçöyürər...

**-Bu, niyə belədir... bu, belə olmamalıydı axı... deyəsən, rəngindən qırtmısan? - Sonra da bir tatar cəncəli çıxarardı...**

Qoca Xalidin rus şairlərindən elədiyi tərcümələri toplanmış kitabını nəşr eləmişdik. Onda ki, özümüzün mətbəəmiz yox idi. Adı "Qızıl Şərq"likdən dönüb "1 saylı mətbəə" olmuş məşhur çapxanayla işləyirdik. Bir gün də kitabının nübar nüsxəsini verdim Qocaya. Bərk sevindi. Təbii ki, mən də ondan geri qalmadım. Amma sevincim uzun sürmədi. Səhəri Qoca yanıma gəldi:

**-Qardaş, burda balaca bir səhv gedib?**

**-Nə səhv?! - Həyəcanlandım.**

**-Ha... ha... elə şey deyil. - Əlini uzatdı mənə. - Vur bura. - Bunu deyirəm, qardaş.**

Baxdım ki, bir kobud səhvdi. Gərək kitabın 16 səhifəsini cırıb, təzədən çap eləyək. Pərt oldum.

**-Niyə qanın qaraldı?!**

Fikrimi deyib, çətinliyi izah elədim:

**-Səhv bizimdi, bir şeir təkrar gedib, təzədən çap etməliyik.**

**-Qardaş, bax, bu vərəqi təzədən çap edə bilərsiniz?**

**-Əlbəttə.**

**-Vur bura, - sağ əlini açıb uzatdı qarşıma, - mən də onun sevincinə şərik oldum. - Həmin vərəqi yapışdırarıq o səhifənin üstünə, qurtarıb gedər.**

**-Axı yamaq kimi görünəcək. - Dedim.**

**-O, mənlikdi. - Dalıyca da şaqqıldayıb güldü. - Vur bura! - İki əlin bir-birinə zərbəsindən kompüter otağında qızlar bir anlıq susmalı oldu...**

Orijinal bir şair kimi, rus poetik havasını Azərbaycanın ədəbiyyatına gətirən ustad tərcüməçi kimi Qoca Xalidin əvəzsiz xidmətləri var.

Bir xidməti də alicənablığıdır.

# GƏNCƏDƏ BİR QƏRİB VARDI...



Barat Vüsal

**Gəncədə bir Qərib vardı.**

**Doğmalar doğmasıydı, qəriblər qəribiydi.**

**İlk dəfə özü axtarıb tapmışdı özünü.Taleyini səsləyirmiş kimi səslənmişdi:"Qərib hey!" deyə!**

Heç kim dərhal görən kimi tanımasa da (tanımaq istəməsə də!) böyük ruhsal insanlardan, sənətkarlardan biri olan Mir Cəlal o dəqiqə tanımışdı onu. Hekayələrini oxuyan kimi demişdi: "Qəribi qoruyun!"

Gəncədə bir Qərib vardı.

Kimsə var-dövlətini, pulunu (lap elə qır-qızılını!) gizlədəndə o, böyüklüyünü, ustadlığını gizlədirdi.

Cismən Gəncədə yaşasa da,ruhən Nizami Məqbərəsinin qonşuluğunda yaşayırdı. Sənət və sənətkar Akademiyasının üzvləri sırasında qərar tutmuşdu.

Özü də gənc yaşlarından, ilk yaradıcılıq vaxtlarından...

Əsərləri dünyanın 18 dilinə tərcümə edilmişdi. Mən onu Azərbaycanın Markesi adlandırmışdım. Markesin də qonşuluğunda yaşamağa layiq sənətkardı.



Deyirlər ki, göylərdə hərənin bir ulduzu var. İnsan öldümü o ulduz göy üzündən axar.

Bu yaxınlarda o ulduzlardan biri də axdı...

Gəncə göyündən!

Nizami Məqbərəsinin "böyründən"

Qərib Mehdinin ulduzuydu.

Biz bir daha gördük ki, "Axıb gedən meteroit Göy cisimlərinin ən şərəflisidir." (Ş.Şührəverdi)

Qərib Mehdi təkcə Skripkanın Mi simi "adlı əsəri"n də müəllifi deyildi.

Özü də həmin Mi simiydi.

Və o sim də qırıldı...

***

XI əsr Azərbaycan şairi Mənsur Təbrizi yazırdı ki, "Qələm öz ucu ilə nə qədər qəddar düşmənləri məhv etmişdir. Həm də düşmənin qanını tökməklə yox, öz qanını axıtmaqla."

Ustad Qərib Mehdi belə bir qələm sahibiydi. Onun da qələmi daha çox özünün qanını axıtmaqla məşğuldu.

Azərbaycanın Markesi özgə nə cür ola bilərdi ki?!

Başqa qanlar tökülməsin deyə o da öz qanını töküb getdi.

Beləcə, böyük bir sənətkar daAzərbaycanın Markesi də öldü.

***

Mən Qərib Mehdidən çox şey öyrəndim.

Sənətkarlıq öyrəndim.

Bir şagird öz müəllimindən nələr öyrənə bilərdisə onları öyrəndim.

Şirninin içinə necə acı həb qatmağı öyrəndim.

Şirninin içinə acı həbi elə qatırdı ki, o da şirin dadıyırdı...

Nizami deyirdi ki, xalqı ayağa qaldıran bircə Sözdür.

O Sözü öyrəndim, Sözlə güclü manevr etmə bacarığını da !

***

Ustadın "Ölmərəm" adlı şeirim haqda yazdığı essesində ölümü ürəyinə dammışdı, yazmışdı:

***"Şaham, fərman verirəm,***
***Dərdə dərman verirəm.***
***Söz haqqı, can verirəm***
***Söz haqqı, ölmərəm mən!"***

"Söz haqqı!", "Saz haqqı!"

"Əzizim Barat, bu nə anddır, nə qəsəmdir ki, Sən içirsən? Heyrətlənməklə bərabər, həm də düz eyləyib sözə, saza and içirsən.

...Türk qopuzun -Sazın ruhundan yaranıb.Türk harda varsa, saz orda var. Saz harda varsa Türk orda var. Saz şaxələnərək, vəzifələnərək türkün bütün varlığına hopub. Və buna görə də o böyüyüb, böyüyüb and içilmək haqqı qazanıb. Və ondan Allah səviyyəsində möcüzələr umulur.

Barat, sən bu and içməklə məni vəziyyətdən qurtardın. "Geriyə baxmaq olar" povestimdə nəvə nənəni suallar selinə tutur: "Nənə, yer nə deyir?" "Nənə, göy nə deyir?" "Bulud nə deyir?" Nənə suallların hamısına hövsələ ilə cavab verir.

Bu əsnada Saz səsi eşidilir. Nəvə bu fürsəti də əldən verməyib soruşur: "Nənə, Saz nə deyir?"

Nənə xeyli fikirə getdikdən sonra fəlsəfi bir cavab verir: "Mənim balam, Saz deyir ki, insan doğulur, insan yaşayır, insan ölür".

Bu cavabdan xeyli kədərlənən nəvə nənəsinə yalvarır: "Nənə, Saza de, qoy insan ölməsin!"

Nəvənin inamla qüssənin qarışığı olan bu xahişində saz Allahlaşır. Allaha və Allahlaşan hər bir varlığa and içmək təbiidir.

Orası var ki, and içəndən nicat da umulur.

Barat Vüsal da "Saz haqqı, ölmərəm mən" deyəndə bizi bu möcüzəyə inandırır. Elə inandığımız üçün də deyirik: "Barat Vüsal, sən ölmə ki, biz də ölməyək!"

***

...Qazaxlar (qazaxıstanlılar) özlərini nişan verəndə belə deyərmişlər:

"Qazaxımı soruşursan?! Odur, bax, dombranın qolunda!"

İndi ustadımız Qərib Mehdini soruşanlara ölməzliyini, belə deyilməsini istərdim:

"Qəribimi soruşursan?! Odur, bax, "Skripkanın Mi simi"ndədir!

Yox, yox, daha doğrusu, Sazın qolundadır!"

***P.S. Gəncədə bir Qərib (qəribmi?!) vardı.***
***Hamının doğmasıydı?!***



**Vaqif Yusifli**
**Filologiya elmləri doktoru**

# Poeziyamızın Nəriman günü

## (Xalq şairi Nəriman Həsənzadənin 95 yaşı tamam oldu)

**Bu yaxınlarda Xalq şairi Nəriman Həsənzadə xəstəxanadan evinə döndü. Ona rahatlıq, dinclik, istirahət lazım idi. Amma o, makinanın arxasına keçdi. Ürəyi dolu idi.**

Bu il fevral ayının 18-də poeziyamızın Nərimanı 95 yaşına çatır... Mən də böyük şairimizə qısaca da olsa ürək sözlərimi çatdırıram.

*Şeir yazdığım gün məğrur oluram,*
*ilham ki,*
*xəfifcə sinəmə dolur;*
*bir şeh damlasıtək*
*büllur oluram*
*dünya dünyada yox, məndə əks olur.*

Bu misralar böyük Azərbaycan şairi Nəriman Həsənzadənindir. Mən onun daimi oxucularından və həm də tədqiqatçılarından biriyəm. Amma mən nə oxucu, nə də tədqiqatçı kimi Nəriman Həsənzadəni hələ də oxuyub qurtara bilmirəm. Onun şeirləri illər keçəndən sonra da məndə təzə bir ovqat yaradır. Fikirləşirəm ki: "Nəriman Həsənzadə bu şeiri lap indicə yazıb". Alman mütəfəkkiri Höte demişdir: "Mən nə kimi oxucu istəyirəm? Elə oxucu istəyirəm ki, məni, özünü və bütün aləmi unutsun və ancaq mənim kitabımla yaşasın".

Şairlərin adları qarşısında belə ifadələrlə tez-tez qarşılaşırıq; "lirik şair", "vətənpərvər şair", "yurdçu şair, "sevgi şairi", "təbiət şairi". Əlbəttə, belə bir bölgü və bu prinsir çox zaman özünü doğrultmur. Nəriman Həsənzadəyə gəldikdə, o, bütün bunları öz şair varlığında yaşadır. Şair üçün təbiətin gözəlliklərindən yazmaq, poetik boyalarla, sözün rəngləriylə tablolar çəkmək, yaxud Vətəninin, xalqının azadlığı, müstəqilliyi barədə düşüncələrini ifadə etmək, sevdiyi xanımına şeirlər həsr etmək bütün bunlar onun şairlik missiyasına aiddir. Amma qayıdıram "lirik şair" ifadəsinə. Nəriman Həsənzadə elə ilk şeirndən bu günə qədər lirik şairdir. O, hətta dram əsərlərində də, publisistikasında da lirikdir. Nəriman Həsənzadə səninlə görüşəndə də,hər hansı bir tədbirdə çıxış edəndə də, telefon danışığında da, onlarla adamın əhatəsində olanda da lirikdir. 63 il öncə ustad Mir Cəlal müəllim görün nə demişdi: "Nəriman olduqca həssas bir şairdir. O, bir qartalın uçuşunda, bir lalənin duruşunda, bir körpənin baxışında bütün kainatı, ictimai aləmi və məna dolu həyatımızı görmək istəyir". Nəriman Həsənzadə bir xatirəsində Moskvada, Nazim Hikmətlə görüşlərindən söz açır. O, Xəlil Rza ilə tez-tez Nazim Hikmətin görüşünə gedərdi. "Xəlillə ədəbi mübahisəmiz olardı. Şeiri necə yazmaq lazımdı? O deyirdi Mayakovski ruhunda, qışqıra-qışqıra, yumruğunu stola döyə-döyə. Mən bunun əksinə deyirdim. Nazim Hikmətin yanına getdik. Şərt qoyduq ki, fikrimizi əvvəlcə bildirməyək. Elə də oldu. Amma Nazim Hikmət Xəlilin fikrini müdafiə etməyəndə, o, Nazimin "Kərəm kimi" şeirini misal gətirdi, bu şeir qışqırıqdır,- dedi. Nazim Hikmət Xəlilin qəlbinə dəymədi, dedi: "Övlad anası ilə necə danışırsa, şeir də elə yazılmalıdır. Pıçıltı ilə, sakit, həzin. Heç kəs anası ilə qışqıraqışqıra danışmaz".

Və bütün bunlardan sonra Nəriman müəllimin özünə söz verək: "Şeir mənim aləmimdə bütöv bir kainatdır, müxtəlif səslərlə, rənglərlə birlikdə təbiətin özüdür, əslidlir, surəti deyil. O da canlı orqanizmdir, təbiət qədər və doğma və amansızdır. Mən indiyə qədər nə çəkmişəmsə, şeirdən çəkmişəm. Onun ağırlığı altında təntimişəm, amma həmişə bu, mənə fərəh verib. Ağrılardan doğan sevincim olub. Mən bu əzabı həyatda bəlkə də heç bir əyləncəyə dəyişmərəm. Axı, bir də bu məndən asılı olan şey deyil. Mənim səadətim də bundadır".

Azərbaycan poeziyasında mükəmməl ŞAİR obrazı ilə çox qarşılaşmışıq. Bütün şeir və poemalarında Nəriman Həsənzadənin ÖZÜ görünür, o, bu əsərləni BAŞ QƏHRƏNİdır. Daha doğrusu, onun hər bir əsərində daxili aləminin, ruhi həyəcanlarının cizgiləri öz əksini tapır.Şair bütün varlığı ilə yaşadığı dünya və mənsub olduğu xalqla bir nəfəs alır. Dünya bütün sevincləri və qəmi,



acısı və şirini, dincliyi və qovğası ilə şairin varlığında yaşayır.

***Bir insan olsaydım, nə idi dərdim,***
***yaşardım hər fəsil bir paltar geyib***
***Evimdə çay içib,***
***çörək də yeyib,***
***Bir insan qəmini çəkə bilərdim.***
***Sinəmdə xalqların bədbəxt taleyi,***
***bəzən bir aldanmış qadın gileyi,***
***bəzən bir torpağın batan çeşməsi,***
***bəzən bir üzsüzün üzə durması,***
***könlümün yayını çəkib qırırlar.***

Nəriman Həsənzadənin Şair obrazı onun fəal həyat mövqeyində, dünya, cəmiyyət, xalq, Vətən və yaşadığı mühit haqqında poetik düşüncələrində əks olunur. O, Sovet dönəmində də, müstəqillik dövründə də HƏQİQƏT uğrunda mübarizə aparmış, yalanı, riyakarlığı, antişumanizmi qətiyyətlə pisləmişdir. Onu Bakıda döyülən bir jurnalistin taleyi də, gürcü şairi İ.Çavçavadzeyə xaincəsinə atılan güllə də, restoranda pişiyinə ad günü keçirən bir müğənninin harınlığı da, Ziya Bünyadovun qətli də, Xatın harayı da, iki Azərbaycanı bir-birindən ayıran tikanlı məftillər də eyni dərəcədə düşündürüb. Şair 90-cı illərin əvvəllərində İranda oldu, "Cənub həsrəti" silsiləsi də bu zaman yarandı:

***Keçdim Culfadakı dəmir körpüdən,***
***orda fars dayanıb, burda rus durür.***
***Qarşıda-***
***İkiyə bölünmüş Vətən,***
***ortada-***
***bir Araz, bir namus durur.***

Nəriman Həsənzadənin yaradıcılığından tarixi bir xətt keçir. Bu xəttin bir ucu XX əsr Azərbaycan həqiqətləri,əsrin ziddiyyətli, təzadlı hadisələri, müstəqillik, azadlıq mücadiləıəri, bir ucu Cənub həsrəti, bir ucu Nizamidən bəri bizim böyük sənətkarların faciəli talelələri, bir ucu dünyanın indisindən antik dövrünə qədər keçdiyi yoldur. O, həmişə poeziyasında qəhrəmanlığı vəsf edib. Nuru Paşadan poema yazıb, Qasaq Kərəmi tərənnüm edib... Akademik Nizami Cəfərovun bu fikriylə tam şərikəm ki: "Nəriman Həsənzadənin bütün yaradıcılığının baş qəhrəmanı Tarixdir". Onun "Nəriman" və "Zümrüd quşu" epik-dramatik poemaları, "Atabəylər" və "Pompeyin Qafqaza yürüşü" mənzum pyesləri düşünülmüş bir bədii konsepsiyanın reallaşmasıdır.

***Araz qırağında, küləkli gündə,***
***Mən bir söyüd gördüm çayın üstündə.***
***Dağılmış saçını gah yel yolurdu,***
***Gah da ki, tikanlı məftil yolurdu.***
***Əyilib o tayı öpürdü söyüd,***
***Əyilib bu tayı öpürdü söyüd.***
***Sandım ki, yel əsir əsr yarımdı.***
***Dondu damarımın elə bil qanı.***
***Sanma qanunlara mən qulaq asdım,***
***Bölmədim bölünmüş Azərbaycanı,***
***Söyüdlə birlikdə bağrıma basdım.***

1962-ci ildə, Araz qırağında yazılmış bu şeirin o illərdə qələmə alınmış "Araznamə"lərdən fərqi burasında idi ki, şeirdəki hüzn və elegiya vay-şivən səviyyəsinə enmir.

Nəriman Həsənzadədən nəyi öyrənmişik, nəyi öyrənirik? Həyat həqiqətlərini (o həqiqətlər ki, şeir dililə ifadə olunanda onları hökm kimi qəbul edirsən), Vətən sevgisini (içindəki Azərbaycan sevgisinə Nəriman sevgisi qarışır), tariximizi, türkçülüyümüzü, kimliyimizi, müstəqil düşünmək istəyimizi, Azadlıq təşnəliyimizi və bir də qadını sevməyi Onun nəzərində Yer üzünün ən gözəl məxluqatı Sevgili-Qadındır. Qadın kimdir? "Qadın üz döndərsə, sönər məhəbbət. Nəğmələr yayılmaz obaya, elə. Qadın xoşbəxt edər, istəsə əlbət. Dünyada ən bədbəxt kişini belə. Qadınsız çətindi həyatı sevmək. Sevgisiz həyat da bir həyat deyil"..

***Gedirsən, darıxıram,***
***get, qayıt külək kimi.***
***Çiçəyim, bitmə gedib***
***çəməndə çiçək kimi.***
***Kölgəni yerdə görüb***
***göydə uçan durnalar,***
***Səni də durna bilib***
***qatarına çağırar.***

Nəriman Həsənzadənin səksəninci illərin sonlarına qədər yazdığı sevgi şeirlərində ayrılıq küləkləri əsmir, məhəbbətin insana bəxş etdiyi mənəvi gözəllik, kişinin bu məhəbbətin təsiriylə kamilləşməsi diqqəti cəlb edir. Ancaq həyat yoldaşı sara xanım vəfat edəndən sonra Nəriman Həsənzadənin şeirlərində hicran küləkləri əsməyə başlayır.Azərbaycan poeziyasında Füzulidən sonra QƏM poeziyasının ən qəmli bir şeirləri yaranır:

***Yer üzü vətəndi, qəbir də vətən,***
***bu gözün ağıdı, o qarasıdı.***
***Lakin bu dünyada olmayıb deyən,-***
***Bunun vətən hansı, qürbət hansıdı?!***
***Ayrılıq bir əbədi bir qəmdi, nə qəm,***
***nə arzuya qıyır, nə yaşa baxır.***
***Mən daşa baxmaqdan daşa dönmüşəm,***
***Üz-üzə durmuşuq: daş daşa baxır.***

Mən Nəriman Həsənzadəni - iki yaşında atasını, iyirmi beş yaşında anasını, əlli beş yaşında həyat yoldaşını itirən, amma milyonlarla insanların sevgisini qazanan bu böyük şairimizi bütün Azərbaycan oxucuları adından təbrik edirəm... İlk Xalq şairimizdir ki, ömür nərdivanlarından keçə-keçə bu yaşı da adlayır...

*Allahverdi Eminov*

# Məmməd Araz poeziyasında Səməd Vurğun şəxsiyyəti

**(V məqalə)**

Poeziya şairin ən Ali hisslərinin təzahürüdür, ona görə ki, digər sənət növ-lərindən yüksəkdə dayanır, yerini saxlayır. Poeziya yeganə sənət növüdür - çəkin-mədən həzin səslə - pıçıltı ilə sirrimizi ehtizaza gətirir, oxucunu özünə təslim edir. Bu qənaətə məni Məmməd Arazın poeziyası gətirdi. Şair Səməd Vurğunun ölü-mündən kədərlənir, şairə həsr etdiyi poetik nümunələrinin motivləri arasında asso-siativ bağlılığı görür.

Məmməd Araz "Sən tələsmədin" (12.05.1956. Şairin və-fa-tından 5 gün sonra) şeirini yazdı, nisgili, heyifsli, göz yaşlı misraları ilə seçildi:

***...Qəlbin od gəzmədi şaxta kəsəndə,***
***Söylədin hər fəslin öz aləmi var.***
***Dedin tələssəm də, tələsməsəm də***
***Yenə öz vaxtında gələcək bahar.***



Bu misralarda Məmməd Araz "Mən tələsmirəm"in poetik çalarlarını, ob-razları ustalıqla saxlamışdır. Çünki S.Vurğun təbiətin qanuna tabe olub, idraki - əxlaqi təminata cavabdehlik daşımışdır. Əxlaqi təminat poetik fikrin yekunu kimi şərtlənmişdir və bu əhval S.Vurğunun "Şair, nə tez qocaldın sən?" etirafına gətirdi. Şeirdə şairin özü görünür, şəxsiyyəti fikrin çalarında əlamət kəsb edir.

Məmməd Araz "Unudulmuş tək məzar" şeirinin assosiativ təsirilə "Müqəd-dəs məzar" şeirini bir ildən sonra (1957) qələmə aldı. Lirik - epik bu bədii nümu-nəni Məmməd Araz yüksək emosional pafosla, intellektual düşüncə və daxili yanğı ilə oxuculara çatdırmışdır. Şair müqəddəs bir qəbrin önündə baş əyir, mülayim kü-lək olsa da, onun qəlbindən qasırğalar keçir, əlində çiçək. Görünür, Məmməd Araz o axının arasında imiş.

***Əsir ılıq külək, mülayim külək,***
***Fəqət qasırğalar keçir sinəmdən.***
***Qəlbimdə çırpıntı, əlimdə çiçək,***
***Müqəddəs bir qəbrə baş əyirəm mən.***

"Müqəddəs məzar"da şairin müdrikliyə çağıran poetik fikirləri düşündürür. Mən şeirin yazılma tarixini bu günə hesablayanda təxminən 65 ildən çox zaman ötür. Amma şeirdəki dərinliyə bax, çünki ölümdə hansısa bir sirr bu anlarda açıla-caq, insanın doğumu ilə ölümü arasındakı paralellik qovuşmayacaq. Elə olarsa, günahkar kimdir, yaxud nədir?

***Günahkar görürəm torpağı, yeri,***
***Ömrümüz özü də sirli aləmdir.***
***Nədənsə insanın əzəldən bəri***
***Gəlişi sevincdir, gedişi qəmdir.***

***Yox-yox, kədərlənmə ürək, ey ürək,***
***Onun söz mülkündən kədər uzaqdır.***
***Bir də ki, dünyaya gələn gedəcək -***
***Ölümə yalvarma, ümid nahaqdır.***

Düşünməyə əsas görürəm: şeir hələ bitməmişdir, şair uzaq səfərdən qayıt-mamışdır. Məmməd Araz illərdir oxucusuna ötürülə - ötürülə inandırmaqdadır. Ədəbiyyatşünas Pol Valerinin sözləridir: "Şeir heç vaxt bitmir, onun yaranması bi-tə bilər; şeir ötürmələrlə yaşayır, fikirdən qələmə, qələmdən kağıza, kağızdan oxucuya və sonsuzluğa qədər davam edir".

S.Vurğunun da, Məmməd Arazın da şeirləri "Ölüm poeziyası" deyil, fərəhli ömrün başı üstünü alan ölümün ağrılı gəlişinin duyulması və real qüvvəyə çevril-məsi şeirin fəlsəfəsindəki metafizik qüdrətin duyumudur. İlahi qüvvənin qeyri - havadarlığı yaşamaq ümidini qırır və cavabı fərziyyəyə bağlı olan sual qoyur: ölümsüzlük, yoxsa ölüm?

Vaxtilə yunan Allahı Hermes mənasız ölümsüzlükdən bezmişdi, ölməyi bacarmaq üçün o, adam olmaq istəyirdi...

Mən Məmməd Araz poeziyasına qayıtmaq istəyirəm:

***Neçə əsəri də odlu çağında,***
***Qaldı yazılmamış can otağında.***
***Əmirxanı tapdı Kür qırağında***
***Bağından bir meyvə dərmədi getdi.***

bu, Ölümün kabus simasıdır, İnsanı uzaq səfərə yola salmasıdır. Məmməd Araz poeziyasında Ölüm - ölməzlik - İnsan ömrünün məzmunu fizioloji hüdudlar xaricinə çıxarılır: İnsanı xəyali ölməzlik və kompensasiya - əvəzlənmə ümidləri tələbatından xilas edir.



# BAYAT



№ 73 (933)



Bəhram Fərmanzadə

## VƏTƏN

Arada ayrılıq iki yüz ildi,
Qardaşın qardaşdan əli üzüldü.
Hicran göz yaşına dönüb süzüldü,
İradə, mətanət, dbzümsən, Vətən!

Sərhəd məftilindən tikandı yaxan
Sinəmdə qıvrılıb Arazsan axan.
Bu taydan o taya həsrətlə baxan,
Vüsalın gözləyən gözümsən, Vətən!

Ömürtək əriyən yolumda şamsan,
Muraza can atan arzusan, kamsan.
Nağıllı gecəsən, qərib axşamsan,
Mən sənin, sən mənim özümsən, Vətən!

## VARIYMIŞ

*(Müəllimim və dostum Fərman Kərimzadənin ruhuna)*

*Cəbrayıla onunla birlikdə gedib hər sübh çağı, qürub vaxtı Xudafərin körpüsünə baxardım. Belə qərara gəldik ki, onun məşhur "Qızıl ağacdan asılmış beşik" əsərinin adını dəyişib "Xudafərin körpüsü" qoyaq. Çünki Xudafərin körpüsündən böyük el, tarixi şəxsiyyətlər keçmişdir)*

Qara bulud yağış olub selləndi,
Çopur daşlar dağ döşündən hellendi.
Çeşmələrin zümrüd gözü lilləndi,
Xan Arazın bulanmağı varıymış.

Çinar töküb həsrətdən yarpağın,
Canıdır su, qanıdır su torpağın.
İki yerə bölünən bu torpağın,
Göz yaşıyla sulanmağı varıymış.

Bu qalanın mamır basıb hörpüsün,
Keçə bilmədim Xudafərin körpüsün,
İtirmişik beldə kəmər hörpüsün,
Baba yurdun talanmağı varıymış.

Həsrətimin Araz olan qolunun,
Ləkələyən Bakı, Təbriz yolunun
Ortalıqda bitən tikan kolunun,
Boynumuza dolanmağı varıymış.

## ÖPƏRSƏN

*"Şuşa, Qarabağ üçün burnumun ucu göynəyir"- deyən dostum Ənvər Əhmədin əziz xatirəsinə*

Həyat mənə işgəncədir, zülümdü,
Bir kimsəm yox, gözləyənim ölümdü.
Sənə qalan bircə ovuc külümdü.
Azad olan torpağıma səpərsən.

Xətainin qılıncını al görüm,
Gir döyüşə, sağa, sola çal, görüm.
Düşmənimi pərən-pərən sal, görüm,
Qolda qüvvət, ürəyimdə təpərsən.

Pərvazlanıb qartal göydə süzəndə,
Güzgülənib sona göldə üzəndə,
Şamxoruzu fərəsini gəzəndə,
Göndər mənə, qaranquşdan xəbər sən.

Bu dünyanın üzü sevinc, kədərdi,
Demə, qardaş, nə əkmişdim, nə dərdim.
Bu dünyada nə var gəldi-gedərdi,
Başım üstə qılınc, qalxan, sipərsən.

Bir palıdam, şimşək vurdu laxladım,
Öz kökümü, budağımı saxladım.
Ənvər Əhməd, yaxşı, pisi yoxladım,
Qarabağın torpağını öpərsən.

## MƏMMƏD ARAZA

Söz tökülər,
Köz tökülər, iliyini sümürsən.
Demirəm ki, istilikdə "kömürsən"
Şeir üçün əriyən bir ömürsən,
Alışmağın, yanmağın da təhri var.

Söz başına fırfıra tək fırlanan,
Yorulmayıb, axıradək fırlanan.
Könlü eldən ilham alıb nurlanan
Hər misranın möcüzəsi, sehri var.

Dayanmadın qırağında dünyanın,
Piltə oldun çırağında dünyanın.
Nəğmə adlı varağında dünyanın
El bilir ki, Məmməd Araz möhrü var.

## OXUMA BÜLBÜL, OXUMA

*(Əzizim və dostum Aqil Abbasa)*

Bir röyadı, yuxudu,
O vaxt heç nə yoxuydu.
Qədir çələng toxudu
"Sona bülbüllər"i oxudu.
Oxuma bülbül, oxuma.

Qiymətini bilmədik,
Bilmədik heç bir nəyin.
Qiymətini bilmədik
Nə gülün, nə çiçəyin.
Oxuma bülbül, oxuma.

O iblisin, naqisin
Toruna naşı düşüb.
Bünövrəsin qoyduğum
Evimin daşı düşüb.
Çiçəklərin üstünə
Gözümün yaşı düşüb.
Şuşa girir yuxuma,
Oxuma bülbül, oxuma.

Saxlayır şəhid yasın
Eşit xeyir-duasın.
Dan yeritək ağarıb
Saçı Aqil Abbasın,
Oxuma bülbül, oxuma.

Əliyalın çıxmışıq
Yaraqlı atlı üstə.
Ruhu Eldar Baxışın
Gəzir Qubadlı üstə,
Oxuma bülbül, oxuma.

Araz əvvəlki Araz,
Kür əvvəlki Kür deyil.
Dörd yanımız yağıdı,
Dünya bilir, sirr deyil.
Necə ki, birləşməyib,
Bu millət ki, bir deyil,
Oxuma bülbül, oxuma.

## NEYNİRƏM

*Tək bir oğlum Fərmanın ruhuna*

Yarılmadı həsrətimin cinahı,
Yıxın, qardaş, üstümə hər günahı.
Sinəm gördü min sitəmi, min ahı,
Qəm yükünü daşımağı neynirəm?

Turac uçur, qırqovullar kirimir,
Bu məftillər, bu dirəklər çürümür.
Sinəm yanır, hicran dağı ərimir,
Belə sitəm, belə dağı neynirəm.

Şam düzəldin gözlərimin yağından,
Heydər baba, gül dərmədim bağından.
Üzmədim mən şamamanı tağından,
Mən saralıb-solmuş tağı neynirəm.

Şərbətini Savalanda içməsəm,
Toy paltarın əllərimlə biçməsəm,
Oğlüm üçün Təbrizli qız seçmişəm,
Mən bu toyu, bu növrağı neynirəm.

## KEÇİR KƏNDİMİZDƏN TƏBRİZ QATARI

*Elə bilirdim kəndimizdən keçən bütün qatarlar Təbrizə gedir*

Kimin dərdi var bizim tək görən,
Bizim kədərimiz, qəhrimiz var.
Bağı-bağatıyla yuxuma girən,
Təbriz tək bir qərib şəhərimiz var.
Elə bil ömrümün dünəni yoxdur,
Gün keçir, il keçir eh, ömür yarı.
Vaqonlar boş gedir, minəni yoxdur.
Keçir kəndimizdən Təbriz qatarı.
Təbrizə qatarda gedən var, susun,
Vaqonu bələdçi yoxlaya bilmir.
Vaqon bələdçisi vətən arzusun
Daşıyan qatarı saxlaya bilmir.
Getdiyi yollardan duman, çən keçir,
O taydan boylanır neçə dağ-dərə.
Keçir, kəndimizin içindən keçir,
Nəfəs dərə-dərə, fit verə-verə.
Dünyanı dolanır dəmir yolları,
Uzatsaq Təbrizə çatar qolumuz.
Görəsən bağlıdır, bağlıdır, niyə,
Bakıdan Təbrizə gedən yolumuz.
Gedənlər boylanır pəncərələrdən,
Gedənlər gecəni, gündüzü yatmır.
İlahi, bilmir, bəs niyə, nədən,
Bu qatar sonuncu mənzilə çatmır.

## VƏTƏN BİRLƏŞİR

Bu taydan o taya
Həsrətlə baxan
Mənim gözlərimdə
Vətən yerləşir.
O taydan, bu taya
Çör-çöp daşıyan
Bir quş dimdiyində
Vətən birləşir.

## EŞQ MƏBƏDİ

*"Pəncərədən daş gəlir
Ay bəri bax, bəri bax".*

Pəncərəniz bağlıdı,
Amma tülü görünür.
Ağ tülünün üstündə
Qızıl gülü görünür.
Pəncərəniz bağlıdı,
Qapınızı döyən yox.
Pəncərədən daş gəlir,
"Ay bəri bax"-deyən yox.

... Pəncərəniz açıqdı,
Səhər durub o başdan
Eşq məbədi tikmisən,
Mənə atdığın daşdan.

## ARAZ

Arazım bir anadır,
O sahildə balası
Arazım bir anadır,
Bu sahildə balası.

Arazım bir anadır,
Dərdimizə qalası.
Arazım bir anadır,
Bölünübdür laylası.

Arazım bir anadır,
Dərdə dözür, lal dayanır.
Arazım bir anadır,
Baxışında sual yanır.

## NÖQTƏ QOYA BİLMƏDİM

Yaşamaq gözəl şeydi,
Yaşadım, duya bilmədim.
Bu dünya bir qədəh meydi,
İçdim, doya bilmədim.

Baxdım göy üzünə,
Gecəsinə, gündüzünə,
Baxdım əyri, düzünə,
Abır, həya bilmədim.

Ölçüm, biçimi yazdım,
Köçən köçümü yazdım.
Yazdım, içimi yazdım,
Nöqtə qoya bilmədim.

## ÜRƏYİ BÖYÜKLƏR

*(Əziz dostum və qardaşım Əbülfət Mədətoğluna)*

Dəryada fırtına qoynuna düşən
Ümmanlar qoynunda demə tərk olur
Talehin qəribə oynuna düşən
Ürəyi böyüklər dizi bərk olur.

Az işlər görmədin elin yolunda
Qiymətin obada, elində olsun.
Əlinin gücü var, qardaş qolunda
Nizami qələmi əlində olsun.

Qəlbində işıq var, gözlərində nur
Kişini yaşadan amal ürəkdi.
Qartallar həmişə zirvədən uçur
Qəlbi genişlərə meydan gərəkdi.

## DÜNƏNİN BUGÜNÜN TARİXİN YAZ

*(Görkəmli tarixçi Süleyman Əliyara)*

Məddahlar qarşında dura bilmədi,
Hücumlar çox oldu hədə-qorxuda.
Polad iradəni qıra bilmədi
Bir ömür həsr etdin Dədə Qorquda.

Bələdsən bu yurdun, yerin qatına
Çiynində millətin, yükün bilirsən.
Enib bu torpağın dərin qatına
Bu xalqın tarixi kökün bilirsən.

Borcludur ay ustad qanana qanmaz,
Dibim qızıldandır desə də qazan.
Dünənin, bu günün tarixini yaz,
Vaqif olmayıbdır hər yazı yazan!

## İNCİYİR

*(Dostum və qardaşım Ağa Laçınlıya)*

Natəvan mülkünü ediblər talan,
Gözüm baxa-baxa yağıda qalan
Qatır dırqaq töküb, quş qanad salan
Əskəran adlı qallam inciyir.

Sinəm Dəli dağdı, başım Murovdu,
Qapqara saçlarım indi qırovdu.
Qardaşım itkindi, bacım girovdu,
Gözümə baxanda balam inciyir.

Güllü yaylaqlara köçüm köçməyir,
Baxmaqdan kor olub, gözüm seçməyir.
Nadanın yanında sözüm keçməyir,
Sinəmi yandıran kəlam inciyir.

Tənhayam, arxam yox, nə də öndərim,
Fələyin çarxını necə döndərim.
Kimə namə yazım, kimə göndərim,
Etdiyim o haqqı-salam inciyir.

Çölümdə sar gəzir, gölümdə bağa,
Soltan bəy yurduna sahibdir dığa.
İçimdə tağ atıb dərdim, ay ağa,
Axmazım inciyir, çalam inciyir.

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 7 (2479) 20 fevral 2026-cı il



# ERMƏNİLƏR QARABAĞ SAVAŞINDA AZƏRBAYCANA YÜZ MİLYARDDAN ÇOX ZİYAN VURUBLAR

**Dünyada çox müharibələr olub və o müharibələrdə heç şübhəsiz ki, bombardmanlar nəticəsində evlər, sosial obyektlər, məktəblər yerlə-yeksan olub və dağıdılıb. Bütün bunlar müharibələrin bəşəriyyətə və insanlığa gətirdiyi böyük faciələrdir. Ona görə də dünyanın heç bir yerində insanlar müharibə istəmir və sülh arzulayırlar. Çünki sülh olanda nə şəhərlər, nə kəndlər, nə qəsəbələr dağılır, nə də insanlar ölür.**

Amma ermənilərin bizimlə apardığı Qarabağ savaşında insani dəyərlər, humanizm və ən nəhayət, bəşəri düşüncələr heç vaxt nəzərə alınmadı. Ona görə nəzərə alınmadı ki, bizimlə düşmənçilik edən ermənilər insanpərvərlikdən, sülhdən və ən nəhayət, insanlıqdan uzaq idilər. Əgər uzaq olmasaydılar onlar ərazimizin 20 faizini işğal edərkən şəhərlərin, qəsəbələrin və kəndlərin daşını daş üstə qoymazdılar.

Təbii ki, bütün 30 il müddətində ermənilər və onların havadarları işğal altında olmuş torpaqlarımızın, ərazimizin sərvətlərini talayıb aparmaq üçün müxtəlif yollar axtarmışdılar və onu da tapmışdılar. Onlar hər bir rayonu, qəsəbəni, kəndi işğal edəndə insanları qırıb-çatmaqla yanaşı, ordakı təbii sərvətləri, camaatın mülkünü talayıb aparmaq haqqında planlar hazırlamışdılar. Və o plana uyğun da ermənilər 30 ildə Azərbaycana qarşı soyqırımı tətbiq etməklə yanaşı, onun sərvətinə, ekologiyasına, fauna və florasına böyük zərbələr vurmuşdular.

Hadisə şahidlərindən biri deyir ki, ermənilər yaşayış məntəqələrimizi ələ keçirəndən sonra hər evi kimlərəsə 300 dollar səviyyəsində satıblar. Yəni bu evin içindəki mülk, əşya, müxtəlif qiymətli xalçalar və digər avadanlıqlarla yanaşı evin döşəməsi, tavanı, qapısı, pəncərəsi, üst örtükləri hamısı, hətta daşı belə bir-bir söküb aparılmışdı. Hələ bütün bunlar da hamısı deyil, onlar Zəngilan kimi rayonda uzun illər boy verən çinar meşəliklərinin hamısını qırıb talamış, bir çinar ağacı belə qoymamışdılar.



Eyni zamanda Füzulidə, Ağdamda, Qubadlıda, Kəlbəcərdə, Laçında, Cəbrayılda və digər işğal altında olan yaşayış məntəqələrimizdə 100-200 illik çinar, palıd, qoz və digər nadir ağacların hamısını kökündən çıxarmışdılar. Hətta bir neçə yerdə onlar taxta sexləri yaratmış, palıddan və qozdan parketlər və eləcə də qiymətli mebellər hazırlayaraq xarici ölkələrə, o cümlədən Fransaya göndərmişdilər. Qızıl yataqlarımız və eləcə də digər təbii zəngin ehtiyatları olan yerlərdə yeni zavodlar, yeni sexlər açmışdılar. Zəngilandakı və Gədəbəydəki sexlər buna nümunə ola bilər. Xaricdən gələn milyarderlər həmin yerlərə ən müasir avadanlıqlar və dəzgahlar gətirir, həmin qiymətli məhsulun emalı ilə məşğul olurdular. Elə ermənilər bu qızıl yataqlarından milyardlarla dollar vəsait əldə etmişdilər. Onlar Azərbaycanın varını-dövlətini, sərvətini daşıyır, beynəlxalq təşkilatlar isə bunu görsələr də susmağa daha böyük üstünlük verirdilər. Çünki Fransa və Avropanın digər dövlətləri bu sərvətlərdə maraqlı idi.

Həmin dövrlərdə mənim bir tanışım Fransaya getmişdi. Orda ermənilərin istehsal etdiyi və satışa çıxartdığı "İstisu"yu 5 dollara almışdı. Eləcə də İrana, daha doğrusu, Azərbaycanla sərhəd kəndlərinə gedən bir tanışım Aslandüzdə olarkən dostunun evinə gedir və orda evinin qiymətli qapısını görür. Soruşur ki, bu qapını hardan almısan? Deyir ki, ermənilər o evi mənə əşya qarışıq 300 dollara satmışdılar. Bu gördüyün qapı da həmin evin qapısıdır. Ev sahibi deyir ki, bu qapı mənim evimin qapısıdır, kövrəlir və gözləri dolur.

Dünyanın heç bir müharibəsində qəbiristanlıqlar buldozerlərlə şumlanıb həmin yerdə taxıl və digər kənd təsərrüfatı məhsulları əkilməyib. Amma ermənilər Ağdamın və Füzuli şəhərinin qəbiristanlığını şumlayaraq orda taxıl və digər məhsullar əkiblər. Bunu kim edər? Əlbəttə, bunu ancaq ermənilər edər. Hələ ən dəhşətlisi odur ki, onlar müharibə dövründə xaricdən gətirdikləri avadanlıqla qəbirləri bir-bir yoxlayır, hansı qəbirdə dəfn olunan insanın ağzında qızıl diş varsa onları çıxarıblar.

Belə qəbirlər bir deyil, iki deyil. Qarabağda qəbiristanlıqlarda minlərlə belə qəbirləri goreşən kimi dağıdıb ordakı cəsədlərdə qızıl axtarıblar. Heç eləsi var ki, qızıl dişi olmayıb, amma yenə o qəbiri dağıdıblar, cəsədi də, sümükləri də bir yana atıblar. Bütün bunlar erməni vəhşiliyinin bariz nümunəsidir.

Erməni elə millətdir ki, onlara canını, qanını, həyatını qurban versən belə, fürsət düşən kimi bir gün sənin başını ya pambıqla kəsəcək, ya balta, ya da dəhrə ilə. Onlar bizim əsirlərlə çox vəşhicəsinə davranıblar. Biz onların əsirlərinə beynəlxalq hüquq normalarına uyğun münasibət göstərmişik, həbsxanalarda normal şərait yaratmışıq və davamlı olaraq qida ilə təmin etmişik. Ancaq onlar bizim əsirlərə olmazın zülmün ediblər - ya qıçını sındırıblar, ya qabırğasın, ya da gözünü çıxarıblar.

Çünki əsirləri dəyişən kimi biz bunları dəfələrlə görmüşük. Onların əsirlərinin sifətindən yağ damıb, bizim əsirlərin çöhrəsindən ölüm. Bax, ermənilər həmişə belə olublar.

Əsir düşəndə ilan kimi dil çıxarıb yalvarıblar, burda kef ediblər, amma qayıdanda deyiblər ki, azərbaycanlılar bizi incidiblər. Yalansa Allah sizə qənim olsun!

**İkinci Qarabağ savaşında 44 günlük Vətən Müharibəsində Qarabağ tamamilə erməni işğalından azad ediləndən sonra biz bütün bu vəşhiliklərin və müharibə cinayətlərinin şahidi olduq. Bir bina tapılmadı ki, Azərbaycan bayrağını əsgərlərimiz ora sancsınlar. Çünki ermənilər ərazilərimizdə daşı daş üstə qoymamıqdılar. İndi bizə Qarabağ müharibəsində yüz milyarddan çox maddi ziyan dəyib. Beynəlxalq Məhkəmədə bu məsələlər araşdırılmalı, bizə dəymiş maddi və mənəvi ziyanı ermənilər ödəməlidirlər. Əgər vəsaitləri yoxdursa onda zəhmət çəkib ərazi mübadiləsi etməlidirlər. Hər halda, dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar və beynəlxalq ədalət məhkəməsi bu haqsızlığa dözməməli, öz konkret münasibətini bildirməlidir.**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# İstanbulun mozaika irsini Zeytinburnu Mozaika Muzeyində kəşf edin

**Qədim dövrlərə aid döşəmə və divar mozaikaları təkcə dekorativ element deyil, həm də öz dövrünün sosial həyatı, estetik dünyagörüşü və mifoloji təsəvvürləri haqqında qiymətli məlumat mənbəyidir. Minilliklər boyu saysız-hesabsız sivilizasiyalara ev sahibliyi etmiş Türkiyə dünyanın ən nadir və ən zərif mozaika nümunələrindən bəzilərini qoruyub saxlayır. Bu zəngin irs ölkə boyu tarixi məkanları sanki açıq səma altında sənət qalereyasına çevirir.**

İndi isə bu nadir irsi İstanbulun mərkəzində, şəhərin ən yeni muzeylərindən birində yaxından görmək mümkündür. Tarix bəzən gözlənilməz məkanda üzə çıxır. Şəhərin tarixi qala divarlarından kənarda yerləşən və ən böyük mozaika sahələrindən birinə ev sahibliyi edən Zeytinburnu Mozaika Muzeyi mədəniyyət həvəskarları üçün ideal məkandır. Muzey İstanbulun zəngin keçmişinə fərqli və təsirli bir baxış təqdim edir. Hazırda Kazlıçeşmə Sənət Mərkəzi kimi fəaliyyət göstərən, tarixi hərbi hospital binasında yerləşən muzey paytaxtın mühüm mədəni yerlərindən biridir. Burada nümayiş etdirilən mozaikalar 2015-ci ildə aparılan bərpa işləri zamanı, təxminən 1,5 metr dərinlikdə aşkar edilib.

Tapıntıdan dərhal sonra abidələr mühafizə altına alınıb. 2019-cu ildə isə döşəmədə müşahidə olunan həndəsi naxışların daha geniş sahəyə yayıla biləcəyi ehtimalı ilə İstanbul Arxeologiya Muzeylərinin nəzarəti altında sınaq qazıntılarına başlanılıb. Qazıntılar mozaikaların davam etdiyini təsdiqləməklə yanaşı, iki nəfərin qalıqlarının yerləşdiyi iri mərmər sarkofaqın da üzə çıxmasına səbəb olub. Bu gün muzeydə mozaikalar məhz tapıldıqları orijinal kontekstdə nümayiş etdirilir. Ziyarətçilər tarixi abidələri öz ilkin mühitində görmək imkanı əldə edir, eyni zamanda digər arxeoloji artefaktlarla da yaxından tanış olurlar. Zeytinburnu rayonunda yerləşən, Osmanlı dövrünə aid qırmızı kərpicli



və zövqlə bərpa edilmiş bina ziyarətçiləri geniş mozaika sahələri ilə qarşılayır. Orijinal mozaikaların üzərində qurulmuş şüşə platforma vasitəsilə ”opus tessellatum” texnikası ilə işlənmiş nadir nümunələri yuxarıdan seyr etmək mümkündür. IV-V əsrlərə aid olduğu və yerli Roma villasının bir hissəsi sayıldığı ehtimal edilən çoxrəngli mozaikalar həndəsi naxışlar, ulduz motivləri, çoxbucaqlı kompozisiyalar və bitki ornamentləri ilə zəngindir. Bu zərif kompozisiyalar Erkən Roma və Erkən Şərqi Roma dövrünün incəsənət üslubunu əks etdirir və ziyarətçiləri İstanbulun çoxqatlı tarixində sakit, lakin təsirli bir səyahətə aparır. 190 kvadratmetrdən çox sahəni əhatə edən mozaikalarla yanaşı, muzeydə aşkar edilmiş digər arxeoloji tapıntılar da böyük maraq doğurur.

Mərmər sarkofaq, kərpicdən inşa edilmiş məzar strukturu və insan qalıqları ekspozisiyanın ən diqqətçəkən nümunələrindəndir. Müxtəlif əsrlərə aid terrakota qablar və sikkələr isə bu ərazidə həyatın uzun müddət fasiləsiz davam etdiyini sübut edir. Zeytinburnu Mozaika Muzeyi yalnız arxeoloji məkan deyil. Kitabxana, sərgi zalları və digər mədəni bölmələri ilə kompleks bölgənin mədəni həyatının canlandıran çoxfunksiyalı mərkəz kimi fəaliyyət göstərir.

Muzey bazar ertəsi istisna olmaqla həftənin bütün günləri saat 10:00-dan 18:00-dək ziyarətçilərin üzünə açıqdır. Buraya hər səfər yadda qalan təəssürat yaradır və bu unikal irsi yenidən kəşf etmək arzusu oyadır.

**Sübhan**

# Milli Xalça Muzeyində "Bağçada güllər" sərgisi açılıb

**Fevralın 17-də Azərbaycan Milli Xalça Muzeyində Avropanın milli geyim və ornamentlərinə həsr olunmuş ”Bağçada güllər” sərgisi açılıb.**

Sərgi altıncı ”FantazEU” Mədəni İrs Festivalı çərçivəsində Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin, ”Arts Council Azerbaijan” təşkilatının, Azərbaycan Milli Xalça Muzeyinin və Aİ-yə üzv dövlətlərin səfirliklərinin dəstəyi ilə təşkil edilib.

Tədbirdə muzeyin direktoru Əminə Məlikova ziyarətçilərə unikal eksponatları təqdim etmək imkanına görə Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Mariyana Kuyunciçə minnətdarlığını bildirib.

Layihənin konsepsiyası barədə danışan direktor qeyd edib ki, sərgidə muzeyin ”qızıl kolleksiyası”ndan olan bir neçə xalça - əsasən XVIII əsrin sonu və XIX əsrin əvvəllərinə aid Qarabağ xalçaları nümayiş olunur. Sərginin əsas mövzusu çiçəklənmə və rifahın rəmzi kimi gül motividir. Bu motiv səkkiz Avropa ölkəsinin və Azərbaycanın milli geyimlərini bir ideya ətrafında birləşdirib.

Əminə Məlikovanın sözlərinə görə, bahar yenilənməsi ideyası Azərbaycan musiqi ənənəsində də öz əksini tapıb - çiçək açan qızıl güllərin və cəh-cəh vuran bülbülün tərənnüm olunduğu böyük Bülbülün əsərlərində bu motiv aydın hiss edilir. Məhz buna görə də zərif çiçək naxışları ilə bəzədilmiş xalçalar milli geyimlərlə yanaşı nümayiş etdirilir.



Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Mariyana Kuyunciç vurğulayıb ki, sərginin məqsədi Azərbaycan ictimaiyyətini əsrlər boyu formalaşmış Avropa sənətkarlıq ənənələrini əks etdirən milli geyimlərlə tanış etməkdir. Bolqarıstan, Çexiya, Almaniya, Latviya, Litva, Polşa, Rumıniya və Slovakiya səfirlikləri tərəfindən təqdim olunan müxtəlif tarixi dövrlərə aid milli geyim nümunələri Avropa kimliyinin mədəni xüsusiyyətlərini, müxtəlifliyini və özünəməxsusluğunu nümayiş etdirir.

O qeyd edib ki, milli geyim bir xalqın tarixinin unikal güzgüsüdür və sosial-iqtisadi, mədəni, tarixi və təbii-coğrafi amillərin təsiri altında formalaşır. Onun sözlərinə görə, ənənəvi geyim müxtəlif ölkələrin mədəniyyətini öyrənmək üçün mühüm mənbədir. Təşkilatçılar ümid edirlər ki, sərgi Azərbaycan ziyarətçilərinə Avropa İttifaqı ölkələrinin milli mədəniyyəti və folkloru ilə daha yaxından tanış olmaq imkanı yaradacaq.

”Arts Council Azerbaijan” təşkilatının rəhbəri Dadaş Məmmədov da Avropa İttifaqına festivala göstərdiyi dəstəyə görə təşəkkürünü bildirib. O qeyd edib ki, festivalın hər il keçirilməsi Avropa mədəniyyətinin təbliğinə, əməkdaşlığın gücləndirilməsinə və ölkələr arasında mədəni əlaqələrin inkişafına töhfə verir.

Sərgidə Bolqarıstan, Çexiya, Almaniya, Latviya, Litva, Polşa, Rumıniya və Slovakiya səfirlikləri tərəfindən təqdim olunan 16 dəst milli geyim nümayiş etdirilir. Bu nümunələr Avropa ölkələrinin zəngin mədəni müxtəlifliyini, müxtəlif tarixi dövrlərdən gələn adət-ənənələrini, fərqli kimliklərini və geyimlərin bəzək xüsusiyyətlərini əks etdirir. Ekspozisiyada muzeyin kolleksiyasına aid Azərbaycan milli geyimləri, eləcə də ”Bağçada güllər” və ”Alpan” xalçaları da yer alıb. Sərgidə Avropa və Azərbaycan mədəni irsi arasında paralellər aparılır, ornament və dekorativ motivlərin universal estetik dəyərləri vurğulanır. Layihənin əsas məqsədi Avropa xalqlarının ənənəvi milli geyimlərini təqdim etmək, Avropa və Azərbaycan dekorativ-tətbiqi sənətləri arasında bədii və mədəni paralelləri göstərməkdir.

Sərgi fevralın 21-dək davam edəcək.

## *Vəfa Şərifova: “Analar oğullarını düzgün tərbiyə etmirlər”*



**İllərdir birgə yaşadığı iş adamından ayrılan Vəfa Şərifova maraqlı açıqlaması ilə diqqət çəkib.**

Adalet.az xəbər verir ki, o, ailələrin dağılmasında birbaşa oğul analarını qınayıb:

”Ölkəmizdə boşanmaların sayı bir çox ölkələrdən çoxdur. Əlbəttə, bu çox pisdir. Bizim analarımız- nənələrimiz mental dəyərlər adı altında oğullarını böyütmələri digər qadınların bədbəxtliyinə yol açır. Həmin analar- nənələr o ”mərhələ”ni keçirlər. Bu mühitdə böyüyən oğul da görür ki, anası, nənəsi dözür. O da düşünür ki, anam- nənəm dözübsə, yoldaşım da dözməlidir.

Əgər bir ana rahatlıqla ”kişi gəzər, qadın ona dözər” deyirsə, həmin qadının tərbiyə etdiyi oğul da ailəsini o ”qanun”la idarə edəcək. Ancaq həmin adam anlamır ki, evləndiyi qadını başqa qadın doğub, həmin adam başqa xislətdə dünyaya gəlib.

Kimsə özünə hörmət edib xəyanəti bağışlamayanda həmin qadın olur pis qadın. Çünki bizim cəmiyyət kişini xəyanətinə ”olar” deyir. Qadını isə bu cəmiyyət xəyanətinə görə güllələməyə hazırdır”.

## *Ofelya Şabanova: “Kim neçə dəfə ailə dağıdır özü bilər”*



**Son zamanlar xanım həmkarları ilə qalmaqal yaşayan Ofelya Şabanova ilk dəfə həyat yoldaşının birinci evliliyindən danışıb.**

Adalet.az xəbər verir ki, o, həyat yoldaşının ilk evliliyini dağıtmadığını etiraf edib: ”Mənim yoldaşım məndən əvəl ailəli olub və boşanıb. Ancaq bu boşanmaya mən səbəb olmamışam.

O vaxt 16 yaşım var idi. Siz deyin, 16 yaşında biz qız ailə dağıda bilərmi? Bu nə sözlərdir haqqımda danışırlar?! Hər şeyi Allaha həvale edirəm.

Yoldaşım boşanıbsa, burda ayıb heç nə yoxdur axı. Yəni boşanıbsa, əlbəttə, kiminləsə evlənəcəkdi. Bu şəxs mən olmasam da başqası olacaqdı. Bu məsələni böyütməyə nə ehtiyac var? Biz normal insanlar kimi ailə qurmuşuq.

Mənim heç kəslə işim yoxdir. Kim neçə dəfə ailə dağıdır özü bilər. Mən sənətimlə, ailəmlə məşğulam”.

**Əntiqə**

**Cəfərova Xalidə Həsən qızına 07.07.2023-cü ildə verilmiş 1010183 nömrəli “Şəhid ailəsi üzvü” vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

***

**Sumqayıt şəhərində fəaliyyət göstərən “NR” firmasının möhürü itdiyi üçün etibarsız sayılır.**

Aqil Abbas şair
**Musa Ələkbərlinin**
vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

Millət vəkili Tahir Rzayev şair
**Musa Ələkbərlinin**
vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

Əbülfət Mədətoğlu şair
**Musa Ələkbərlinin**
vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

Əbülfət Mədətoğlu şair-tərcüməçi
**Qoca Xalidin**
vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.


**Təsisçi və baş məsləhətçi:** Aqil ABBAS
**Baş redaktor:** İradə TUNCAY

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**



Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
**Telefon: (012) 491-23-53**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**



**Tiraj: 1500**
**Sifariş: 267**
Çapa imzalanmışdır: 19.02.2026